NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ AZƏRBAYCANIN ƏN DƏYƏRLİ, QABAQCIL ALİ MƏKTƏBLƏRİNDƏN BİRİDİR

HEYDƏR ƏLİYEV



# YENİ FİKİR

TƏSİSÇİ: NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

05 dekabr 2025-ci il, cümə № 7 (69)

## Naxçıvan Dövlət Universiteti ilə Düzcə Universiteti arasında əməkdaşlıq protokolu imzalanıb

Naxçıvan Dövlət Universiteti (NDU) ilə Türkiyənin Düzcə



Universiteti arasında NDU-da əməkdaşlıq görüşü keçirilib.

Görüşdə NDU-nun rektoru Elbrus İsayev universitetin tarixi, inkişafı və fəaliyyəti haqqında məlumat verib. Vurğulanıb ki, müasir tipli və çoxprofilli təhsil sisteminə malik olan NDU 108 hektarlıq ərazidə yerləşən modern kampusu ilə ölkənin aparıcı ali təhsil müəssisələrindən biridir. Dünyanın 150-yə yaxın universiteti ilə birbaşa əlaqələri var və bu əlaqələrdə Türkiyə universitetləri üstünlük təşkil edir. Eləcə də 23 xarici ölkədən 1800-ə yaxın əcnəbi tələbə kontingentində Türkiyənin müxtəlif bölgələrindən olan tələbələr say çoxluğu ilə seçilir. Rektor universitetin çoxşaxəli kadr hazırlığından bəhs edib, qeyd olunub ki, NDU-da 250-yə yaxın proqram üzrə kadrlar hazırlanılır. IELTS və SAT Qeydiyyat və İmtahan Mərkəzi, IBM Mərkəzi, Texnologiyalar Parkı və digər strukturlar, layihələr əsasında – beynəlxalq əməkdaşlıqlar gücləndirilir. Ölkə və xarici ali təhsil ocaqları ilə ikili diplom proqramları, müəllim - tələbə mübadiləsi uğurla icra olunur.

Düzcə Universitetinin rektoru Nedim Sözbir görüşdən məmnunluğunu bildirib, rəhbərlik etdiyi ali təhsil müəssisəsinə dair məlumatları bölüşüb, Naxçıvan Dövlət Universiteti ilə qurulacaq ortaq əməkdaşlığın irəlidə uğurlu layihələrə yol açacağına əminliyini ifadə edib.

Əməkdaşlıq görüşündə doktorantura səviyyəsində kadr hazırlığı, birgə elmi konfransların və ortaq tədqiqat işlərinin aparılması, ikili diplom layihələrinin təşkili, akademik heyətin qarşılıqlı fəaliyyəti, müəllim-tələbə mübadiləsinin genişlənməsi barədə razılıq əldə edilib. Hər iki ali təhsil ocağının elmi və tədris-innovasiya infrastrukturundan qarşılıqlı faydalanmaq, maraq kəsb edən digər istiqamətlərdə birgə işlər təşkil etmək nəzərdə tutulub. Eyni zamanda, birgə əməkdaşlıq çərçivəsində perspektivdə olacaq fəaliyyətlərə, xüsusilə süni intellekt əsaslı layihələrin planlaşdırılmasına dair qarşılıqlı təkliflər səsləndirilib.

Sonra Naxçıvan Dövlət Universiteti və Düzcə Universiteti arasında əməkdaşlıq Memorandumu imzalanıb, xatirə fotosu çəkdirilib.





## Naxçıvan Dövlət Universiteti ilə Bayburt Universiteti arasında memorandum imzalanıb





Naxçıvan Dövlət Universitetində Bayburt Universitetinin rektoru ilə görüş keçirilib. Görüşdə NDU-nun rektoru Elbrus İsayev və Bayburt Universitetinin rektoru Mutlu Türkmən iki ali təhsil müəssisəsi arasında əməkdaşlıq imkanlarını müzakirə ediblər.

Elbrus İsayev çıxışında akademik fəaliyyət sahəsində birgə platformaların qurulmasının, elm və idman tədbirlərinin təşkilinin əhəmiyyətindən danışıb. Rektor qarşılıqlı əlaqələrin elm və təhsildə də öz əksini tapmasının önəmini qeyd edib.

Mutlu Türkmən isə çıxışında Bayburt Universitetinə müraciət edən azərbaycanlı tələbələrin say üstünlüyündən bəhs edib və bu baxımdan da əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayıb.

Tədbir zamanı Bayburt Universitetinin Beynəlxalq Dədə Qorqud Mədəniyyət-Tədqiqat Mərkəzi ilə Naxçıvan Dövlət Universiteti arasında əməkdaşlığın qurulması, elmi-tədqiqat laboratoriyalarında birgə ortaq layihələrin həyata keçirilməsi, idman sahəsində əməkdaşlığın gücləndirilməsi, universitetlərarası idman yarışlarının, yay festivallarının, ortaq konfransların keçirilməsi, tələbə və müəllim mübadiləsi məsələləri müzakirə olunub.

Sonda qarşılıqlı hədiyyələr təqdim edilib, universitetlər arasında əməkdaşlıq memorandumu imzalanıb.



# “İnkişaf və innovasiyalar: Süni intellekt və maşın öyrənməsi” adlı I Beynəlxalq elmi-praktik konfrans



Naxçıvan Dövlət Universitetində “İnkişaf və innovasiyalar: Süni intellekt və maşın öyrənməsi” adlı I Beynəlxalq elmi-praktik konfransın açılış tədbiri olub.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Konfrans Naxçıvan Dövlət Universiteti (NDU), Azərbaycan Texniki Universiteti (AzTU), Mingəçevir Dövlət Universiteti (MDU), Özbəkistanın Daşkənd Dövlət Texniki Universiteti, Malayziyanın Asiya və Sakit Okean Texnologiya və İnnovasiya Universitetinin və Pakistanın Milli Elm və Texnologiya Universitetinin birgə təşkilatçılığı ilə hibrid formada keçirilib.







İki gün davam edən konfransın əsas məqsədləri süni intellekt və maşın öyrənməsi sahəsindəki ən son tədqiqat və texnoloji yenilikləri təqdim etmək, müxtəlif sahələrdə real tətbiq nümunələrini nümayiş etdirməkdir. Eləcə də konfrans məlumatın keyfiyyəti, modelin izah edilə bilməsi, miqyaslana bilməsi kimi əsas məsələləri araşdırmaq, süni intellekt dövründə inkişafı dəstəkləmək üçün akademiya, sənaye və hökumət arasında əməkdaşlığı təşviq etməyə hədəflənib.

Açılış nitqi ilə çıxış edən NDU-nun rektoru Elbrus İsayev konfransı aktual və müzakirəsi zəruri olan süni intellekt yönündə tədqiqatçıları, sahə mütəxəssislərini, alimləri bir araya toplayan mühüm beynəlxalq forum adlandırıb. Rektor rəhbərlik etdiyi ali təhsil ocağının strateji inkişaf planında kadr potensialının təkmilləşdirilməsində ixtisasları gələcəyin bacarıqları ilə zənginləşdirmək və yeni ixtisaslar açmaq prioritetlərinin olduğunu bildirib. NDU-da ilin əvvəlində robot moderator qadının təqdimatında “Süni intellekt: nəzəriyyədən praktikaya” II Beynəlxalq elmi konfransı keçirildiyini xatırladıb, eləcə də universitetdə tədris olunan ixtisaslarda süni intellektin seçmə fənn olaraq şaxələndirildiyini qeyd edib. Rektor “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı” çərçivəsində Azərbaycan ali təhsil müəssisələri arasında ilk dəfə NDU–da İnnovasiyalar Mərkəzinin açılışına diqqət çəkib və müxtəlif innovativ layihələrin həyata keçirildiyini vurğulayıb. Dünyanın Texnologiya lideri olan IBM-lə NDU arasında əməkdaşlıq müqaviləsinə əsasən istifadəyə verilən IBM Mərkəzi hazırda tikintisi davam edən Texnologiyalar Parkı haqqında məlumat verib. Rektor irəlidə IBM İnstitutunun, tələbələrin IBM sertifikatı əsaslı təlimlərdə iştirakının, Kulturologiya Mərkəzinin də yaradılmasının planlaşdırılan tədbirlər sırasında olduğunu qeyd edib.

AzTU-nun rektoru Vilayət Vəliyev çıxış edərək vurğulayıb ki, konfrans qlobal əhəmiyyətli mövzuya həsr olunub, 13 ölkədən 200-ə yaxın məqalə daxil olub. İlkin mərhələdə 135 məqalə seçilib, bu məqalələr dəyərləndirildikdən sonra müxtəlif beynəlxalq elmi platformalarda çap olunacaq. Vilayət Vəliyev vurğulayıb ki, konfransda geniş coğrafiyadan iştirakçılar var və tədbirin uğurla təşkili də böyük məsuliyyət, həmçinin peşəkarlıq tələb edir. Bu mənada Naxçıvan Dövlət Universitetinin belə mühüm tədbirə ev sahibliyi təqdirəlayiqdir. Çünki, süni intellekt və maşın öyrənməsi yalnız avtomatlaşdırmanı və qərarvermə proseslərini təkmilləşdirmir, eyni zamanda insanların bir-birləri ilə qarşılıqlı əlaqə qurma tərzini də dəyişdirir. Vilayət Vəliyev: “Mühüm akademik dəyərləndirmələri bir araya toplayan konfrans süni intellekt yönündə yeni təşəbbüslərin də ortaya çıxmasına imkan verən olduqca önəmli platformadır”, - deyə qeyd edib.

Düzcə Universitetinin rektoru Nedim Sözbir konfransda iştirakdan məmnunluğunu ifadə edib, burada yeni ideyaların paylaşılması, problemlərin müzakirəsi və mühüm yeniliklərin təşviqi yönündə önəmli fikirlər səslənəcəyinə əminliyini bildirib. Səhiyyə, təhsil, nəqliyyat, istehsalat və maliyyə kimi müxtəlif sahələrdə hər gün yeni layihələrlə həyatımıza daxil olan süni intellektə dair ali təhsil ocaqlarında belə tədbirlərin keçirilməsinin günün tələbi olduğunu söyləyib.

MDU-nun rektoru Anar Eminov çıxışında Naxçıvan Dövlət Universitetinin süni intellektlə bağlı maarifləndirmə işində ölkədə nümunəvi ali təhsil müəssisələrindən olduğunu vurğulayıb, konfransın tədqiqatçıların bilik və təcrübələrini bölüşməsi, yeni tədqiqat istiqamətlərinin təməlinin qoyulması baxımından olduqca əhəmiyyətli tədbir olduğunu deyib. Təqdim olunan məqalələrin tədqiqatlar aparmaq, kadrlar hazırlamaq, süni intellekt ekosisteminin formalaşmasına dəstək olmaq baxımından əsaslı mənbə olacaqlarını bildirib.

Daha sonra Pakistanın Milli Elm və Texnologiya Universitetinin prorektoru Osman Həsən “Süni intellekt sistemləri vasitəsilə neyromorfik davamlı öyrənmə üçün effektiv təkrar yaddaşa əsaslanan metodologiya”, Budapeşt Korvinus Universitetinin Maliyyə İnstitutunun direktoru Kata Varadi “Mürəkkəb svop opsionlarının qiymətləndirilməsində süni intellektdən istifadə”, Belarusiya Dövlət İnformatika və Radioelektronika Universitetinin kafedra müdiri Boiprav Olga “Materialların mikrodalğadan qorunma effektivliyini proqnozlaşdırmaq üçün fizika əsaslı neyron şəbəkələrə əsaslanan müasir yanaşma” mövzularında çıxış ediblər. Səsləndirilən fikirlərdə natiqlər məlumat mübadiləsindən əlavə olaraq, daha ağıllı, daha səmərəli və daha inklüziv rəqəmsal gələcək qurmağa töhfə verəcək uzunmüddətli tərəfdaşlıqlara və innovativ fikirlərə ilham verməyi əsaslandıran çağırışlara diqqət çəkiblər.

Sonra qarşılıqlı hədiyyələr təqdim edilib, xatirə fotosu çəkilib, qonaqlar NDU-da İnnovasiya Mərkəzinin fəaliyyəti ilə tanış olublar.

Açılış mərasimindən sonra “İnkişaf və innovasiyalar: Süni intellekt və maşın öyrənməsi” adlı I Beynəlxalq elmi-praktik konfrans öz işini bölmə iclasları ilə davam etdirib. Proqrama əsasən keçirilən sessiyalarda 13 ölkədən alim və tədqiqatçıların süni intellektin müxtəlif sahələrinə dair məruzələri dinlənilib, elmi yeniliklər təqdim olunub.

Bölmə iclaslarında “Süni intellekt və maşın öyrənməsinin əsas texnologiyaları”, “Generativ süni intellektin tətbiqləri”, “Sənayedə rəqəmsallaşma və AI modelləri”, “Süni intellektin etik aspektləri və idarəetmə yanaşmaları” kimi mövzular müzakirə olunub. Məruzələrdə səhiyyə, nəqliyyat, enerji, təhsil, istehsalat, aqrar sektor, kibertəhlükəsizlik, urbanistika və digər sahələrdə AI tətbiqlərinin real nümunələri təqdim edilib.

Sessiyalarda həmçinin data analitikası, proqnozlaşdırıcı modellər, robotika, ağıllı sistemlərin inkişafı, böyük verilənlərin emalı və kompleks problemlərin AI vasitəsilə həlli kimi istiqamətlərdə tədqiqatlar geniş maraqla qarşılanıb. Təqdim olunan elmi nəticələr konfransın elmi əməkdaşlığın genişləndirilməsi, yeni tədqiqat istiqamətlərinin müəyyənləşdirilməsi və süni intellekt ekosisteminin inkişafına töhfə verməsi baxımından əhəmiyyətini bir daha ortaya qoyub.

***Kifayət Mahmudova***

# Beynəlxalq Kembric Məktəbinə yeni dərsliklər təqdim olunub

Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Beynəlxalq Kembric Məktəbinin şagirdlərinə yeni dərsliklər təqdim edilib. Bu addım Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2023-cü il 5 iyun tarixli sərəncamı ilə təsdiqlənmiş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nın icrası çərçivəsində atılıb.

Təqdimat mərasimində universitetin rektoru Elbrus İsayev şagirdlərlə görüşərək məktəbin fəaliyyətindən və görülən işlərin əhəmiyyətindən bəhs edib. O bildirib ki, bu məktəbin Kembric beynəlxalq təhsil sisteminə əsasən fəaliyyət göstərməsi təhsilin beynəlxalq standartlara uyğun təşkilinə və keyfiyyətin yüksəldilməsinə xidmət edir.

Rektor məktəbin tədris laboratoriyaları, kitabxanası, idman meydançaları və imtahan mərkəzi ilə təmin olunmasının şagirdlərin həm akademik uğurlarına, həm də fərdi inkişafına töhfə verdiyini diqqətə çatdırıb.

Qeyd edək ki, təqdim olunan dərsliklər Kembric kurikulumuna uyğun olaraq hazırlanıb və şagirdlərin beynəlxalq imtahanlara daha hazırlıqlı şəkildə qatılmasına şərait yaradacaq.







# “III Beynəlxalq Duzdağ Araşdırmaları Konqresi”

Naxçıvan Dövlət Universiteti, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası, Çankırı Karatekin Universiteti (Türkiyə), İğdır Universiteti (Türkiyə), Rzeszovski Universiteti (Polşa), AMEA-nın Naxçıvan Bölməsi və Azərbaycan Elm və Təhsil Nazirliyi Torpaqşünaslıq və Aqrokimya İnstitutunun birgə təşkilatçılığı ilə “III Beynəlxalq Duzdağ Araşdırmaları Konqresi” keçirilib.

Açılışı Duzdağ Müalicə Mərkəzində baş tutan konqresin məqsədi duz mədənlərinin geoloji, tibbi, ekoloji və turizm potensialını elmi əsaslarla öyrənmək, bu istiqamətdə aparılan tədqiqatları beynəlxalq müstəvidə müzakirə etmək, speleoterapiya və sağlamlıq turizmi sahəsində yeni əməkdaşlıq imkanları yaratmaqdır.








Əvvəlcə yeni infrastrukturla təmin olunan Duzdağ Müalicə Mərkəzi ilə tanışlıq olub. Qonaqlara müalicə alanlar üçün xüsusi ayrılmış sahələr, kitabxana, konfrans zalı və mərkəzin fəaliyyət prinsipləri barədə məlumat verilib. Qeyd olunub ki, dəniz səviyyəsindən 1100 metr dərinlikdə yerləşən, ümumi uzunluğu 46 kilometr olan duz mağarasında hazırda 440 çarpayı mövcuddur.

Açılışda Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canlarını fəda edən şəhidlərin xatirəsi anılıb, Dövlət Himni səsləndirilib.

Sonra “Təbiətin Duzdağ Möcüzəsi” adlı videoçarx nümayiş olunub.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev açılış nitqində bildirib ki, universitetdə keçirilən xüsusi əhəmiyyətli elmi tədbirlərin davamı olan bu konqres, Duzdağın yerli və beynəlxalq səviyyədə elmi əsaslarla tanıdılmasına mühüm töhfə verir. Rektor vurğulayıb ki, tədbirdə səsləndirilən elmi materiallar nəşr edilərək Duzdağın təbii sərvət kimi daha geniş auditoriyaya çatdırılmasına xidmət edəcək. Qeyd edib ki, Duzdağ müasir tədqiqatlar üçün unikal təbii laboratoriyadır və burada aparılan araşdırmalar həm region, həm də dünya elmi üçün əhəmiyyətlidir. Rektor duzun müxtəlif sahələrdə tətbiqi ilə bağlı NDU-da həyata keçirilən işlərdən, o cümlədən “Kimya” kafedrasında duzdan sabunlar hazırlanması kimi layihələrdən danışıb. Elbrus İsayev universitetdə duzun tədqiqinə həsr olunmuş yeni laboratoriyanın qurulmasının nəzərdə tutulduğunu və bunun tədqiqat imkanlarını daha da genişləndirəcəyini bildirib. Həmçinin Duzdağ Müalicə Mərkəzində Duz Muzeyinin yaradılması təşəbbüsünü irəli sürərək duzdan hazırlanan nümunələrin gələcək nəsillərə ötürülməsi baxımından bu addımın vacibliyini diqqətə çatdırıb.

İğdır Universitetinin rektoru, professor Ekrem Gürel çıxışında Azərbaycan və Türkiyə universitetləri arasında əməkdaşlığın regional elmin inkişafına böyük töhfə verdiyini vurğulayıb. Qeyd edib ki, iki qardaş ölkənin elm ocaqları arasında bu cür birgə təşəbbüslər gələcək nəsil tədqiqatçılarının qarşılıqlı elmi mübadiləsini gücləndirir. Ekrem Gürel əlavə edib ki, Naxçıvan Duzdağının tədqiqi elmi və praktik baxımdan xüsusi önəm daşıyır.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədr müavini, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev Duzdağ Müalicə Mərkəzində son illər aparılan yenilənmə işləri barədə məlumat verib. Bildirib ki, mərkəz rahat infrastrukturun qurulması ilə regionun aparıcı sağlamlıq və turizm məkanlarından birinə çevrilib. Qəzənfər Abdullayev konqresin Duzdağın potensialının daha dərindən öyrənilməsi və gələcək inkişafı üçün mühüm platforma olduğunu vurğulayıb. Qeyd edib ki, Duzdağ Müalicə Mərkəzi təkcə sağlamlığın bərpası üçün deyil, həm də mədəni tədbirlər, elmi tədqiqatlar və maraqlı sosial həyat məkanı kimi fəaliyyətini genişləndirir.

AMEA-nın Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev qeyd edib ki, Duzdağın sistemli elmi tədqiqi Naxçıvan elminin prioritet istiqamətlərindəndir. Vurğulayıb ki, beynəlxalq əməkdaşlıq bu sahədə yeni metodların tətbiqinə və daha dəyərli elmi nəticələrin əldə olunmasına imkan yaradır.

Çankırı Karatekin Universitetinin professoru Tamer Keçeli Türkiyədəki duz mağaraları ilə Naxçıvan Duzdağının müqayisəli tədqiqinin vacibliyinə toxunaraq bildirib ki, Naxçıvan Duzdağı ilə Çankırı və Tuzluca duz mağaraları oxşar geoloji quruluşa malikdir. Bu paralelliklərin araşdırılması duz yataqlarının formalaşma mexanizmlərinin daha dərindən öyrənilməsinə şərait yaradır.

AMEA-nın Naxçıvan Bölməsinin müxbir üzvü, Naxçıvan Dövlət Universitetinin professoru Vəli Baxşəliyev təqdimatla çıxış edərək Duzdağın tarixi və müalicəvi əhəmiyyəti barədə danışıb, burada aparılan araşdırmalar haqqında məlumat verib.

Açılış tədbirinin sonunda Naxçıvan Dövlət Universiteti və Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası tərəfindən təşkilatçılara hədiyyələr təqdim olunub və xatirə fotosu çəkilib.

Konqres Naxçıvan Dövlət Universitetində keçirilən bölmə iclasları ilə öz işini davam etdirib. “Duzlu ekosistemlərdə flora və fauna”, “Kimya, Biotexnologiya və Tibb”, “Ətraf mühit və davamlı inkişaf”, “İqtisadiyyat və Sosial tərəqqi”, “Geologiya və Mineralogiya”, “Etnoqrafiya və Mədəni irs”, “Memarlıq və Texnologiya”, “Tarix və Arxeologiya” mövzuları ətrafında 3 salon və 5 paneldə üz-üzə və onlayn formatda təşkil olunub. Bölmələrdə 5 ölkədən, 21 elm və təhsil müəssisəsindən olan alimlərin 60-dan artıq məruzəsi dinlənilib.

***Fəxriyyə Səyyadova***

# Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Kembric Məktəbinə yeni texnoloji dəstək





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq olunan “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda qeyd olunan mühüm məsələlərdən biri də Naxçıvan Dövlət Universitetinin nəzdində ingilisdilli orta məktəbin fəaliyyətə başlaması olub. Bu istiqamətdə görülən işlərin davamı olaraq NDU-nun Beynəlxalq Kembric Məktəbinin müəllim və şagirdlərinə universitet rəhbərliyi tərəfindən planşetlər təqdim olunub.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev şagirdlərlə görüşü zamanı bildirib ki, Dövlət Proqramı çərçivəsində universitetin beynəlxalq təhsil sisteminə inteqrasiyası və müasir tədris imkanlarının genişlənməsi daim diqqət mərkəzindədir. Bu proqramın bir hissəsi olaraq yaradılan bu məktəb Kembric Beynəlxalq Təhsil Sistemi ilə işləyir və təhsilin keyfiyyətinin artırılmasına xidmət edir.

Rektor çıxışında vurğulayıb ki, Beynəlxalq Kembric Məktəbində standartlara cavab verən tədris laboratoriyaları, kitabxana, idman meydançaları və imtahan mərkəzinin olması şagirdlərin təhsildə akademik keyfiyyətlərinin artırılması ilə yanaşı, həm də fərdi inkişafları üçün faydalıdır.

Qeyd olunub ki, şagirdlər məktəbin özünün təmin etdiyi elektron resurslardan istifadə edirlər. Belə ki, bu elektron resurslar şagirdlər üçün nəzərdə tutulub və onlara təqdim olunan xüsusi planşetlər vasitəsilə təhsil prosesi daha əlçatan və mərkəzləşmiş olacaq.

Planşetlərin təqdim olunması həm də məktəbdə rəqəmsal təhsilin tətbiqinə yeni impuls verib. Müasir texnologiyaların tədris prosesinə inteqrasiyası şagirdlərin interaktiv dərslərə qoşulmasını, müxtəlif beynəlxalq platformalara çıxışını və öyrənmə resurslarından daha effektiv yararlanmasını təmin edəcək. Tədbirdə qeyd edilib ki, bu addım gələcəkdə məktəbdə STEM tədrisinin genişləndirilməsi, layihə əsaslı öyrənmə metodlarının tətbiqi və şagirdlərin qlobal təhsil mühitinə adaptasiyası baxımından mühüm əhəmiyyət daşıyır.



# Zəfər gününün beşinci ildönümü elmi konfransla yadda qaldı



Naxçıvan Muxtar Respublikasında 8 Noyabr – Zəfər Gününün beşinci ildönümünün qeyd olunması ilə bağlı tədbirlər planı çərçivəsində Naxçıvan Dövlət Universitetində "Zəfər irsi" adlı konfrans keçirilib.

Konfrans iştirakçıları əvvəlcə Naxçıvan şəhərində yerləşən zəfər abidəsini ziyarət edib, abidə önünə gül dəstələri qoyublar.

Sonra ali təhsil ocağında İncəsənət fakültəsinin tələbələrinin 8 Noyabr – Zəfər Gününə həsr olunan 60-dan artıq əl işlərinin nümayiş olunduğu sərgiyə baxış olub.

Konfransın rəsmi açılış hissəsində dahi rəhbər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Konfransda dövlət və hökumət rəsmiləri, deputatlar, ictimaiyyət nümayəndələri, universitetin professor-müəllim heyəti və tələbələr iştirak ediblər.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov açılış nitqi ilə çıxış edərək, Azərbaycanın müasir tarixində dövlətçilik ənənələrinin bərpası və möhkəmləndirilməsinin məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu qeyd edib. Ceyhun Cəlilov vurğulayıb ki, Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində milli birliyimiz daha da güclənib və 44 günlük Vətən müharibəsində tarixi zəfərin qazanılmasında xalq-dövlət-ordu birliyi həlledici amil olub. Baş nazir 8 Noyabr – Zəfər Gününün tarixi önəmindən bəhs edib, dünəni, bu günü və sabahı konteksində dəyərləndirib, bu tarixin hər bir azərbaycanlı üçün qürur və minnətdarlıq günü olduğunu ifadə edib. Ceyhun Cəlilov: "Beş il öncə qazanılmış tarixi zəfər sadəcə Azərbaycanın ərazi bütövlüyünü bərpa etmədi, həm də bütün dünyaya sahib olduğumuz əsl gücü nümayiş etdirdi",- deyə qeyd edib. Baş nazir əlamətdar gün ilə bağlı keçirilən konfransı tarixi qələbəni gələcək nəsillərə milli irs, vətənpərvərlik və strateji düşüncə nümunəsi kimi ötürülməsi yollarını müəyyənləşdirmək, Qarabağda və Şərqi Zəngəzurda bərpa-quruculuq proseslərini, iqtisadi inkişaf imkanlarını və "post-müharibə dövrü" strategiyalarını təhlil etməyə yönəlmiş olduqca önəmli elmi mübadilə platforması adlandırıb.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev vurğulayıb ki, ölkəmizin ərazi bütövlüyü və suverenliyinin bərpası ən böyük qələbəmiz kimi tarixə əbədi həkk olunub və beşinci ildir ki, 8 Noyabr – Zəfər Gününü milli qürur duyğusu ilə qeyd edirik. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun döyüş meydanında qazandığı qələbə tarixi ədaləti bərpa edib, Azərbaycanı regional güc mərkəzinə çevirib, həm də informasiya cəbhəsində ölkəmizə qarşı qərəzli kampaniyalara son nöqtəni qoyub. Bu möhtəşəm zəfərə ötən illər ərzində ölkədə iqtisadi, siyasi, təhsil, ordu quruculuğu və ideoloji sahədə müəyyənləşdirilən hədəflərin zəmin yaratdığını diqqətə çatdıran rektor vurğulayıb ki, Azərbaycan dünyaya hər zaman sülh, sabitlik, inkişaf, əməkdaşlıq kimi təməl prinsipləri əsas tutan dövlət kimi özünü göstərib. O bildirib ki, ölkəmiz beynəlxalq aləmdə öz imzası ilə seçilən etibarlı tərəfdaş olduğunu sübut edib. Elbrus İsayev bildirib ki, XXI əsrdə müasir hərb tarixinə öz yeni döyüş təcrübəsini gətirən, Zəfər paradı keçirən tək ölkə olaraq Azərbaycan regiona gətirdiyi yeni reallıqlar təqdim edib. Rektor əlavə edib: "Konfrans 44 günlük Vətən müharibəsində qazandığımız tarixi qələbənin hərbi-siyasi, diplomatik, iqtisadi və mədəni aspektlərini elmi müstəvidə araşdırmaq məqsədilə təşkil olunub. Həmçinin, bu qələbənin yaratdığı yeni reallıqlar və regionda sülhün bərqərar olunmasındakı rolu müzakirə ediləcək.







Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini Arzu Abdullayev, Millət vəkili, Milli Məclisin Elm və Təhsil Komitəsinin sədri Anar İsgəndərov, AMEA Naxçıvan Bölməsinin sədri İsmayıl Hacıyev, Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Vüqar Rəhimzadə də çıxış edib, 8 Noyabr – Zəfər Gününün tarixi-siyasi önəmindən danışıb, regiona gətirdiyi yeni perspektivlərə diqqət çəkiblər. Natiqlər dövlətimizin heç vaxt torpaqlarımızın işğal faktı ilə barışmadığını diqqətə çatdırıb, tarixi zəfərə aparan yolda dövlət başçısının qətiyyəti və əzmkarlığından, xalqımızın birliyindən bəhs edib, bu gün də ən ali kürsülərdə öz mövqeyinə və prinsiplərinə sadiqliyini əyani şəkildə nümayiş etdirdiyini ifadə ediblər. Eləcə də bildiriblər ki, konfransda səslənən fikirlər ümumilikdə vətəndaşın cəmiyyət və dövlət qarşısında məsuliyyətinin daha aydın təsvirini əks etdirir. Qeyd olunub ki, şəhidlərimizin və qazilərimizin qəhrəmanlığı daim yaşadılmalıdır. Hər bir azərbaycanlı gənc dövlətçiliyə sadiq, vətənpərvər, milli kimliyinə bağlı və sağlam ideologiyaya malik olmalıdır.

Konfransın rəsmi hissəsi başa çatdıqdan sonra Naxçıvan Dövlət Universitetinin Simfonik orkestrinin ifasında konsert proqramı təqdim olunub.

Sonra konfrans öz işini "Zəfər tarixi və hərbi siyasi irs", "Tarixi zəfərdən sonra: iqtisadiyyat və yenidənqurma", "Tarixi zəfərimiz mediada", "Müharibə və sülh proseslərində beynəlxalq hüququn tətbiqi" mövzularında panel müzakirələrlə davam etdirib.






# Simfonik Orkestrə yeni musiqi alətləri təqdim edilib



Ali təhsil ocağının rektoru Elbrus İsayev universitetin "Orkestr alətləri və dirijorluq" kafedrasında fəaliyyət göstərən Simfonik Orkestrin maddi-texniki bazasının gücləndirilməsi məqsədilə öz şəxsi vəsaiti hesabına iki ədəd violonçel musiqi aləti hədiyyə edib.Rektor orkestrin məşq prosesini yerində izləyib, kollektivin iş şəraiti, ehtiyacları və fəaliyyət istiqamətləri ilə maraqlanıb. O, alətlərin sazlanması, saxlanması və zəruri hallarda yenilənməsi ilə bağlı müvafiq göstərişlər verərək orkestrin daha yüksək səviyyədə fəaliyyət göstərməsi üçün dəstəyini ifadə edib."Orkestr alətləri və dirijorluq" kafedrasının müdiri, Azərbaycanın Əməkdar artisti, dosent Mübariz Əsgərov orkestr üzvləri adından rektora minnətdarlığını bildirərək bu addımın kollektivin yaradıcılıq imkanlarının genişləndirilməsinə mühüm töhfə verəcəyini qeyd edib.Qeyd edək ki, 2021-ci ildə yaradılan NDU-nun Simfonik Orkestri Azərbaycan ali məktəbləri tabeliyində fəaliyyət göstərən ilk simfonik orkestrdir. Orkestr qısa müddət ərzində həm universitet daxilində, həm də respublika miqyasında müxtəlif mədəni tədbirlərdə uğurlu çıxışları ilə tanınıb və regionun mədəni həyatına mühüm töhfələr verməkdə davam edir.

# Naxçıvanda ilk qızlar məktəbinin yaradıcısı Nazlı xanım Nəcəfovanın 135 illik yubileyinə həsr olunmuş konfrans keçirilib

Naxçıvan Dövlət Universitetində Naxçıvanda ilk qızlar məktəbinin yaradıcısı, Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsinin deputatı, Naxçıvan MSSR-in Əməkdar müəllimi, tanınmış maarifçi Nazlı xanım Nəcəfovanın 135 illik yubileyinə həsr olunmuş konfrans keçirilib.

Yubiley tədbirindən əvvəl görkəmli pedaqoqun Naxçıvan şəhərində yerləşən məzarı ziyarət olunub.

Tədbirdə Nazlı Nəcəfovanın həyat və fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxışında keçirilən yubiley konfransının əhəmiyyətini vurğulayaraq bildirib ki, tanınmış maarifçi Nazlı Nəcəfova qadınların təhsil imkanlarının genişlənməsi, maarifçilik ideyalarının yayılması və cəmiyyətin tərəqqisi naminə mənalı ömür yaşamışdır. Rektor qeyd edib ki, repressiya dövrünün çətinliklərinə baxmayaraq Nazlı Nəcəfova xalqın maariflənməsi yolunda böyük fədakarlıq göstərmiş, qadın azadlığının məhdud olduğu bir dövrdə millətə sevgi və vətənpərvərliklə xidmət etmişdir.

Elbrus İsayev vurğulayıb ki, İrəvan və Naxçıvanda qızlar üçün məktəblərin açılmasında böyük rolu olan Nazlı xanımın irsi bu gün universitet tələbələri üçün mühüm araşdırma mövzusudur.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov öz çıxışında bildirib ki, qadınların təhsil səviyyəsi cəmiyyətin inkişafını müəyyən edən əsas amillərdəndir. Onun sözlərinə görə, qızların təhsilinə dəstək həm fərdi inkişaf, həm də cəmiyyətin ümumi tərəqqisi üçün böyük əhəmiyyət kəsb edir.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova Nazlı Nəcəfovanın çətin tarixi dövrdə qadınların təhsili istiqamətində gördüyü işlərin xüsusi dəyərə malik olduğunu qeyd edib. O bildirib ki, qızların təhsilinə qoyulan investisiya onların sosial-iqtisadi həyatda daha fəal iştirakına şərait yaradır və ölkənin dayanıqlı inkişafında mühüm rol oynayır.

NDU-nun professoru, tarix elmləri doktoru Sevinc Abbasova Nazlı Nəcəfovanın yaradıcılığının bu gün qadınların ictimai fəaliyyətinə işıq tutduğunu bildirib. O, öz elmi araşdırmalarında maarifçi pedaqoqun həyatından ilham aldığını vurğulayaraq "Naxçıvan Muxtar Respublikasında qadın hərəkatının inkişaf tarixi" adlı kitabını Nazlı xanım Nəcəfovanın nəticəsi Cabbar Hüseynliyə hədiyyə edib.

Nazlı Nəcəfovanın nəticəsi, elm və təhsil sahəsi üzrə Prezident mükafatçısı Cabbar Hüseynli tədbir haqqında səsləndirilən dəyərli fikirlərə və yubileyin yüksək səviyyədə təşkilinə görə ailəsi adından təşəkkürünü bildirib.

Sonda NDU-nun Fizika-riyaziyyat fakültəsinin Fizika müəllimliyi ixtisası üzrə III kurs tələbəsi Əsmər Mikayılovaya ilk dəfə təsis olunan "Nazlı xanım Nəcəfova adına tələbə təqaüdü" təqdim edilib.

Tədbirdən sonra NDU-nun Pedaqoji fakültəsində Nazlı Nəcəfovanın adını daşıyan auditoriyanın açılışı olub.

*Aidə İbrahimova*
*NDU-nun Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*















# Nəbatat bağında payız etüdü

Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin "Təsviri incəsənət" kafedrasına aid Rəngkarlıq ixtisası üzrə II, III, IV və Təsviri incəsənət ixtisası üzrə II və IV kurs tələbələri müəllimlərinin rəhbərliyi altında Nəbatat bağında, açıq havada payız etüdü həyata keçiriblər.

Tədris prosesinin bir hissəsi kimi təşkil olunan bu etüdün əsas məqsədi tələbələrdə təbiət mənzərəsinin müşahidəsi və canlı təsviri bacarığının formalaşdırılması, həmçinin açıq hava şəraitində iş texnikalarının təkmilləşdirilməsidir. Etüd zamanı tələbələr payızın rəng çalarlarını fərdi baxış bucağından kətana köçürərək müşahidə və tətbiqetmə bacarıqlarını inkişaf etdiriblər.

Təcrübə xarakterli bu fəaliyyət tələbələrin yaradıcılıq potensialının artırılması baxımından mühüm əhəmiyyət daşıyır. Qeyd edək ki, açıq hava etüdləri rəssamlıq tədrisinin ənənəvi və vacib mərhələlərindən biridir. Bu cür məşğələlər tələbələrə işıq–kölgə münasibətlərini daha dərindən qavramağa, rəng harmoniyasını real məkanda analiz etməyə, həmçinin kompozisiya qurmaq bacarığını inkişaf etdirməyə imkan verir. Təbii mühitlə birbaşa təmas gənc rəssamların yaradıcılıq düşüncəsinin formalaşmasında mühüm rol oynayır və onların gələcək peşəkar fəaliyyətinə praktik baza yaradır.

*Badəm Əliyeva*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*









# *“Elmin zamanla sınanmış dəyəri” adlı respublika elmi konfransı keçirilib*

Akademik Yusif Məmmədəliyevin 120 illik yubileyinə həsr olunmuş “Elmin zamanla sınanmış dəyəri” adlı respublika elmi konfrans keçirilib. Konfransın əsas məqsədi görkəmli alim Yusif Məmmədəliyevin Azərbaycan elminin inkişafına verdiyi töhfələrin elmi müstəvidə yenidən qiymətləndirilməsi, onun kimya elmi sahəsində yaratdığı məktəbin mahiyyətinin və müasir elmi istiqamətlər üçün əhəmiyyətinin araşdırılmasıdır.

Konfrans iştirakçıları əvvəlcə Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsində təşkil edilmiş “Akademik Yusif Məmmədəliyev” adlı guşə və Naxçıvan Dövlət Universitetində İnnovasiya Mərkəzində açılan “Akademik Yusif Məmmədəliyev – 120” adlı sərgi ilə tanış olublar.

Tədbirin açılış mərasimində Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib. Daha sonra universitet televiziyası – NDU TV tərəfindən hazırlanmış “Akademik Yusif Məmmədəliyev – 120” adlı videoçarx nümayiş olunub. Daha sonra Naxçıvan Dövlət Universiteti televiziyası – NDU TV tərəfindən hazırlanmış “Akademik Yusif Məmmədəliyev - 120” adlı videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən universitetin rektoru Elbrus İsayev bildirib ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən görkəmli kimyaçı alim Yusif Məmmədəliyevin 120 illik yubileyi







ölkənin bütün elm və təhsil müəssisələrində qeyd edilir. O həmçinin Elm və Təhsil Nazirliyinin və universitetin hazırladığı Tədbirlər Planına uyğun olaraq alimin elmi irsinin araşdırılması və təbliği istiqamətində ardıcıl fəaliyyət həyata keçirildiyini vurğulayıb. Qeyd olunub ki, keçirilən konfrans sözügedən planın icrasının bir hissəsidir və alimin həyat və fəaliyyətinə həsr olunmuş məruzələrin təqdimatını əhatə edir. Rektor əlavə edib ki, universitetdə akademik Yusif Məmmədəliyev adına hər zaman böyük ehtiramla yanaşılır.Vurğulanıb ki, bu gün keçirilən konfrans həmin Tədbirlər Planının icrası və Yusif Məmmədəliyevin həyat və fəaliyyətinə həsr olunmuş məruzələrin nəşrindən ibarətdir. Rektor Elbrus İsayev Naxçıvan Dövlət Universitetində hər zaman akademik Yusif Məmmədəliyevin adına böyük ehtiramla yanaşıldığını bildirib.

AMEA Naxçıvan Bölməsinin sədri, AMEA-nın həqiqi üzvü İsmayıl Hacıyev “Elmin yüksəlişinə aparan yol: Yusif Məmmədəliyev və AMEA” mövzusundakı çıxışı zamanı bildirib ki, Azərbaycan elmində, ictimai-siyasi həyatında çox fəal olan Yusif Məmmədəliyevin adı yüksək qiymətləndirilir. Akademik İsmayıl Hacıyev qeyd edib ki, Yusif Məmmədəliyev bütün ömrünü, həyatını neft və qazın öyrənilməsinə həsr edib. Yaşadığı dövr üçün apardığı tədqiqatlar birmənalı olaraq SSRİ-də və SSRİ-dən kənarda dəyərləndirib. Bu gün də o, öz dəyərini qoruyub saxlaya bilib.

Sonra ETN Təbii Ehtiyatlar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Tofiq Əliyev “Azərbaycanda kimya elminin banisi akademik Yusif Məmmədəliyevin yeri”, Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin dekanı, professor Cavanşir Zeynalov “Akademik Yusif Məmmədəliyevin həyatı: elmə həsr edilmiş ömür”, Mingəçevir Dövlət Universitetinin dosenti, kimya üzrə fəlsəfə doktoru Adil Aslanov, Naxçıvan Dövlət Universitetinin YAP ərazi təşkilatının sədri, dosent Bəhruz Məmmədov “Neft-kimya sənayesinin modernləşməsinə Yusif Məmmədəliyev ideyalarının təsiri”, ETN Təbii Ehtiyatlar İnstitutunun Filiz və qeyri-filiz yataqları laboratoriyasının müdiri, dosent Aliyə Rzayeva “Müharibə illərində elmi fəaliyyət: Yusif Məmmədəliyevin fövqəladə xidmətləri” mövzusunda çıxış ediblər.



Konfrans çərçivəsində akademik Yusif Məmmədəliyevin anadan olmasının 120 illiyinə həsr olunmuş və gənc alimlər arasında keçirilən “Yusif Məmmədəliyev – Azərbaycan elminin zirvəsi” adlı “Ən yaxşı məqalə” müsabiqəsinin qalibləri mükafatlandırılıb.

Tədbir üz-üzə və onlayn formatda bölmə iclasları ilə davam edib. Bölmələrdə respublikanın 21 müxtəlif elm və təhsil müəssisəsindən qatılan 60-dan çox iştirakçının məruzələri dinlənilib.

# YAP-ın 33-cü ildönümünə həsr olunan elmi-praktiki konfrans keçirilib

Naxçıvan Dövlət Universiteti və Yeni Azərbaycan Partiyasının (YAP) Naxçıvan Şəhər Təşkilatının birgə təşkilatçılığı ilə “Konstitusiya və suverenlik ili” çərçivəsində YAP-ın yaradılmasının 33-cü ildönümünə həsr olunan “Milli Qurtuluşdan Suverenliyə gedən yol” mövzusunda elmi-praktiki konfrans keçirilib.

Tədbir Ümummilli lider Heydər Əliyev və şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.



Konfransı giriş sözü ilə açan Universitetin rektoru Elbrus İsayev bildirib ki, azərbaycançılıq məfkurəsi xalq-iqtidar-ordu birliyinin möhkəmləndirilməsində mühüm ideoloji dayaqlardan biridir. Bu məfkurə gənclərin vətənpərvərlik ruhunda tərbiyəsində, milli kimlik və dövlətçilik prinsiplərinin formalaşmasında böyük rol oynayır. Tələbələrin təhsili, intellektual inkişafı, dövlətə sədaqət və sağlam siyasi təfəkkür ruhunda yetişdirilməsi universitetin əsas prioritetlərindəndir. Vurğulanıb ki, bu ilk təşkilatı fərqləndirən əsas xüsusiyyət onun tərkibində ziyalıların, eləcə də partiya və ölkə üçün mühüm əhəmiyyət kəsb edən fəal gənclərin çoxluq təşkil etməsidir. Nəzərə çatdırılıb ki, partiyanın gələcəyinin təmin olunması, mövqelərinin qorunması və daha da gücləndirilməsi məhz bu gənclərin üzərinə düşür. Onların fəallığı və



təşəbbüskarlığı partiyanın uğurlu inkişafında həlledici rol oynayır.

YAP Naxçıvan Şəhər Təşkilatının sədri Elman Cəfərli “Milli Qurtuluşdan Suverenliyə: Yeni Azərbaycan Partiyası” mövzusunda məruzə ilə çıxış edərək bildirib ki, 1992-ci il noyabrın 21-də Naxçıvan-



da ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə təsis olunan YAP müstəqil dövlətçiliyin və ümummilli maraqların qorunması naminə cəmiyyətin bütün təbəqələrini səfərbər edən siyasi təşkilat kimi formalaşıb. Qeyd olunub ki, 2005-ci ildə keçirilmiş III Qurultaydan sonra YAP-ın sədri seçilən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın siyasi və iqtisadi müstəqilliyi daha da möhkəmlənib, ölkə regionun ən güclü dövlətlərindən birinə çevrilib. Partiya bu il fəaliyyətinin 33-cü ildönümünü qeyd edir və YAP üzvləri bu illər ərzində xalqa xidmət və fədakarlıq nümunəsi göstəriblər.

Daha sonra YAP Universitet Ərazi Təşkilatının sədri Bəhruz Məmmədov “Tarixi zəfərdən dövlət suverenliyinə: siyasi iradə, hərbi güc və milli həmrəylik” mövzusunda çıxış edib. Naxçıvan Dövlət Univer-



sitetinin professoru Hacıfəxrəddin Səfərli isə “30 yaşlı Konstitusiya və suverenliyin bərpası” mövzusunda məruzə edib.

“Yer quruluşu və daşınmaz əmlakın kadastrı” ixtisası üzrə IV kurs tələbəsi Saleh Zamanov “Yeni Azərbaycan Partiyası xalqın inam ünvanıdır” mövzusunda çıxış edərək gənclərin partiyaya olan etimadından danışıb.

Sonda YAP-ın 33-cü ildönümü münasibətilə partiya üzvlərinin mükafatlandırılması, eləcə də partiyaya yeni qəbul olunan üzvlərə üzvlük biletlərinin təqdim olunması mərasimi keçirilib. Tədbir YAP-ın 33 illiyinə həsr olunmuş videoçarxın nümayişi və partiyanın himninin səsləndirilməsi ilə yekunlaşıb.

*Badəm Əliyeva*

# 28 il sonra NDU-da "Riyaziyyat" ixtisası məzunlarının görüşü







Naxçıvan Dövlət Universitetində "Məzun 1997 – 28 il sonra yenidən bir arada" adlı görüş keçirilib. Tədbirdə universitetin rektoru Elbrus İsayev 1993-1997-ci illərdə Riyaziyyat ixtisası üzrə təhsil alan məzunlarla görüşüb, onları salamlayaraq universitetdə aparılan işlər və yeniliklər barədə məlumat verib.

Rektor çıxışı zamanı qeyd edib ki, Riyaziyyat ixtisası universitetin 1967-ci ildə fəaliyyətə başlayan ilk üç ixtisasından biri olub və bu elm sahəsi hər zaman aktuallığını qoruyub. Bununla yanaşı, Riyaziyyat ixtisası son zamanların tələbi olan süni intellektə uyğunlaşdırılaraq inkişaf edir. Bildirilib ki, bu il 600-dən yuxarı bal toplayan abituriyentlərin riyaziyyat ixtisasını seçməsi bu sahəyə olan marağın davam etdiyini göstərir və universitet riyaziyyat fənni üzrə Azərbaycan sektorunda birinci yerdədir. Rektor eyni zamanda NDU-nun nəzdində fəaliyyət göstərən Beynəlxalq Kembric Məktəbində də riyaziyyatın həm yerli, həm də qlobal proqram üzrə tədris olunduğunu nəzərə çatdırıb.

1997-ci ilin məzunlarından olan, universitetin elmi katibi, pedaqogika üzrə fəlsəfə doktoru Orxan Cəfərov və Ordubad rayon Kələki kənd tam orta məktəbinin direktoru Vəsilə Xəlilova tədbirdə çıxış edərək tələbəlik illərinə dair xatirələrini bölüşüblər. Onlar Naxçıvan Dövlət Universitetinin şəxsi və peşəkar həyatlarında oynadığı mühüm roldan bəhs edərək keçirilən görüş və göstərilən diqqətə görə universitet rəhbərliyinə təşəkkür ediblər.

Tədbirdə məzunların tələbəlik illərinə dair fotolardan ibarət slayd nümayiş olunub, xatirə şəkilləri çəkdirilib. Məzunlar daha sonra Fizika – riyaziyyat fakültəsinin müəllim və tələbələri ilə görüşüb, əvvəlki təhsil aldıqları dövrdə Riyaziyyat ixtisasının tədrisinin aparıldığı Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin binasını ziyarət ediblər.

Görüş çay süfrəsi ətrafında başa çatıb.

# NDU-nun IELTS və SAT Beynəlxalq İmtahan mərkəzləri: xaricdə təhsil və karyera üçün açılan yeni imkanlar

Naxçıvan Dövlət Universiteti beynəlxalq təhsil imkanlarının genişləndirilməsi istiqamətində mühüm addımlar atmağa davam edir. Universitetdə fəaliyyət göstərən IELTS və SAT Qeydiyyat və İmtahan mərkəzləri tələbələrə, şagirdlərə, müəllimlərə və ümumilikdə region əhalisinə qlobal standartlara uyğun dil və akademik bacarıqlarını təsdiqləmək imkanı yaradır. Mərkəzlərdə keçirilən mütəmadi təlimlər və imtahanlar Naxçıvanı regional beynəlxalq imtahan mərkəzinə çevirib.

NDU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Aidə Cəlilzadə universitetdə beynəlxalq imtahan mərkəzlərinin fəaliyyətinin əhəmiyyətini belə qiymətləndirir: "IELTS və SAT kimi beynəlxalq imtahan mərkəzlərinin Naxçıvan Dövlət Universitetində fəaliyyət göstərməsi təkcə universitet üçün deyil, ümumilikdə, muxtar respublika və region üçün çox böyük əhəmiyyət daşıyır".

Müsahibimizin sözlərinə görə, bu mərkəzlər region gənclərinə kənara getmədən beynəlxalq imtahanlarda iştirak etmək imkanı verir və xaricdə təhsil, mübadilə və təqaüd proqramlarına çıxışı xeyli asanlaşdırır.

Naxçıvan Dövlət Universitetində IELTS (International English Language Testing System) Mərkəzi 2022-ci ildən fəaliyyət göstərir və imtahanın bütün mərhələləri – sualların hazırlanması, keçirilməsi və qiymətləndirilməsi – British Council tərəfindən reallaşdırılır. Bu günədək mərkəzdə 250-dən artıq namizəd imtahanda iştirak edib.

İmtahan danışıq, yazı, dinləmə və oxu bacarıqları üzrə ayrıca mərhələlərdə keçirilir və hər iki modul yüksək standartlara uyğun təşkil olunur.

2023-cü ildə Naxçıvan Dövlət Universiteti Azərbaycan ali təhsil məkanında bir ilkə imza atdı: SAT (Scholastic Assessment Test) Mərkəzi ABŞ-nin College Board təşkilatı tərəfindən rəsmi şəkildə qeydiyyata alınaraq məhz NDU-da fəaliyyətə başladı.

İELTS-dən fərqli olaraq SAT imtahanı daha çox riyaziyyat və akademik ingilis dili üzrə bacarıqları ölçür. Mərkəz qısa müddətdə həm məktəblilər, həm tələbələr, həm də müəllimlər üçün sərfəli və əlçatan beynəlxalq imtahan məkanı kimi tanınıb.

Hər iki mərkəz şagirdlərin və tələbələrin xaricdə ali təhsil üçün tələb olunan sertifikatları yerli şəraitdə əldə etməsinə, əlavə xərc və zaman itkisi olmadan imtahan verməsinə, hökumətlərarası təqaüd və mübadilə proqramlarında iştirak imkanlarının artmasına, ingilis dilində tədris olunan ixtisaslarda, o cümlədən gələcək ikili diplom proqramlarında tələbələrin daha rəqabətqabiliyyətli olmasına şərait yaradır.




IELTS iştirakçısı, NDU-nun İnformasiya təhlükəsizliyi ixtisası üzrə I kurs tələbəsi Əziz Babayev: "İngilis dili bizim ixtisasda əsasdır. Ona görə IELTS imtahanına hazırlaşmalı idim. Hazırlığımı da, imtahanımı da NDU-da etdim və 7 bal – C1 səviyyəsi topladım. British Council nümayəndələri və mərkəz heyəti imtahanı çox peşəkar şəkildə təşkil etmişdi. Özümü rahat və təhlükəsiz hiss etdim".

SAT imtahan iştirakçısı, XI sinif şagirdi Yaqub Qənbərov: "Xaricdə ali təhsil almaq istəyirdim və SAT imtahanına hazırlaşdım. İmtahanı NDU-da verdim və 1600 mümkün baldan 1580 bal topladım. İmtahan yüksək səviyyədə təşkil olunmuşdu. Uzağa getmədən, əlavə xərc çəkmədən belə imkanı Naxçıvanda əldə etmək mənə böyük motivasiya verdi".

Bu mərkəzlərin fəaliyyəti nəticəsində hər il yüzlərlə gənc xaricdə təhsil, beynəlxalq layihələrdə iştirak və qlobal əmək bazarına çıxış üçün zəruri sertifikatları elə Naxçıvanda əldə edir. Bu isə NDU-nu regionda beynəlmiləlləşmə və qlobal təhsil strategiyasının aparıcı ali məktəbinə çevirir.

***Badəm ƏLİYEVA***
***NDU-nun Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı***

# Tələbə-jurnalistlərlə media savadlılığı mövzusunda vebinar keçirilib

Jurnalistika ixtisasında təhsil alan tələbələr üçün "Media savadlılığı: gənclərin informasiya mühitində düzgün yönləndirilməsi" mövzusunda vebinar təşkil olunub. Tədbir çərçivəsində Bakı Dövlət Universitetinin professoru Qulu Məhərrəmli gənclərə informasiya mühitində diqqətli və fəal olmalarının vacibliyini izah edib. Professor Qulu Məhərrəmli süni intellektin medianın inkişafındakı rolunu, dezinformasiyanın yayılma



yollarını və gənclərin doğru mənbələrdən məlumat əldə etməsinin önəmini vurğulayıb. Həmçinin, araşdırma jurnalistikası prinsiplərindən, məlumatın düzgün işlənməsi və təqdim olunması metodlarından danışıb, tələbələrin media savadlılığının artırılmasının cəmiyyətdə məlumat mədəniyyətinin inkişafına töhfə verdiyini bildirib.

Vebinar zamanı professor Qulu Məhərrəmli tələbələrin suallarını cavablandırıb. Müzakirə zamanı gənclər süni intellekt texnologiyalarının media məzmununa təsiri, feyk xəbərlərin müəyyən edilməsi və jurnalistikanın etik prinsipləri ilə bağlı fikirlərini bölüşüblər.

Tədbirin sonunda tələbələr belə vebinarların onların informasiya savadlılığının yüksəldilməsində, kritik düşüncə bacarıqlarının inkişafında əhəmiyyətli olduğunu qeyd ediblər.

# Kitab təqdimatları

## “Məsuliyyət mərkəzləri və seqmentar hesabat” adlı dərs vəsaitinin təqdimatı






Naxçıvan Dövlət Universitetinin “Mühasibat və maliyyə” kafedrasının müdiri, professor Teymur Abbasovun “Məsuliyyət mərkəzləri və seqmentar hesabat” adlı dərs vəsaiti təqdim olunub.

Tədbirdə universitetin rektoru Elbrus İsayev bildirib ki, universitetdə müxtəlif istiqamətlər üzrə dərs vəsaitləri, dərslik və monoqrafiyaların təqdimatı artıq ənənəyə çevrilib. Rektor vurğulayıb ki, elmi nəşrlərin artması ali təhsil müəssisəsinin elmi strategiyasının əsas tələblərindəndir. Elbrus İsayev yeni dərs vəsaitinin seçmə fənn kimi təklif edilməsini tövsiyə edib, müəllifə elmi fəaliyyətində uğurlar arzulayıb. Rektor həmçinin İqtisadiyyat və idarəetmə fakültəsində “Araşdırmalar Mərkəzi”nin yaradılmasının planlaşdırıldığını qeyd edib. Bu mərkəzdə tələbələr və tədqiqatçılar araşdırmalar aparacaq, tədqiqatyönümlü dərslərin keçirilməsi isə dərs keyfiyyətinə müsbət təsir göstərəcək.




İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı Əşrəf Ələkbərov qeyd edib ki, fakültədə tədris olunan ixtisaslarda dərslik və dərs vəsaitlərinin çoxluğu tələbələrin elmi bilik və analitik bacarıqlarının inkişafına əhəmiyyətli təsir göstərir. Dekan vurğulayıb ki, məsuliyyət mərkəzlərinin səmərəli təşkili və idarəetməsi biznes mühitində mühüm rol oynayır və bu mövzuda yerli elmi araşdırmaların aparılması ölkə iqtisadiyyatı üçün böyük aktuallıq daşıyır.

Təqdimatda Azərbaycan Dövlət İqtisad Universitetinin “Rəqəmsal texnologiyalar və tətbiqi informatika” kafedrasının professoru Rəsul Balayev, NDU-nun “Beynəlxalq ticarət və menecment” kafedrasının müdiri Cavadxan Qasımov, Azərbaycan Dövlət İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktorunun müavini Ramil Hüseyn, NDU-nun “İqtisadiyyat və marketinq” kafedrasının müdiri Eltun İbrahimov çıxış edərək dərs vəsaiti barədə fikirlərini bölüşüblər. Qeyd olunub ki, beş fəsildən ibarət dərs vəsaitində məsuliyyət mərkəzləri və seqmentar hesabatın nəzəri əsasları, məsrəflərin maliyyələşdirilməsi, bazar iqtisadiyyatında transfer qiymətlərinin formalaşması, xərc, gəlir, mənfəət və investisiya mərkəzləri geniş şəkildə izah olunur. Kitab bakalavr, magistr, doktorantlar, eləcə də mühasiblər, iqtisadçılar, menecerlər, maliyyəçilər və auditorlar üçün nəzərdə tutulub.

Sonda müəllif Teymur Abbasov universitetdə elmi mühitin inkişafı üçün yaradılan şəraitə görə təşəkkür edib və bu istiqamətdə fəaliyyətinə davam edəcəyini bildirib.

*Fəxriyyə Səyyadova*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

## “Kriminalistika” adlı dərsliyin təqdimatı keçirilib

Naxçıvan Dövlət Universitetində “Xüsusi hüquq” kafedrasının müəllimi, Naxçıvan MR Ali Məhkəməsinin hakimi İlqar Mirzəyevin müəllifi olduğu “Kriminalistika” adlı dərsliyin təqdimatı baş tutub.

Tədbirin açılışında universitetin rektoru Elbrus İsayev çıxış edərək hüquqşünaslıq sahəsinə marağın böyük olduğunu qeyd edib, son illərdə ali təhsil ocağına hüquqşünaslıq ixtisası üzrə qəbul nəticələrində yüksək göstəricilərin izlənildiyini bildirib. Rektor vurğulayıb ki, rəqabət yüksəkdir, buna görə də bu gün auditoriyada təhsil alan gələcəyin hüquqşünasları olacaq tələbələrin hərtərəfli hazırlığı diqqətdədir. Onların istehsalat təcrübəsinə şərait yaratmaq üçün müxtəlif hüquq mühafizə orqanları ilə əməkdaşlıq memorandumu imzalanıb və yaxın gələcəkdə bu ixtisas üzrə ingilis dilli qrupun da açılması nəzərdə tutulur.












Tədbirdə iştirak edən Naxçıvan MR Ali Məhkəməsinin sədri Səadət Bəktaşi universitetin hüquq sahəsində savadlı və peşəkar kadrlar yetişdirdiyini vurğulayıb. O, kriminalistikanın hüquqi qiymətləndirmədə mühüm elmi baza rolunu oynadığını qeyd edib və təqdimatı keçirilən kitabı etibarlı mənbə adlandırıb.

AMEA Naxçıvan Bölməsinin sədri İsmayıl Hacıyev çıxışında kriminalistikanın zamanla inkişaf edən və cəmiyyətin hüquqi-mədəni dəyişikliklərinə uyğunlaşan bir elm sahəsi olduğunu diqqətə çatdırıb və bu yöndə yeni nəşrlərin hazırlanmasını gərəkli və təqdirəlayiq təşəbbüs olaraq dəyərləndirib.

Beynəlxalq münasibətlər və hüquq fakültəsinin dekanı, fəlsəfə elmləri doktoru, dosent Yusif Hüseynov, Naxçıvan MR Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin rəis müavini, “Xüsusi hüquq” kafedrasının müəllimi Emin Əliyev, “Ümumi hüquq” kafedrasının müəllimi Tofiq Hüseynov və Tələbə Elmi Cəmiyyətinin sədri Yusif Mirzəzadə dərsliklə bağlı fikirlərini bölüşüblər. Qeyd olunub ki, kitab 4 fəsil, 35 paraqrafdan ibarətdir və kriminalistika elminin əsas bölmələrini – ümumi müddəalar, texnika, taktika və metodikanı əhatə edir.

Tədbirin sonunda müəllif İlqar Mirzəyev iştirakçılara təşəkkürünü bildirib.

Qeyd edək ki, ali təhsil ocağında 2021-ci ildə açılışı olan “Məhkəmə ekspertizası və Kriminalistika” laboratoriyasına da baxış keçirilib. “Xüsusi hüquq” kafedrasının müəllimi Emin Əliyev “Məhkəmə ekspertizası və Kriminalistika laboratoriyası”da mövcud olan metodik vəsait, müasir kriminalistik texniki avadanlıqlar və digər zəruri maddi texniki baza haqqında ətraflı məlumat verib. Bildirilib ki, tələbələrin praktik olaraq bilik, bacarıq və vərdişlərinin formalaşmasında laboratoriyanın imkanlarından yararlanılır. Stereo mikroskopla davranmağın və işləməyin metodları öyrədilir, mikroskopla aparılan tədqiqatların paylayıcı kompüterlə digər kompüterlərə ötürülməklə tələbələrin də virtual olaraq aparılan tədqiqatları izləməsinə imkan yaradılır. Eləcə də tələbələrə izlərlə işləməyin metodları, texniki və məhkəmə alətlərindən düzgün istifadə, təqdim olunmuş sənədlərlə davranma vərdişləri, habelə istintaq hərəkətlərinin həyata keçirilməsində bilik və bacarıqların inkişaf etdirilməsi yönündə praktik biliklər öyrədilir.

*Badəm Əliyeva*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# Zəfərin 5 illiyi münasibətilə şəhidlərə həsr olunmuş kitabların təqdimatı











44 günlük Vətən müharibəsində qazanılan şanlı Zəfərin 5 illik yubileyi münasibətilə Naxçıvan Dövlət Universitetində vətən uğrunda canından keçmiş şəhidlərimizə həsr olunmuş kitabların təqdimatı keçirilib. Tədbirdə şəhidlərin ailə üzvləri, yaxın qohumları və döyüş yoldaşları da iştirak ediblər.

Öncə ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş bütün şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Universitetin Elmi Kitabxanasının direktoru Xumar Məmmədova tədbir haqqında məlumat verərək qeyd edib ki, görüş AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun icraçı direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Elxan Yurdoğlunun "Yarımçıq qalmış roman" və Azərbaycan Yazıçılar Birliyinin, Jurnalistlər Birliyinin üzvü, Naxçıvan Televiziyasının redaktoru, şair-publisist Təranə Arifqızının "Dünya boyda ölümsüzlük" kitablarının təqdimatına həsr olunub.

Universitetin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Nicat Yaqubov çıxış edərək vurğulayıb ki, Vətən müharibəsində əldə olunmuş tarixi qələbə Azərbaycan xalqının birliyinin, ordumuzun gücünün və şəhidlərimizin qəhrəmanlığının bariz təcəssümüdür. Ölkəmizin ərazi bütövlüyünün və dövlət suverenliyinin tam bərpa olunmasının 5-ci, müstəqil dövlətçiliyimizin hüquqi əsası olan Konstitusiyanın qəbulunun isə 30-cu ildönümü ərəfəsində gənc nəslin dövlətə sadiq, milli ideologiyaya bağlı, vətənpərvər olaraq yetişməsində belə tədbirlərin təşkili olduqca önəmlidir. Naxçıvan Dövlət Universitetində vətənpərvərlik mövzusu daim diqqətdə saxlanılır, şəhid ailələri və qazilərlə görüşlər keçirilir, ədəbi-bədii tədbirlər və kitab təqdimatları mütəmadi xarakter daşıyır. Universitetdə məzun şəhidlərin adını daşıyan, onların xatirələrini yaşadan auditoriyalar yaradılıb, fakültələrdə şəhidlərimiz haqqında məlumatların, fotoların yer aldığı bölmələr təşkil olunub. Artıq üç ildir ki, hər semestrin ilk dərsini şəhid ailələri və qazilər keçir, qəhrəman oğulların şücaəti və döyüş yolu gənc nəslə aşılanır. Bu gün təqdimatı baş tutan kitablar da gənc vətən oğullarını tanımaq və onların xatirəsini gələcək nəsillərə çatdırmaq baxımından xüsusi əhəmiyyət kəsb edir.

"Jurnalistika və xarici ölkələr ədəbiyyatı" kafedrasının müdiri Şəhla Şirəliyeva qeyd edib ki, Elxan Yurdoğlunun "Yarımçıq qalmış roman" kitabı 2020-ci il oktyabrın 8-də Suqovuşan uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olan leytenant Nicat Məmmədliyə həsr olunub. O bildirib ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə şəhid Nicat Məmmədli ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib. Şəhla Şirəliyeva kitab haqqında təəssüratlarını bölüşərək bildirib ki, əsərdə şəhidin ailə üzvləri, yaxın qohumları, döyüş yoldaşları və onu tanıyanların xatirələri toplanıb, qəhrəmanın qısa, lakin mənalı ömrü dolğun şəkildə təsvir olunub.

Həmin kafedranın müəllimi Gülay Tahirli bildirib ki, Təranə Arifqızının "Dünya boyda ölümsüzlük" kitabı Vətən müharibəsinin ilk günlərində Talış istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olan baş leytenant Raqib Hüseynova həsr olunub. Vurğulanıb ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən, Raqib Hüseynov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Laçının azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib. Kitabda qəhrəman şəhidin döyüş və həyat yolunu əks etdirən təsirli şeirlər, fotolar və məlumatlar yer alır.

Sonda müəlliflər çıxış edərək diqqətə görə minnətdarlıqlarını bildiriblər və gələcəkdə də qəhrəman şəhidlər haqqında kitablar yazmağa davam edəcəklərini vurğulayıblar.

*Fəxriyyə Səyyadova*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# NDU və Ərzurum Atatürk Universitetinin alimləri tərəfindən hazırlanan Zəngəzur dəhlizi ilə bağlı məqalələr toplusunun təqdimatı













Naxçıvan Dövlət Universitetinin (NDU) İqtisadiyyat və idarəetmə fakültəsinin "Beynəlxalq ticarət və menecment" kafedrasının 12, Ərzurum Atatürk Universitetinin 10 əməkdaşının ortaq müəllifləri ilə hazırlanan "Zengezur koridoru: Türkiye -Azerbaycan-Nahçivan ekonomik, dış ticaret ve lojistik bağlantıları " adlı məqalələr toplusunun təqdimatı keçirilib.

Universitetin elm və innovasiya məsələləri üzrə prorektoru Elsevər Əsədov çıxışında təqdimatı keçirilən kitabı Zəngəzur dəhlizinin reallaşmasının geosiyasi analizi baxımından dəyərli mənbə kimi qiymətləndirib. Bildirilib ki, buradakı məqalələrdə Azərbaycanın əsas ərazisini ölkənin ayrılmaz hissəsi olan Naxçıvanla, eləcə də Türkiyə ilə birləşdirəcək Zəngəzur dəhlizinin əhəmiyyəti aydın nəzərə çarpır. Bu baxımdan təqdim edilən kitabda "Zəngəzur dəhlizinin iqtisadi və geosiyasi əhəmiyyəti", "Zengezur koridorunun açılması halinde Doğu Anadolu bölgesine olası etkileri" mövzularını xüsusi qeyd etmək olar.

İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı, i.ü.f.d., dosent Əşrəf Ələkbərov, "Beynəlxalq ticarət və menecment" kafedrasının müdiri, i.ü.f.d., dosent Cavadxan Qasımov, i.ü.f.d.,dosent Bulqeyis Novruzova və i.ü.f.d., dosent İradə Bağırova, Elmi Kitabxananın direktoru, f.ü.f.d., dosent Xumar Məmmədova kitab haqqında fikirlərini bölüşüblər. Bildiriblər ki, 456 səhifəlik topluda dəhlizin geosiyasi əhəmiyyəti və gələcək perspektivləri təhlil edilib, ətraflı və elmi cəhətdən əsaslandırılmış məqalələr yer alıb.

Qeyd edək ki, məqalələr toplusu NDU ilə Ərzurum Atatürk Universiteti arasında imzalanan əməkdaşlıq memorandumu çərçivəsində əldə olunan ikitərəfli anlaşma əsasında hazırlanılıb.

*Badəm Əliyeva*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# Yazıçı-alim Sadiq Qarayevlə görüş

Naxçıvan Dövlət Universitetinin İnnovasiya Mərkəzində “Azərbaycan məfkurəsi dövlətçiliyimizin və zəfərlərimizin işıqlı yoludur: yazıçı-alim Sadiq Qarayevin əsərlərində azərbaycançılıq idealları və qələbənin vəhdəti” mövzusunda tədbir təşkil olunub. Görüşdə universitetin müəllim və tələbə heyəti iştirak ediblər.

Universitetin Elmi kitabxanasının direktoru, filologiya üzrə fəlsəfə doktoru Xumar Məmmədova yazıçının yaradıcılıq yolu, elmi fəaliyyəti barədə məlumat verib, həm elmi-fəlsəfi, həm də bədii üslubda yazdığı kitablarını görüş iştirakçılarına təqdim edib.

Universitetin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Nicat Yaqubov azərbaycançılıq ideologiyasının mahiyyətindən danışaraq bildirib ki, bu məfkurə təkcə milli-mənəvi dəyərlərin qorunması deyil, eyni zamanda milli kimliyə və dövlətə bağlılığın fəxrlə ifadəsidir. Yazıçı-alimin kitabları isə dövlətçilik ideologiyasını hərtərəfli, zəngin və əsaslı təqdim edən etibarlı mənbələrdir.





Naxçıvan MR Yazıçılar Birliyinin sədri, əməkdar mədəniyyət işçisi, şair Asim Yadigar “Alim-yazıçı Sadiq Qarayevin əsərlərində milli dövlətçiliyin elmi, bədii təsviri” mövzusunda, yazıçı-publisist, Azərbaycan Yazıçılar Birliyinin üzvü, “Kredo” qəzetinin baş redaktoru Əlirza Xələfli “Azərbaycançılıq məfkurəsi və qələbənin vəhdəti elmi idrakın və bədii təfəkkürün işığında” mövzusunda çıxış ediblər.

Eləcə də “Azərbaycan ədəbiyyatı” kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Nurlana Əliyevanın “Sadiq Qarayevin yaradıcılığında Qarabağ Azadlığı: tarixi zəfərin izi ilə”, AMEA Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent İlham Həsənovun “Azərbaycançılıq məfkurəsinin tarixi zəfər romanları”, “Azərbaycan dilçiliyi” kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Elburus Vəliyevin “Yazıçının dilində mental dəyərlərin təzahürü və üslub norması məsələləri” mövzusunda çıxışları dinlənilib.







Natiqlər bildiriblər ki, Sadiq Qarayevin əsərlərində azərbaycançılıq, dövlətçilik, milli qürur və zəfər ruhun bədii, elmi aspektlərdən təqdim olunub. Bu əsərlərə nəinki ədəbiyyatçılar, eyni zamanda tarixçilər, filosoflar, dilçi alimlər müraciət edib, araşdırma və yeni tədqiqat işləri hazırlaya bilərlər.

Qeyd edək ki, günün birinci yarısında Universitetin Elmi Kitabxanasında yazıçı-alim Sadiq Qarayevin yeni kitabları ilə tanışlıq və müzakirəsinə dair dəyirmi masa təşkil olunub.

*Badəm Əliyeva*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# “Fizikanın tədrisində interaktiv təlim metodlarından istifadənin imkanları və yolları” adlı monoqrafiyanın təqdimatı

Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında “Ümumi və nəzəri fizika” kafedrasının baş müəllimi Seyfəddin Cəfərov və ARETN-in Təbii Ehtiyatlar İnstitutunun Laboratoriya müdiri, fizika üzrə fəlsəfə doktoru, dosent Məmməd Hüseynəliyevin həmmüəllifi olduqları “Fizikanın tədrisində interaktiv təlim metodlarından istifadənin imkanları və yolları” adlı monoqrafiyanın təqdimat mərasimi keçirilib.

Tədbiri giriş sözü ilə açan universitetin elmi katibi, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Orxan Cəfərov təqdimatı keçirilən monoqrafiyada həm nəzəri, həm də praktiki aspektdən müasir didaktik məsələlərin öz əksini tapdığını vurğulayıb. Daha sonra Fizika-riyaziyyat fakültəsinin dekanı, pedaqogika üzrə fəlsəfə doktoru Ruhiyyə Cəfərova, “Ümumi və nəzəri fizika” kafedrasının müdiri, fizika üzrə fəlsəfə doktoru Billurə Hacıyeva, “Ümumi və nəzəri fizika” kafedrasının dosenti, fizika üzrə fəlsəfə doktoru Nailə Qardaşbəyova, Nanotexnologiyalar və nanofizika ixtisası üzrə II kurs magistrant Səma Babayeva çıxışlarında monoqrafiyanın fizikanın tədrisi metodikası və pedaqogika sahəsindəki əhəmiyyətindən bəhs ediblər. Vurğulanıb ki, interaktiv təlim metodlarının tətbiqi fizikanın mürəkkəb konseptlərinin daha anlaşıqlı izahına, təcrübə və laboratoriya işlərinin effektivliyinin artırılmasına şərait yaradır. Sonda çıxış edən müəlliflər göstərilən qayğıya görə minnətdarlıqlarını bildiriblər.







# “Python proqramlaşdırma dili” adlı dərs vəsaitinin təqdimatı

Naxçıvan Dövlət Universitetinin “İnformatika” kafedrasının müdiri, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Vüqar Salmanovun müəllifi olduğu “Python proqramlaşdırma dili” adlı dərs vəsaitinin təqdimatı keçirilib.




Naxçıvan Dövlət Universitetinin Elm və innovasiya məsələləri üzrə prorektoru Elsevər Əsədov ali təhsil müəssisələrində yeni dərslik və dərs vəsaitlərinin hazırlanmasının universitetlər qarşısında duran əsas vəzifələrdən biri olduğunu vurğulayıb. Qeyd edib ki, belə nəşrlər tədris prosesinin keyfiyyətinin yüksəldilməsinə, elmi mühitin zənginləşməsinə və gənc tədqiqatçılar üçün yeni imkanların yaranmasına xidmət edir. Prorektor müəllifi təbrik edərək ona gələcək elmi fəaliyyətində yeni nailiyyətlər arzulayıb.

Memarlıq və mühəndislik fakültəsinin dekanı Cavanşir Zeynalov, Fizika-riyaziyyat fakültəsinin dekan müavini Ruhiyyə Cəfərova, “Ümumi riyaziyyat” kafedrasının müdiri Abdulla Həsənov və “İnformatika” kafedrasının baş müəllimi Sevinc Paşayeva çıxışlarında dərs vəsaitinin informatika elminin aktual problemlərinə, müasir texnoloji trendlərə və tədris metodikasının təkmilləşdirilməsinə verdiyi töhfələri yüksək qiymətləndiriblər. Qeyd olunub ki, Azərbaycan dilində bu sahədə dərs vəsaitlərinin az olduğu dövrdə nəşr olunan kitab tələbələr, tədqiqatçılar və ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri üçün etibarlı vəsait olacaq.

Vurğulanıb ki, 12 fəsildən ibarət dərs vəsaitində Python proqramlaşdırma dilinin əsas xüsusiyyətləri, operatorlar, şərt və dövr konstruksiyaları, kortejlər, modullar və fayllar, obyektlər, səhvlər və istisnalar kimi mövzular aydın və sistemli şəkildə izah olunub. Kitab həmçinin Python dilinin sintaksisini, əsas konstruksiyalarını, metodlarını və tətbiqi məsələlərin həlli üçün alqoritmlərin həyata keçirilmə üsullarını əhatə edir. Bu, tələbələrə və tədqiqatçılara müxtəlif informasiya məsələlərinin həllində praktik bacarıqlar qazanmağa, eləcə də əldə etdikləri bilik və texnikaları tətbiqi hesablama problemlərinin kompleks həllində istifadə etməyə imkan yaradır.

Təqdimatda iştirak edən tələbələr bu nəşrin onların praktiki və nəzəri biliklərinin inkişafında əhəmiyyətli rol oynayacağını bildiriblər.




Sonda müəllif Vüqar Salmanov göstərilən diqqətə görə təşəkkürünü bildirib.

Qeyd edək ki, dosent Vüqar Salmanov 60 elmi məqalənin, 2 dərs vəsaiti, 1 metodik vəsaitin və 7 fənn proqramının müəllifidir.

*Fəxriyyə Səyyadova*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# "İlham Əliyev: qadınlara istiqamətli qlobal təşəbbüslər və gender bərabərliyinin inkişafı (2003-2023)" adlı kitabın təqdimatı

Universitetin Elmi Kitabxanasında "Azərbaycan tarixi" kafedrasının professoru Sevinc Abbasovanın müəllifi olduğu, Azərbaycan və ingilis dillərində işıq üzü görmüş "İlham Əliyev: qadınlara istiqamətli qlobal təşəbbüslər və gender bərabərliyinin inkişafı (2003-2023)" adlı kitabın təqdimatı keçirilib.

Rektor Elbrus İsayev Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan dövlət qadın siyasətinin bu gün Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb. O, "Konstitusiya və Suverenlik İli" çərçivəsində keçirilən kitab təqdimatının heç də təsadüfi olmadığını söyləyib. Diqqətə çatdırılıb ki, ölkəmizdə qadın hüquqlarının qorunması, sosial ədalət və insan ləyaqətinin təmin edilməsi Azərbaycan Konstitusiyasının və dövlət suverenliyinin təməl dəyərlərindəndir. Rektor təqdimatı keçirilən kitabın müəllifinin nümunəvi addım ataraq tarixə ekskursiya etdiyini və mənbələrə, faktlara söykənərək maraqlı bir iş ərsəyə gətirdiyini vurğulayıb.

Elm və innovasiya məsələləri üzrə prorektor Elsevər Əsədov nəzərə çatdırıb ki, kitabda Azərbaycanda qadınların təhsil hüquqları, gender bərabərliyini təmin etmək və sosial inkişafı dəstəkləmək baxımından mühüm əhəmiyyətə malik materiallar yer alıb. Qeyd olunub ki, kitab NDU-nun Elmi Şurasının qərarı ilə nəşr olunub.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Ailə, qadın problemləri və gender məsələləri şöbəsinin müdiri Könül Babayeva kitabın bir növ Azərbaycan gender siyasətinin 20 illik salnaməsi olduğunu bildirib. Könül Babayeva qeyd edib ki, bu cür nəşrlərin hazırlanması gələcək tədqiqatçılar üçün də-



yərli mənbə olmaqla yanaşı, gənc nəsli də maarifləndirir və onları cəmiyyətə aktiv sosial mövqe tutmağa həvəsləndirir.

"Azərbaycan tarixi" kafedrasının müdiri Xəzər Hüseynov, Bakı Dövlət Universitetinin müəllimi Vəsilə Möhsümova, Naxçıvan Hərbi Kollecinin rəisi, polkovnik Yaşar Hüseynov, Tarix-filologiya fakültəsinin dekan müavini Qadir Əkbərov, "Azərbaycan ədəbiyyatı" kafedrasının müdiri Nurlana Əliyeva, "Jurnalistika və xarici ölkələr ədəbiyyatı" kafedrasının müdiri Şəhla Şirəliyeva çıxış edərək kitabın geniş müzakirələrə və faydalı fikir mübadiləsinə səbəb olacağını bildiriblər.

Sonda müəllif – professor Sevinc Abbasova kitabın işıq üzü görməsində zəhməti olan hər kəsə və universitet rəhbərliyinə elm yolunda yaradılan imkanlara görə minnətdarlığını bildirib.

Qeyd edək ki, kitabda 2003-2023-cü illər ərzində Ümummilli Lider Heydər Əliyev, Prezident cənab İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım






Əliyeva və Heydər Əliyev Fondu tərəfindən müstəqil Azərbaycan dövlətinin təməllərinin möhkəmləndirilməsində mühüm əhəmiyyət kəsb edən gender siyasətinin aparıcı istiqamət xətti ön plana çəkilib.

# "Hüquq nəzəriyyəsi" kitabının təqdimatı

Tədbirdə çıxış edən universitetin rektoru Elbrus İsayev "Ümumi hüquq" kafedrasının müəllimi Əli Qədimovun müəllifi olduğu "Hüquq nəzəriyyəsi" kitabının nəşrini yüksək dəyərləndirib. Vurğulanıb ki, kitab hüququ yalnız normativ aktlar toplusu kimi deyil, eyni zamanda sosial, siyasi və mədəni kontekstdə qiymətləndirərək hüququn konseptual əsaslarını sistemli şəkildə təqdim edir. Rektor təqdimatı keçirilən nəşrin gələcəkdə universitetdə dərslik kimi istifadə edilib, tədrisə töhfə verə biləcəyini bildirib.




Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektor Nicat Yaqubov, Beynəlxalq münasibətlər və hüquq fakültəsinin dekanı, fəlsəfə elmləri doktoru, dosent Yusif Hüseynov, "Ümumi hüquq" kafedrasının müdiri əvəzi Hikmət Əliyev, "Ümumi hüquq" kafedrasının baş müəllimi Yunis Xəlilov, TEC-in sədri,





Hüquqşünaslıq ixtisasının III kurs tələbəsi Yusif Mirzəzadə kitab haqqında fikirlərini bölüşüblər.

Bildiriblər ki, kitabın əhəmiyyəti müasir normativ




nəzəri yanaşmaların sosial, analitik, tarixi-sosioloji, debat əsaslı müzakirələr, rol oyunları və kazus analizləri vasitəsilə hüquq təliminin interaktiv metodlarına xüsusi yer ayırmasıdır. Bu yanaşma hüquq tələbələrinin hüquqi təfəkkürünü formalaşdırmaq və nəzəri bilikləri praktiki kontekstdə tətbiq etməyə imkan yaratmaq məqsədi daşıyır. Eləcə də kitab suni intellektin hüquqi tənzimləməsi, o cümlədən sosial media platformalarında hüquqi yanaşmalara dair məlumatları da özündə əks etdirir.

Sonda müəllif Əli Qədimov göstərilən diqqətə və çıxış edən hər kəsə təşəkkür edib.

Qeyd edək ki, iki cildlik kitabın növbəti hissəsi isə hüququn dinamikasına, hüquq normasının cəmiyyətdə necə işlədiyi, tətbiq olunduğu proseslərə həsr olunub və gələcək üçün nəşri nəzərdə tutulub.

# İordaniyalı tədqiqatçı ilə görüş

Görüşdə Yaxın və Orta Şərqin tanınmış kolleksionerlərindən, əntiq əşyalar və Şərq xalçaları üzrə mütəxəssis, iordaniyalı tədqiqatçı Məhəmməd Əl-Bağdadi, universitetin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Nicat Yaqubov, müəllim və tələbə heyəti iştirak ediblər.

Universitetin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Nicat Yaqubov giriş sözü ilə çıxış edərək Naxçıvan Dövlət Universiteti ilə İordaniya arasında qurulan əlaqələrdən bəhs edib. Universitetin rektoru Elbrus İsayevin rəhbərliyi ilə İordaniya Haşimilər Krallığına edilən səfəri xatırladaraq, NDU və Al-əl Beyt Universiteti arasında imzalanmış Əməkdaşlıq Memorandumunun əhəmiyyətini vurğulayıb. Bu əməkdaşlıq çərçivəsində müəllim və tələbə mübadiləsi, ortaq tədqiqat layihələrinin həyata keçirilməsi, eləcə də iordaniyalı professorların tədris prosesinə cəlb olunması istiqamətində görülən işlər diqqətə çatdırılıb. Prorektor əlavə edib ki, universitetdə tanınmış




şəxsiyyətlərlə davamlı olaraq keçirilən belə görüşlər tələbələrin dünyagörüşünün və ixtisas biliklərinin inkişafına mühüm töhfədir.

Sonra tədqiqatçı və kolleksioner Məhəmməd Əl-Bağdadi "Qərbi Azərbaycan mədəni irsinin izi ilə" mövzusunda təqdimatla çıxış edib. Qonaq qədim xalçalar, əntiq əşyalar, metal sənətkarlığı nümunələri və toxuculuq məmulatları haqqında danışaraq, Qərbi Azərbaycanın zəngin maddi və mənəvi irsindən söz açıb. Qeyd edib ki, bu irs həm arxeoloji abidələrdə, həm də nəsildən-nəslə ötürülən ənənələrdə öz əksini tapır. Məhəmməd Əl-Bağdadi qədim sikkə və medalların fotoları vasitəsilə bölgənin tarixi kimliyinə dair maraqlı faktları da auditoriya ilə bölüşüb. Xüsusilə 1828-ci ildə İrəvan şəhəri və onun fonunda Ağrı dağı təsvir olunan qızıl medalı qeyd edib. Bildirib ki, medalda şəhərin çoxsaylı günbəz və minarələri əks olunsa da, heç bir kilsə və xaç simvolu yoxdur. Bu isə həmin dövrdə İrəvanın müsəlman kimliyinə aid tarixi sübut kimi dəyərləndirilir.

Görüş İordaniyadan dəvət olunan əcnəbi müəllim və tədbir iştirakçılarının Qərbi Azərbaycan mədəni irsinə dair fikir mübadiləsi, eləcə də sualların cavablandırılması ilə yekunlaşıb.

# Beş illik zəfər irsi: beynəlxalq tədbirdən qeydlər




05 noyabr 2025 səhər 7 radələrində Bakı hava limanında payız yağışı yağırdı. Təyyarəmiz Naxçıvana istiqamət götürəndə Bakının yağışı dalımızca su səpməklə öz şərəfli missiyasını yerinə yetirdi. Uçuşumuz bir saatdan az davam etdi. Naxçıvan təmiz havası, 4 dərəcə müsbət temperaturu, ən əsası dost arzu və istəyi ilə bizi qucağına aldı. Hava limanından Təbriz hotelinə qədər yol çox da uzaq deyil. Amma belə enli və təmiz küçələri heç bir ölkədə görmək mümkün deyil. Burda nəyi isə tərifləməyə ehtiyac yoxdur. Ona görə ki, burda şəhər necə olmalıdır sualına əyani cavab var. Sadəcə, sən diqqət etməyi bacar.

Naxçıvana Beynəlxalq konfransa gəlmişdim. Universitetin gənc, bacarıqlı, qurucu, çoxsaylı və çoxixtisaslı tələbə və müəllim heyətini ədalətlə idarə edən, tarixçi həmkarım Elbrus İsayevdən dəvət almışdım. Beynəlxalq konfrans tarixi qələbəmizin beş illiyinə həsr olunmuşdu. Uzaq İordaniyadan tutmuş qardaş Türkiyəyə qədər konfransda təmsil olunan var idi. Sözün doğrusu, Naxçıvandan belə bir konfransda məruzə dinləməyin ayrıca ləzzəti var idi.

Qalib ölkənin vətəndaşı olmaqdan şərəfli nə ola bilər? İllərlə həsrətində olduğumuz o qələbə ovcumuzun içindədir, ürəyimizin başındadır. Tarix boyu mübarizə meydanı olan Naxçıvanda qaliblərin tarixinə həsr olunmuş bu konfransda hamının üzü gülürdü. Maraqlı məruzələr bir-birini əvəz edirdi.

Konfrans günü Naxçıvanın havası da bizim tədbirə rəng qatdı. Noyabrdan daha çox may ayını xatırladırdı. Həm də niyə may ayını xatırladım? Müstəqil Azərbaycanın qurucusu, Ümummilli lider Heydər Əliyev may ayında doğulub. Onu boya-başa çatdıran Naxçıvan olub. Ümummilli liderin uğurları Azərbaycan boydadır. Buna hamı şahiddir.

Qalib dövlətlərin cərgəsinə qoşulmaq, düşmən işğalı altında olan torpaqlarımızı azad etmək, bir milyon qaçqın və köçkünü öz dədə-baba torpaqlarına qaytarmaq üçün bir ağ atlı qəhrəmana ehtiyacımız var idi. Bütün Azərbaycan xalqı bu qəhrəmanın intizarında idi. 2003-cü ilin oktyabrında Ümummilli lider Azərbaycan xalqına müraciətində deyirdi: "Mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Biz də konfransda milyonların ümidinə çevrilmiş, cəsarəti və qətiyyəti ilə seçilən, Qarabağın fatehi, Ali Baş Komandanın bilavasitə rəhbərliyi altında qazanılan qələbədən danışırdıq.

300 ildən sonra itirilən torpaqları geri ala bilən qəhrəman dövlət başçısı erməni məkrini Azərbaycan sərhədlərindən kənara atdı. Üçrəngli bayrağımız Azərbaycanın bütün bölgələrində şərəflə dalğalanır.

Biz də Naxçıvanda qürurla dalğalanan o bayrağın kölgəsində "Zəfər irsi" mövzusunda Beynəlxalq konfransımızı qələbə duyğuları ilə keçirdik. Naxçıvan Dövlət Universitetinin Simfonik orkestri öz gözəl musiqi proqramı ilə qalib əhval-ruhiyyəmizə şirinlik qatdı.

Böyük Mustafa Kamal Atatürkün "Türk qapısı" adlandırdığı Naxçıvan böyüyür, gözəlləşir, inkişaf edir, Naxçıvan Dövlət Universiteti isə elm və təhsil üçün qapılarını hamının üzünə açır.

Yaşa, min yaşa, doğma və əziz Naxçıvan!

*Anar İsgəndərov*
*Tarix elmləri doktoru,*
*professor, Millət vəkili*

# Vətən müharibəsi qəhrəmanlarının mediada təbliği – şəhidlər, qazilər, könüllülər və onların hekayələrinin ictimai təsiri

2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsi Azərbaycan xalqının müasir tarixində silinməz iz qoydu. Bu müharibə nəticəsində ölkəmiz öz torpaqlarını azad etməklə yanaşı, milli birliyini, mənəvi gücünü və ordusuna olan inamını da bütün dünyaya nümayiş etdirdi. Müharibə təkcə hərbi hadisə deyil, həm də ideoloji və informasiya müstəvisində aparılan böyük mübarizə idi. Məhz bu baxımdan media qəhrəmanlarımızın obrazını formalaşdırmaqda və onları ictimai yaddaşda yaşatmaqda mühüm rol oynadı.

Vətən savaşımız Azərbaycan ordusunun şücaəti ilə bərabər Azərbaycan əsgərinin, Azərbaycan xalqının vətən, bayraq, torpaq sevgisi ilə düşüncələrdə iz saldı. Dövlət-xalq-ordu birliyi ordunun əsas güc mənbəyinə çevrildi. Məhz bu vətən sevgisi, həmrəyliyimiz düşməni döyüş meydanında məğlub buraxdı. Qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanı-canı bahasına bütün dünya Azərbaycanın şanlı qələbəsinin şahidi oldu. Azərbaycan Ordusu öz qəhrəmanlığı və peşəkarlığı ilə təkcə Ermənistanın silahlı qüvvələrini məhv etməklə qalmayıb, hər kəsin beynində illərlə kök salan erməni mifini də məhv etdi. Cəmi 44 gün ərzində Ermənistan ordusu, hərbi texnikası, canlı qüvvəsi məhv edildi və düşmən ölkəmizin gücü, qüdrəti qarşısında acizliyini sübut etdi. Bu şanlı zəfər sayəsində Qarabağ və Şərqi Zəngəzurda yeni reallıqlar yarandı. Ürəkdən səslənən, xalqın hisslərini əks etdirən Prezident İlham Əliyevin hər bir sözü, hər bir fikri xalqın hafizəsinə əbədi həkk oldu, dillər əzbərinə çevrildi. Müharibə dövründə Prezident İlham Əliyev tərəfindən səsləndirilən nitqlər öz emosionallığı ilə fərqlənirdi. Dövlət başçısının gələcəyə ümid dolu sözləri insanları itkilər qarşısında sönməməyə, əksinə qürurla durmağa ruhlandırdı.

Dövlət başçımızın və birinci xanımın şəhidlərimizə yüksək ehtiramı vətənimizin müdafiəsi uğrunda canını qurban verənlərin valideynlərinə, yaxınlarına, əzizlərinə təsəlli, həm də mənəvi dəstək oldu. Müharibə bitəndən sonra şəhid ailələrinin, müharibə əlillərinin və veteranlarının sosial müdafiəsinin gücləndirilməsi istiqamətində çox böyük işlər görüldü.

**Media və qəhrəmanlıq narrativi**

Mediada qəhrəmanlıq anlayışı milli kimliyin ayrılmaz tərkib hissəsidir. Şəhidlər, qazilər və könüllülər haqqında hazırlanan reportajlar, sənədli filmlər və müsahibələr cəmiyyətin özünüidentifikasiyasını möhkəmləndirir.

Burada **narrativ yanaşma** - yəni qəhrəmanların həyat hekayələrinin emosional, mənəvi və sosial kontekstlərdə təqdimatı – əsas təbliğat üsuludur. Bu hekayələr yalnız fərdi talelər deyil, həm də kollektiv qəhrəmanlıq yaddaşını əks etdirir.

Ümumən Vətən müharibəsi zamanı informasiyanın cəmiyyətə çatdırılması ilə bağlı bir sıra diqqət çəkən məqamlar var idi. Medianı cəmiyyətin güzgüsü hesab etsək, onda döyüş meydanında və arxa cəbhədə baş verənlər jurnalistlərin əsas iş prinsipinə çevrilmiş hesab olunar. Eyni zamanda, o da qeyd olunmalıdır ki, media özü ovqat və ruh yüksəkliyi formalaşdırdı.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dünyanın müxtəlif ölkələrini aparıcı media vasitələrinə verdiyi müsahibələr düşmənə qarşı ideoloji sipər rolunu oynadı. Dövlət başçımız müsahibələrində və xalqa müraciətlərində bizi sevən və nifrət edən hər kəsə vacib ismarıclar ötürdü.

44 günlük müharibə hərbi jurnalistikamızın da canlanmasına səbəb oldu. Bu gün cəbhənin hər qarışına, hər nöqtəsinə, hər rayonumuza bələd olan jurnalistlərimiz I Qarabağ müharibəsində şəhid olan həmkarlarına öz vəzifə və vəfa borclarını ürəklə və yüksək vətənpərvərliklə yerinə yetirdilər.

**Şəhidlərin mediada təbliği**

Şəhidlər haqqında mediada yayımlanan materiallar təkcə xatirə məqsədi daşımır. Onlar həm də gənclər arasında vətənpərvərlik tərbiyəsinin formalaşmasına xidmət edir.



Etik baxımdan media şəhidlərin həyatını sensasiyadan uzaq, hörmət və empatiya ilə təqdim etməlidir. Bu həm peşəkar jurnalistikanın, həm də milli dəyərlərin tələbidir.

**Qazilər və könüllülər kontekstində informasiya təqdimatı**

Qazilərimizin sosial həyata adaptasiyasında medianın rolu çox mühümdür. Onların həyat hekayələri ictimai həmrəyliyi artırır, reabilitasiya məsələlərinə diqqəti yönəldir. Könüllülərin fəaliyyəti isə Azərbaycan gəncliyinin vətənə bağlılığını, həmrəylik və məsuliyyət hissini önə çıxarır. Mediada bu obrazların aktiv təbliği gənc nəsil üçün mənəvi örnək rolunu oynayır.

Araşdırmalar göstərir ki, müharibə qəhrəmanlarının mediada mütəmadi təqdimatı aşağıdakı istiqamətlərdə mühüm ictimai nəticələr doğurur. Milli kimliyin və vətənpərvərlik ideologiyasının güclənməsi əsas amil kimi diqqət çəkir. Gənclərdə sosial məsuliyyət və dövlətə sədaqət hissinin artması halları da qələbəmizin bizə qazandırdığı ən ümdə əlamət sayılır. Bu minvalla tarixi yaddaşın qorunması və gələcək nəsillərə ötürülməsi də zəfərimizin bizə miras qoyduğu keyfiyyətlər sırasındadır. Bu kimi hallarla bərabər cəmiyyətin psixoloji birliyinin bərpası və postmüharibə dövründə mənəvi sabitliyin möhkəmlənməsi əsas məqsədlər siyahısında qeyd olunmalıdır.

Beləliklə, qəhrəmanlıq hekayələrinin mediada sistemli şəkildə təbliği milli ideoloji təhlükəsizliyin mühüm komponentinə çevrilir.

Nəticə etibarilə qeyd etmək istərdim ki, Vətən müharibəsi qəhrəmanlarının mediada təbliği təkcə informasiya fəaliyyəti deyil, həm də milli-mənəvi dəyərlərin qorunması prosesidir.

Hər bir jurnalist, redaktor və media qurumu anlamalıdır ki, şəhid və qazilərimizin hekayələri bizim milli irsimizin bir parçasıdır. Bu irsi yaşatmaq həm elmi, həm mənəvi, həm də vətəndaşlıq borcumuzdur.

Bu tarixi qələbə gənc nəsil üçün əyani tərbiyə mənbəyidir. Bu gün bizə göstərdi ki, vətən sevgisi, birlik və əzm qarşısında heç bir güc dayana bilməz. Bu gün biz azad, güclü və qalib Azərbaycan dövlətinin vətəndaşlarıyıq.

Hər birimiz bu zəfərin nəyin bahasına qazanıldığını yaxşı bilirik. Eyni zamanda, biz bu şanlı zəfər günündə şəhidlərimizin ailələri ilə birlikdə kədərlənirik.

Otuz ilə yaxın həsrətində olduğumuz torpaqlarımız şəhidlərimizin qanı və canı bahasına işğaldan azad edilib. Şəhidlərimizin qanı nahaq yerə tökülmədi – biz tarixi ədaləti bərpa etdik, müqəddəs qələbə qazandıq. Bu qələbə xalqımızın tarixinə əbədi həkk olundu! Şəhidlərimizin müqəddəs ruhu qarşısında baş əyərək, onların qazanmış olduğu bu azadlığı qorumaq, inkişaf etdirmək və gələcək nəsillərə çatdırmaq hər birimizin mənəvi borcudur. İllər, qərinələr, hətta əsrlər gəlib keçəcək, amma 8 Noyabr – Zəfər Günü hər bir azərbaycanlının ürəyində əbədi yaşayacaq.

Biz Vətən müharibəsi şəhidlərini heç vaxt unutmayacağıq. Onlar bizim qəlbimizdə daim yaşayacaq. Allah şəhidlərimizə rəhmət etsin, qazilərimizə isə şəfa versin!

*Səadət Əliyeva*
*"Jurnalistika və xarici ölkələr ədəbiyyatı" kafedrasının baş müəllimi*

# Teleməkanda incəsənət və ədəbiyyat proqramlarının yaradıcılıq xüsusiyyətləri

Jurnalistikanın nəzəri arsenalında televiziya insanı min illər boyu kamilləşdirən ədəbiyyatın indiki çağda çox mükəmməl təqdimat vasitələrindən biri kimi dəyərləndirilir. "Səs və görüntünü eyni anda birləşdirən televiziya"nın təsir gücü hələlik ilk yerdə dayanır. Xalqın, millətin yaradıcılıq potensialını gerçəkləşdirən ədəbiyyat və incəsənət əsərləri bütün dünyada və eləcə də Azərbaycanda televiziya proqramlarının aparıcı tematikasına daxildir. Ustad yazıçı Mir Cəlal XX əsrin əvvəllərindəki ədəbi əsərləri belə qiymətləndirirdi: "Azərbaycan tarixində heç bir zaman bədii ədəbiyyat indiki qədər günün məsələləri ilə sıx əlaqədə olmamışdır. İndi ədəbiyyat çox kəskin siyasi silah olmuşdur". Azərbaycan teleməkanında bədii ədəbiyyata münasibət onun estetikasına söykənir. Çünki ədəbiyyat insan ruhunun aynasıdır. Ədəbiyyat sadəcə duyğulandırıcı parlaq lövhələr, hadisələrin bədii təsviri və gözəl cümlələr toplusu deyil, ilk növbədə zamanı sabaha daşımaq gücündə olan ilahi işıq və bədii qüdrətdir. Ədəbiyyatın isə cəmiyyətin estetik tərbiyəsində rolunu yüksək qiymətləndirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev deyir: "Azərbaycan xalqının, bizim həmımızın xüsusiyyətlərini qoruyub saxlamaq üçün, əlbəttə ki, ədəbiyyatımızın, mədəniyyətimizin böyük rolu olmuşdur. Əgər bunlar olmasaydı, əgər Azərbaycan xalqı öz tarixi köklərinə bağlı olmasaydı, bizim bugünkü taleyimiz başqa cür olardı".

Bədii ədəbiyyatın elə nümunələri var ki, yarandığı qədim dövrdən bu günədək nəsil-nəsil insan yetişdirmişdir. Televiziya hər bir problemin aktuallığını, günün tələbləri ilə səsləşməsini, faktın, təqdim olunan materialın ictimai həyat və cəmiyyət üçün önəmini nəzərə alaraq, bütövlükdə ədəbiyyata, incəsənət nümunələrinə həmişə böyük əhəmiyyət verir.

TV ekranı insanların mədəni səviyyəsinin yüksəlməsinə öz təsirini göstərir. Tamaşaçının, bütövlükdə cəmiyyətin estetik, mədəni, intellektual səviyyəsinin yüksəlməsində bədii ədəbiyyatın rolu çox böyükdür. İnsanın hisslərinə, duyğularına ünvanlanan bədii söz qüdrətli tərbiyə vasitəsidir. Bu mənada yazılı ədəbiyyatın Nizami, Füzuli, Vaqif, Səməd Vurğun, F. Dostoyevski, Q. Q. Markes və s. kimi yüzlərlə klassik yaradıcıları bu yaradıcılığın xalqa məxsus şifahi sahəsi də öz xüsusiliyi ilə bizi heyran qoymaqdadır. Bütün böyük yazıçı və şairlər ilk dərslərini bədii örnək kimi şifahi xalq ədəbiyyatından almışlar. Ən böyük ədəbi əsər xalq dilinə, xalq üslubuna doğma olanda qəbul edilir. Nobel mükafatı laureatı, kolumbiyalı Q. Q. Markes özünün şifahi xalq ədəbiyyatına söykənən "Yüz ilin tənhalığı" romanı ilə dünyada məşhur oldu. Yazıçılarımızdan Anar, Elçin, M. Süleymanlı kimi sənətkarlar şifahi sözün gücünə diqqət etdilər. "Öncə söz gəldi" həqiqətini qəbul etsək, "günlərin bir günündə insanın dilinə söz gəldi... Elə ulusa sözlə birlikdə bir ucalıq gəldi. Ağır-ağır sözlər ağır-ağır kişilər yetirdi". Deməli, söz, o cümlədən "bədii söz" insan yetişdirməkdədir. Ona görə də müasir televiziya kanalları – bütün dünyada və o cümlədən Azərbaycanda bədii ədəbiyyatı təbliğ edən xüsusi proqram formatlarından istifadə edirlər.

Ədəbi-bədii əsərlərin, yazıçı və şairlərin yaradıcılığı ilə bağlı proqram formatlarının elektron mediada maraqlı təcrübəsi var. Hələ Azərbaycan radiosunun yarandığı ilk çağlardan bu informasiya vasitəsinin ən çox müraciət etdiyi ədəbi-bədii əsərlərin radiotamaşa formatında efirə çıxarılması olmuşdur.

Eyni sözləri bu gün televiziyaların bədii ədəbiyyata münasibəti haqqında da demək olar. Azərbaycan telekanalları milli və dünya ədəbiyyatının ən maraqlı nümunələrini teletamaşa formatında tamaşaçılara təqdim edir. Bu fəaliyyət tarixi televiziyamızın başlanğıc çağından özünü göstərsə də, müstəqillik illərindəki məhsuldarlığını xüsusi qeyd etməliyik. Çünki müstəqillik illəri Azərbaycan televiziyasının həyata baxış prizmasını xeyli dəyişdirdi, yaradıcılıq çərçivəsini genişləndirdi. Televiziyamız son illərdə əvvəlki tarixi fəaliyyətinin daha böyük miqyasını yaşatmağa nail olmuşdur. Tədqiqatçılar doğru qeyd edirlər ki, teatrların böhran keçirdikləri bir vaxtda televiziya yeni tamaşalarla cəmiyyətə xidmət etdi. Azərbaycan televiziyası son illərdə "Kamança" əsəri (1993), "Ac həriflər", "Anamın kitabı", "Yurd yeri", "6 №-li palata" (1994), "Məhbus", "Şəkilçi", "Bala, başa bəla", "Kral ölür", "Gecə", "Qayalarda qalan səs", "Yarımştat", "Kleopatra" kimi parlaq tamaşalar təqdim etmişdir.

Etiraf edək ki, ədəbi əsərlərimiz və onların müəlliflərinin teleekran taleyi bu sahəni daha da çox populyar edir. Rusiya telekanallarında böyük iş təcrübəsi olan O.Poptsov yaxşı qeyd edir ki, "vaxtı ilə dünyanın ən məşhur müğənnilərindən olan Şalyapinə bir milyon tamaşaçı auditoriyası qazanmaq üçün 40 il vaxt lazım olardı. İndi televiziya vasitəsilə ən adi müğənni bir saatda 150 milyonluq auditoriya qarşısında çıxış edir". Televiziyanın bu kütləvilik gücünü məşhur şairimiz Bəxtiyar Vahabzadə də öz həyatında hiss etdiyini "Televiziya ədəbi taleyimdə" adlı qeydlərində göstərmişdir: "Otuz yaşımdan üzübəri milli televiziyamızla çox yaxın dost kimi yol gəlmişik. Ədəbi taleyimdə onun xidmətlərini heç nə ilə müqayisə edə bilmərəm. Qələmim qədər, bir çox hallarda isə qələmimdən artıq həyatım, dostum, sirdaşım olub. Hətta bir sıra əsərlərimin yaranmasına şərait yaradıb: onu nəzərdə tutub gərəkli mövzulara müraciət etmişəm. Mənə diktə etdiklərini ona qaytarmışam – o da aydın güzgümüz kimi ordan əks etdirib.

Milli televiziyamız sənət dəyərlərimizin mütləq sahibidir".

Bənzər fikirləri böyük yazıçımız Anarın da qeydlərində oxuyuruq: "Azərbaycan teleradiosu xalqımızın, cəmiyyətimizin həyatında da, şəxsən mənim həyatımda da çox böyük rol oynayıb. Televiziyanın xalqın, millətin maariflənməsində bədii-estetik zövqünün formalaşmasında misilsiz xidmətləri var. Azərbaycan Televiziya və Radio Qapalı Səhmdar Cəmiyyəti ən əski ənənələrə malik bir qurum kimi yenə də cəmiyyətin həyatında mühüm rol oynayır. Mənim həyatımda da radio və televiziyanın çox böyük rolu olub və var". Göründüyü kimi, Azərbaycanın böyük şair və yazıçılarının həyatında televiziyanın çox böyük yeri var. Və bu işdə televiziyanın maarifçilik funksiyası bütün parametrləri ilə qeyd olunmaqdadır. Alimlərin, jurnalistika nəzəriyyəçilərinin, demək olar ki, hamısı televiziyanın ədəbiyyat, incəsənət, mədəniyyət sahəsindəki fəaliyyətini xüsusi qiymətləndirir. "Televiziya mədəniyyət, ədəbiyyat dəyərlərini qiymətləndirmək sahəsində cəmiyyətin həyatında çox mühüm iş görür". Televiziya mənsub olduğu cəmiyyətin strukturunu formalaşdırır və əks etdirir, sosiumun mədəniyyətini tənzimləyir və müəyyən edir. Bu vəzifəni yerinə yetirmək işində televiziyanın arsenalı sırasında mədəniyyət, incəsənət, ədəbiyyat vacib atributlar kimi qiyməyləndirilir.

Televiziyalar peşəkar jurnalistlərin həm müəllif proqramları, həm də televiziyanın proqram şəbəkəsində daimi yeri olan verilişlərlə bədii ədəbiyyatın təbliğinə xüsusi diqqət yetirməkdədirlər.

Azərbaycan xalqının milli-mənəvi sərvətləri sırasında Azərbaycan dili çox mühüm yer tutur. Azərbaycanın klassik ziyalıları – ictimai xadimləri, yazıçı və publisistləri milli-mənəvi dəyərlərimiz sistemində dilimizin dəqiq qiymətini vermiş və sübut etmişlər ki, ana dili millətin varlığıdır, onun həyat atributudur. Məşhur ədəbiyyatşünas və publisist Firudin bəy Köçərli "Ana dili" məqaləsində yazırdı: "Hər millətin özünəməxsus ana dili var ki, onun məxsusi malıdır. Ana dili millətin mənəvi diriliyidir, həyatının mayəsi mənziləsindədir. Ananın südü bədənin mayəsi olduğu kimi, ananın dili də ruhun qidasıdır, hər kəs anasını və vətənini sevdiyi kimi, ana dilini də sevir". Daha sonra F.Köçərli məşhur rus pedaqoqu Uşinskidən misal gətirir: "Bir millətin malını, dövlətini və hətta vətənini əlindən alsan ölüb bitməz, amma dilini alsan fövt olar və ondan bir nişan qalmaz".

Klassik ziyalılarımız dilimizin qorunması və zənginləşdirilməsi məsələsini həmişə ön plana çəkmişlər. Böyük ziyalımız Ö.F.Nemanzadə özünün "Dilimiz və imlamız" məqaləsində Azərbaycan dilinin təmizliyi məsələsini qoymuş, lazımsız alınmalarla dilin korlanmasına qarşı çıxmışdır. Və göstərmişdir ki, "türkcəmizin varlığını, yaşamağını, hamımızın bilikli, hünərli olmamızı, avam üçün yazılan kitabların, qəzetlərin anlaşılmasını istəyirsək, bacardığımız qədər "gərəksiz" və "artıq" olan ərəbcə, farsca sözləri türkcələşdirib yazmağı sınamalıyız". Lazımsız alınmalarla dilimizi korlayanları C.Məmmədquluzadə "Bizim obrazovannılar" felyetonunda və "Anamın kitabı" kimi fundamental dram əsərində əsaslı şəkildə tənqid etmişdir.

Müasir günlərimizdə də bir tərəfdən dilimizin inkişafına dövlət qayğısının şahidiyik, digər tərəfdən lazımsız alınma sözlərlə, bir sıra hallarda imlaya etinasızlıqla onun korlanmasına da şərait yaradıldığını görməkdəyik. Bəlkə, elə bunu uzaqgörənliklə hiss edən Ümummilli liderimiz deyirdi: "Müstəqil Azərbaycan Respublikasının gələcəyi üçün ən əsas vasitələrdən biri ana dilimizin, dövlət dilimizin ikişaf etdirilməsidir".

Maraqlı bir cəhəti qeyd etməliyik; uzun müddət sovet imperiyası daxilində olan Azərbaycan ən çətin dövrlərdə belə öz dilini nəinki qoruyub saxlamış, habelə onun inkişafına da nail olmuşdur. Rus dilinin ciddi ekspansiyası şəraitində belə Azərbaycan xalqı doğma dilin təmizliyini qorumağa nail olmuşdur. Milli Elmlər Akademiyası nəzdində yaradılan Dilçilik İnstitutu, müxtəlif universitetlərin filologiya fakültələri dilçilik elminin inkişafına nail olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin dilçiliyimiz inkişafı ilə bağlı 2013-cü il aprelin 9-da imzaladığı "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" tarixi Sərəncamı çox mühüm rol oynamaqdadır.

Məhz sərəncamda təsdiq edilən dilimizin və dilçiliyimiz inkişafı ilə bağlı Dövlət Proqramının nəticəsidir ki, AMEA-nın Nəsimi adına Dilçilik İnstitunda dilimizin müxtəlif sahələrdə işlənməsinə nəzarət mexanizmi kimi Monitorinq şöbəsi yaradıldı. İndi bu şöbə ayrı-ayrı media nümunələrindən tutmuş reklam lövhələrinədək hər yerdə Azərbaycan dilinin düzgün istifadəsini monitorinq etməkdədir. Şöbə xüsusilə televiziya və radioda dil faktından istifadə ilə bağlı indiyədək keçirdiyi monitorinqlərin nəticələrini açıqlamış, bir sıra qüsurları nəzərə çatdırmış, tövsiyələr təqdim etmişdir.

Telekanallarımız son vaxtlar incəsənət proqramlarını xüsusi diqqətdə saxlayırlar. Əlbəttə, burada söhbət incəsənətin xalq yaradıcılığı ilə bağlı faktlarından gedir və xüsusi qeyd etmək istərdik ki, incəsənətin bu istiqaməti ilə bağlı Azərbaycan faktları yetərincədir. Bütün dünyada və eləcə də Azərbaycan teleməkanında televiziyanın belə bir nəzəri cəhətinə xüsusi diqqət yetirilir ki, milyonlarla teletamaşaçı incəsənəti televiziya vasitəsilə daha rahat və daha səmərəli anlayır. Belə bir cəhət teleefirin səsi və görüntünü eyni anda ötürməsi, səviyyəli rejissorun vacib detalları tamaşa salonundakından da artıq dərəcədə tamaşaçıya iri planda çatdırmağı ilə də izah edilə bilər. Doğrudur, bir çox tənqidçilərə görə tamaşaların televiziya vasitəsilə verilməsi tamaşaçıları teatra getməkdən çəkindirir, lakin həqiqətdir ki, televiziyanın kütləviliyi və onun respublikanın bütün yerlərini əhatə etməsi baxımından bu vasitədən istifadə edərək teatr tamaşalarının verilməsinin mənəvi tərbiyə işində vacibliyini göstərir. Bu mənada xüsusilə xalq tamaşaları, nağılların, dastanların həm birbaşa özlərinin təbliği, həm də onların teatr variantına, opera, operetta, komediya, dram, pyes formatlarına çevrilmiş müasir sənət nümunələrinin təqdimi böyük səmərə verməkdədir. Xüsusilə, gənc nəslin milli ruhda tərbiyəsinə xidmət edən uşaq proqramları bu sahədə böyük rol oynayır.



Şifahi xalq ədəbiyyatı TV proqramlarında elə nağıllar dünyasını əks etdirən bir sıra uşaq verilişləri formatında, bu ədəbiyyatın növlərini ekran təhlillərinə gətirən proqramlarda özünü göstərməkdədir ki, bu da milli ruhun elə körpəlikdən başlanmasına rəvacdır. Buna misal olaraq AzTV və İctimai televiziya daha çox Azərbaycan nağıl və dastanlarına söykənən TV verilişlərini göstərmək olar. O cümlədən "Kitabi-Dədə Qorqud" dastanlarından doğan ciddi motivlərdən tutmuş cizgi filmlərinədək bütün məqamlarda xalq yaradıcılığının nümunələrinə bağlı bir sıra proqram formatları mövcuddur. Belə proqramlarla televiziya tamaşaçının estetik zövqünün formalaşmasına xidmət edir.

Azərbaycan televiziya məkanında teatr tamaşalarının birbaşayayımından tutmuş, ayrı-ayrı bədii nəsr əsərlərinin, pyeslərin televiziya tamaşası şəklində ekrana gətirilməsi incəsənətin bu növünün geniş kütləyə çatdırılmasına xidmət edir. Bu məsələ Azərbaycanda televiziya yaranandan bu günə kimi nəinki davam etməkdədir, habelə inkişaf etməkdə və tamamilə yeni formatlarda özünü göstərməkdədir. Aydındır ki, bədii yaradıcılıq, xüsusilə teleteatr təsvirəgəlməz bir cazibədarlıqla doludur, o adamlara gözəlliyi dərk etməyin və ondan həzz almağın sevincini bəxş edir.

Azərbaycan teleməkanında televiziya filmləri də incəsənətin maraqlı sahəsi kimi milli-mənəvi dəyərlərimizin təqdimində və təbliğində çox böyük rol oynayır. Televiziya filmləri daha çox sənət adamlarının portretlərini, ənənəvi dəyərlərimizin unudulmaqda olan vacib faktlarını üzə çıxarır, mədəni-maarif işi görür. Məhz bu səbəbdəndir ki, son zamanlar çağdaş mədəni, ədəbi mühitin formalaşmasında KİV-nin, xüsusən də televiziyanın təqdimat platforması yeni texniki üsullarla təqdim olunsa da, əsas kontentin dəyişməz olaraq öz mənəvi faydalılığını qoruyub saxlaya bilməsinin vacibliyi hər zaman aktual olaraq təhlil olunmalıdır.

*Fəxriyyə Lilpar İsayeva*
*Sənətşünaslıq üzrə fəlsəfə doktoru, tele-aparıcı*

# Akademik Yusif Məmmədəliyev-120

2025-ci ilin dekabr ayının 31-də xalqımızın tarixinə dünyaşöhrətli alim, ictimai xadim, maarifçi, Azərbaycan Milli Elmlər Akademiyasının təşkilatçılarından biri, SSRİ Elmlər Akademiyasının müxbir üzvü, SSRİ Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, kimya elmləri doktoru, professor, akademik Yusif Heydər oğlu Məmmədəliyevin anadan olmasının 120 ili tamam olur. Azərbaycan elminin inkişafına verdiyi misilsiz töhfələrini nəzərə alaraq akademik Yusif Məmmədəliyevin anadan olmasının 120 illiyinin keçirilməsini təmin etmək məqsədilə 5 iyul 2025-ci il tarixdə Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Sərəncam imzalamışdır. Akademik Yusif Məmmədəliyevin Azərbaycan üçün gördüyü işlərin önəmini nəzərə alaraq onun həyat və fəaliyyəti ilə bağlı qısa məlumatı oxucuların diqqətinə çatdırmaq istərdik.

Yusif Heydər oğlu Məmmədəliyev 1905-ci il dekabrın 31-də Ordubad şəhərində anadan olmuşdur. O, təhsilini evdə və yeni tipli Ordubad məktəbində almışdır. 1918-ci ildə erməni daşnaklarının vəhşiliyindən yaxa qurtarmaq üçün onun ailəsi Təbriz şəhərinə köçmüş və orada yeddiillik Ruşdiyə məktəbində təhsilini davam etdirmişdir. 1920-ci ildə Ordubada qayıtmış və 1923-cü ilə qədər müəllimlik edərək savadsızlığın ləğvində fəal iştirak etmiş və ilk Qızlar məktəbini açmışdır. 1923-cü ildə Azərbaycan Pedaqoji Universitetinin hazırlıq fakültəsində oxumuş və 1924-1926-cı illərdə adıçəkilən universitetdə təbiət elimləri fakültəsində ali təhsil almışdır. 1926-cı ildə təyinat ilə Gəncə şəhərinə göndərilmiş və orada iki il müəllim işləmişdir. 1928-ci ildə İrəvan Pedaqoji Texnikumunun müəllimi olmuş və Azsaylı Xalqların Təşkilat Komitəsinə üzv seçilərək oğlan və qızların təhsilə cəlb edilməsi ilə əlaqədar mətbuatda dəfələrlə çıxış etmişdir. 1929-cu ildə kimyadan biliklərini dərinləşdirmək məqsədilə Moskva Dövlət Universitetinin (MDU) kimya fakültəsinə qəbul olmuş və 1931-ci ildə bitirmişdir. Diplom işini keçmiş SSRİ Elmlər Akademiyasının akademiki N.Zelinskinin rəhbərliyi ilə yerinə yetirmişdir. 1932-ci il sentyabr ayında Azərbaycan Kommunist Partiyası MK-nın məktubuna əsasən Gəncə Kənd Təsərrüfatı Akademiyasının "Üzvi kimya" kafedrasına müdir təyin edilmişdir. Elmi tədqiqat işlərinə böyük maraq bu böyük insanı Azərbaycan Elmi Tədqiqat Neft Emalı İnstitutuna gətirmişdir. Həmin İnstitutda laborantlıqdan akademikliyə qədər şərəfli yol keçmişdir. 1933-1945-ci illərdə kiçik və böyük elmi işçi vəzifələrini tutmuş, 1945-ci ildə isə laboratoriya müdiri vəzifəsinə seçilmişdir.

Yusif Məmmədəliyev hələ Moskva zavodlarının birində işləyərkən neft qazlarından qiymətli kimya məhsullarının alınması sahəsində tədqiqatlar aparmışdır. Bu ideya onun gələcək elmi-tədqiqat işlərinin istiqamətini müəyyən etmişdir. O, dünyada ilk dəfə olaraq neft qazlarından sintetik kauçukun alınması ideyasını irəliyə sürmüş və 1933-cü ildə "Etil spirtinin neft qazlarından alınması üsulu" adlı ilk elmi əsərini çap etdirmişdir. 1934-cü ildə kauçuk ilə əlaqədar olaraq "Azərbaycanda süni kauçukun problemləri" ikinci məqaləsini nəşr etdirmiş və bununla da respublikada sintetik kauçukun yaradılmasının mümkünlüyünü əsaslandırmışdır. Bu ideya 1953-cü ildə keçmiş SSRİ-də Sumqayıtda sənaye miqyasında etil spirtindən butadien və onun əsasında butadien-stirol kauçukun alınması ilə həyata keçirilmişdir. Onu da qeyd etmək lazımdır ki, Y.H.Məmmədəliyev ömrünün son illərində Sumqayıt Kimya Kombinatının layihəsini tərtib edən komissiyanın sədri olmuşdur.

Yusif Məmmədəliyevin elmi fəaliyyətində neft qazlarının emalı, onlardan tullantısız texnologiya əsasında səmərəli xammal kimi istifadə edilməsi xüsusi yer tutur. O, bu sahədə aparılan tədqiqat işlərini ümumiləşdirərək 1936-cı ildə "Azərbaycanın təbii və süni qazları və onların kimyəvi emalı" monoqrafiyasını çap etdirmişdir. Sonralar neft qazlarının çevrilmələrinə dair 10-a qədər məqalə yazaraq çapa təqdim edib. Qeyd edilən məqalələr içərisində 1930-cu ilə aid "Azərbaycanda hidrogen problemi" öz əhəmiyyətini bu gün də itirməmişdir. Çünki bütün dünya alimlərinin qarşısında ekoloji cəhətdən daha təmiz yanacaq olan hidrogenin iqtisadi cəhətdən səmərəli üsulla



alınması bu gün də problem kimi qarşıda durur. Hadisələri xeyli qabaqlayan gənc tədqiqatçını bu problem düşündürmüş və onun həyata keçirilməsi yollarını araşdırmışdır.

Yusif Məmmədəliyev tərəfindən təbii qazların hallogenləşməsi reaksiyaları daha sistemli şəkildə aparılmışdır. O, 1939-cu ildə ilk dəfə dünya təcrübəsində yarımsənaye qurğusunda metandan stasionar katalizator təbəqəsində, sonralar "qaynar katalizator lay" reaktorunda dördxlorlu metan (karbon dörd xlorid) istehsal etmişdir. 1938-ci ildə T.V.Lomonosov adına MDU-nun Elmi Şurası Y.H.Məmmədəliyevin təbii və süni neft qazlarının kimyəvi emalı sahəsində apardığı sistemli tədqiqatları nəzərə alaraq ona müdafiə etmədən "kimya elmləri namizədi" alimlik dərəcəsi vermişdir.

Onun rəhbərliyi ilə karbohidrogenlərin xlorlu törəmələrini almaq üçün pentan, heksan, butilenlər, divinil və digərlərinin xlorlaşma reaksiyası tədqiq edilmişdir. Sonralar hallogenləşmə reaksiyaları sahəsində tədqiqatlar daha da genişləndirilmiş və karbohidrogenlər bromlaşdırılmışdır. Metilen bromidin alınması texnologiyası işlənib hazırlanmış və sənaye qurğusunda istehsal edilmişdir. Beləliklə, onun tərəfindən neft qazlarının hallogenləşmə reaksiyası nəticəsində çox qiymətli kimya məhsulları sintez edilmiş və xalq təsərrüfatının tələbatı ödənilmişdir.

Yusif Məmmədəliyev tərəfindən neft qazlarının və onların ayrı-ayrı komponentlərinin hallogenləşməsi və onların əsasında qiymətli maddələrin alınması sahəsində dərin və orijinal tədqiqatlar neft kimyasını yeni tövsiyələr ilə zənginləşdirmişdir. O, hallogenləşmə sahəsində dünyanın ən nüfuzlu alimi idi. Heç də təsadüfi deyildir ki, 1960-cı ildə Parisdə keçirilən Beynəlxalq simpoziumda hallogenləşmə seksiyasına sədrlik ona həvalə edilmişdir.

Yusif Məmmədəliyevin rəhbərliyi ilə aromatik, parafin və tsikloparafin karbohidrogenlərin alkilləşməsi sahəsində sistemli fundamental elmi-tədqiqatlar aparılmışdır. Onun katalizatorlarının iştirakı ilə alkil və dialkilaromatik karbohidrogenlərin dealkilləşməsi reaksiyası olduqca maraq doğuran problemlərdən biridir. Alim apardığı tədqiqatları ümumiləşdirərək 1942-ci ildə "Aromatik karbohidrogenlərin alkilləşdirilməsi və dealkiləşdirilməsi ilə toluolun sintezi" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1943-cü ildə "Neft-kimyası ixtisası üzrə Professor adına layiq görülmüşdür. Onun doktorluq dissertasiyası trotil partlayıcı maddəsinin alınması üçün ilkin xammal olan toluolun sənaye miqyasında istehsal prosesinə həsr edilmişdir. Toluol müharibəyə qədər xaricdən alınırdı. Lakin müharibə illərində bu maddənin satışı dayandırıldığı üçün ölkə kimyaçılarının qarşısında toluolun alınması problemi kəskin şəkildə qoyulmuşdur. Respublikamızda bu məsuliyyətli işin həlli Y.H.Məmmədəliyevə tapşırılmışdı. Bu şərəfli işin öhdəsindən o, ləyaqətlə gələrək toluolu sənaye miqyasında istehsal edilmişdi.

Yusif Məmmədəliyev ilk dəfə olaraq aromatik karbohidrogenlərin doymamış karbohidrogenlər ilə alkilləşməsi üçün sulfat turşusundan katalizator kimi istifadə etmişdir. Bu proses əsasında sənaye miqyasında zavod inşa olunaraq yüksək oktan ədədli izopropilbenzol istehsal edilmiş və SSRİ Müdafiə Nazirliyini yüksək keyfiyyətli aviasiya benzini ilə təmin edən komponent əldə edilmişdir. Onun bu sahədə apardığı tədqiqatlar dövlət tərəfindən yüksək qiymələndirilmiş, 1944-cü ildə "Lenin" ordeni ilə, 1946-cı ldə isə "Stalin mükafatı" ilə təltif olunmuşdur.

Yusif Məmmədəliyev alkinlləşmə reaksiyalarında şəraitin, katalizatorun təbiətinin, aromatik karbohidrogenlərin və doymamış birləşmələrin quruluşunu və reaksiyaya girmə qabiliyyətini müasir üzvi kimya nəzəriyyəsi ilə izah etmiş, reaksiyaların kinetikasını tədqiq etmiş və onların ion mexanizminə dair dərin mülahizələr söyləmişdir. O sübut etmişdir ki, alkinlləşmə reaksiyaları ion mexanizmi ilə gedir. Hətta benzolun propilen və sulfat turşusu iştirakı ilə alkilləşmə reaksiyasının kvant kimyası mülahizələrinə əsaslanma mexanizmini vermişdir. Mübaliğəsiz olaraq onu qeyd etmək yerinə düşərdi ki, dünya ədəbiyyatında alkilləşmə reaksiyalarını Yusif Məmmədəliyev kimi hərtərəfli tədqiq edən ikinci alimə çətin rast gəlmək olar.

Yusif Məmmədəliyev 1945-ci ildə yeni yaradılmış Azərbaycan EA-da ilk kimyaçı akademik seçilmiş və həmin ildə də Azərbaycan EA nəzdində Neft İnstitutunu yaratmış və onun ilk direktoru işləmişdir. 1947-ci ildə isə Azərbaycan EA-nın prezidenti seçilmişdir. Həmin ildə həmçinin SSRİ Neft Sənayesinin Texniki Şurasının sədr müavini vəzifəsində çalışmışdır. O, keçmiş SSRİ miqyasında ən nüfuzlu kimyaçılardan biri olmuşdur, SSRİ "Bilik" cəmiyyətinin xahişi ilə 1959-1965-ci illərdə SSRİ Kimya Sənayesi" kitabını yazmaq ona həvalə edilmişdir. 1950-ci ildə şəxsiyyətə pərəstişin edildyi bir vaxtda onu bəzi subyektiv səbəblərə görə prezident vəzifəsindən çıxarmışlar. O, 1951-1954-cü illərdə Azərbaycan EA-nın Fizika, Kimya və Neft bölməsinin akademik-katibi vəzifəsində işləmişdir.

Yusif Məmmədəliyev 1934-cü ildən başlayaraq elmi-tədqiqat işləri ilə paralel olaraq Bakı Dövlət Universitetində (BDU) assistent, dosent və professor vəzifələrində çalışmışdır. 1945-ci ildə BDU-da "Neft-kimyası" kafedrasını yaratmış və ömrünün axırına kimi ona rəhbərlik etmişdir. 1954-1958-ci illərdə BDU-nun rektoru olmuşdur. Onun rektor işlədiyi dövrlərdə fakültələrdə elmi-tədqiqat işlərinin, eləcə də tədrisin keyfiyyəti əhəmiyyətli dərəcədə yüksəlmişdir. Universitetin qabaqcıl ali məktəblər ilə, xüsusilə MDU ilə əlaqəsi xeyli genişlənmişdir. Yusif Heydər oğlu Məmmədəliyevin rektorluq dövründə BDU-nun kimyaçı kadrlarının əksəriyyəti elmi-tədqiqat yolunu seçmiş, namizədlik və doktorluq dissertasiyası müdafiə etmişlər.

Akademik Yusif Məmmədəliyevin yüksək elmi təşkilatçılığını nəzərə alaraq 1958-ci ildə o, ikinci dəfə Azərbaycan EA-nın prezidenti seçilmişdir. Görkəmli alim qeyri-adi elmi təşkilatçılıq qabilyyətinə malik idi. Hələ 1947-ci ildə akademiyada çalışanların sayını 1000 nəfərdən 5000 nəfərə çatdırmışdı. Həmçinin onun təşəbbüsü ilə akademiyada Şamaxı Rəsədxanası, Əlyazmalar fondu yaradıldı. Bundan əlavə, neft-kimya sahəsindəki tədqiqatları daha da dərinləşdirmək üçün V.V.Kuybşev adına Azərbaycan Neft Emalı Elmi-Tədqiqat İnstitutu və Azərbaycan EA Neft İnstitutu birləşdirildi və hazırda onun adını şərəflə daşıyan Neft-Kimya Prosesləri İnstitutu yaradıldı.

Akademik Yusif Məmmədəliyevin elmi fəaliyyəti heç də müxtəlif korbohidrogenlərin alkilləşməsi və hallogenləşməsi reaksiyası ilə məhdudlaşmamışdır. Bu dövrdə Bakı neftinin benzin fraksiyaları katalitik aromatikləşdirildi, yüngül neft yağlarının katalitik yolla keyfiyyəti yaxşılaşdırıldı və piroliz məhsullarının polimerləşdirilməsi ilə plastik kütlələrin alınması sahəsində fundamental tədqiatlar xüsusi əhəmiyyət kəsb etdi. O, nəinki respublikamızda neft-kimyasının, neft emalının və üzvi sintezin banisidir, həmçinin polimerlər kimyasının yaradıcısıdır.

Böyük ensiklopedik bilik dairəsinə malik olan akademik Yusif Məmmədəliyevin elmi yaradıcılığı təkcə kimya elminin müxtəlif sahələrini əhatə edən çərçivədə qapanıb qalmamışdır. O, Naftalan neftinin müalicəvi əhəmiyyətinə dair tədqiqatlar da aparmış, ilk dəfə olaraq müəyyən etmişdir ki, Naftalan neftinin müalicəvi xassəsi onun tərkibində olan 250-3280C intervalında qaynayan çoxhəlqəli birləşmələrlə əlaqədardır. Onun tərəfindən Binəqədi bitumları da tədqiq edilmiş və müəyyən edilmişdir ki, onların tərkibində azot olan bitki və heyvan mənşəli piqmentlər-porfirinlər mövcuddur. Bu isə neftin üzvi maddələrindən əmələ gəlməsi nəzəriyyəsini bir daha təsdiq edir.

Yusif Məmmədəliyevin 1960-cı ildə yazdığı "Azərbaycanda elmin inkişafı" kitabı Azərbaycanda elmin inkişafı mövzusunda yazılan əsərlərin təməl daşı olub, ilk dəfə 22 elmin inkişaf tarixi haqqında icmalıdır. O, Rusiyada və respublikamızda kimya elminin tarixinə dair bir sıra məqalələr, məruzələr və s yazmışdır. Onun 1951-ci ildə öz müəllimi akademik N.D.Zelinskinin həyat və fəaliyyətindən bəhs edən əsəri diqqətəlayiqdir.

*ardı 15-ci səhifədə*

Rusiya neft-kimya elminin inkişafına dair məruzəsində bu ölkənin neft-kimya elminin keçdiyi inkişaf mərhələlərinin və ayrı-ayrı görkəmli kimyaçı alimlərin neft-kimya elminə verdiyi töhfələrin xronikasını ətraflı şərh etmişdir. Təəssüflər olsun ki, onun “Polşada neft-kimya elmi” və “Neft əmələ gəlməsi və istifadə tarixi” məqalələri yarımçıq qalmışdır.

Akademik Yusif Məmmədəliyevin 30 illik elmi və pedaqoji fəaliyyəti 200-dən artıq sanballı elmi əsərdə, o cümlədən 6 monoqrafiyada əks etdirilmişdir. Onun əsərləri nəinki keçmiş SSRİ-də, hətta imperiya xaricində də yüksək qiymətləndirilmişdir. O, 36 elmlər doktoru və namizədi hazırlamışdır. Yetişdirdiyi aspirantlardan 3-ü Azərbaycan EA-nın həqiqi, 5-i isə müxbir üzvi seçilmişdir. Alim ABŞ, Fransa, İngiltərə, Polşa, Monqolustan və digər ölkələrdə çağırılan Beynəlxalq elmi konqres və simpoziumlarda respublika kimya elmini ləyaqətlə təmsil etmişdir.

Akademik Yusif Məmmədəliyev görkəmli kimyaçı olmaqla bərabər, çoxcəhətli ictimai fəaliyyətdə olan dövlət xadimi olmuşdur. O, dəfələrlə seçkili orqanlara seçilmiş və SSRİ Ali Attestasiya Komissiyasının üzvü olmuşdur.

Yusif Məmmədəliyev 1961-ci il dekabr ayının 15-də cərrahiyyə əməliyyatı keçirir və qısa müddət sonra, 56 yaşında həyatla vidalaşır. Lakin keçən bu illər ərzində alim heç vaxt unudulmamış, çoxsaylı tədbirlərdə yad edilmişdir. Onun barəsində istər ölkəmizdə, istərsə də ölkəmizin hüdudlarından kənarda görkəmli şəxsiyyətlər tərəfindən ən xoş fikirlər söylənilmişdir.

Yusif Məmmədəliyevin həyat-fəaliyyəti ilə bağlı Azərbaycan Respublikası Prezidenti İlham Əliyev, birinci vitse-prezident Mehriban Əliyeva, AMEA-nın Sabiq prezidenti, akademik Akif Əlizadə, akademik Azad Mirzəcanzadə, xalq yazıçısı, akademik Mirzə İbrahimov, xalq şairi Səməd Vurğun, xalq şairi, akademik Bəxtiyar Vahabzadə, akademik Məmməd Cəfər, akademik Fuad Qasımzadə, akademik Murtuz Nağıyev, akademik İsmayıl İbrahimov, akademik Toğrul Şahtaxtinski, akademik Əli Quliyev, akademik Musa Rüstəmov, akademik Rəfiqə əliyeva, akademik Nadir Seyidov, akademik Mustafa Topçubaşov, akademik Çingiz Cuvarlı, akademik İmam Mustafayev, AMEA-nın müxbir üzvü Mustafa Salahov və s. kimi görkəmli şəxsiyyətlərin də dəyərli fikirləri vardır.

Qeyd edildiyi kimi, Yusif Məmmədəliyevlə bağlı respublikamızdan kənarda yaşayan bir çox görkəmli şəxsiyyətlərin dəyərli fikirləri vardır. Məsələn, Yusif Məmmədəliyevin müəllimi, akademik Nikolay Zelinski, SSRİ EA-nın 1936-1945-ci illərdə prezidenti olmuş akademik Vladimir Komarov, Fransız Kimya Cəmiyyətinin Prezidenti Arman Lat, Misir Neft Tədqiqatları İntitutunun direktoru, professor Əhməd Məhəmməd Əl-Sabah və başqaları. Akademik Yusif Məmmədəliyev xatirəsini əbədləşdirmək məqsədi ilə hökümətimiz Azərbaycan MEA Neft-Kimya Prosesləri İnstitutuna, Şamaxı Rəsədxanasının yerləşdiyi qəsəbəyə, Ordubad İpək kombinatına və Bakı küçələrindən birinə onun adını vermiş. NDU-da və Ordubad şəhərində muzeyi açılmış, büstü qoyulmuşdur. Bakıda İstiqlal küçəsində, AMEA Rəyasət Heyəti binasının yanında heykəli qoyulmuşdur.

*Tofiq Əliyev*
*NDU Təbii Ehtiyatlar*
*İnstitutunun baş direktoru*
*AMEA-nın müxbir üzvü, professor*

# Cəmşid Naxçıvanskinin ev muzeyi: tarixlə üz-üzə

Biz Cəmşid Naxçıvanskinin ev-muzeyindəyik. Bu ev 1988-ci il oktyabrın 22-dən muzey kimi fəaliyyət göstərir. Muzeydə bizə çox xoş münasibət göstərdilər. Məqsədimiz Cəmşid Naxçıvanskinin həyatı, yaşadığı məkan və onun şəxsiyyətini daha yaxından tanımaq idi.Qapıdan daxil olanda bizi



pilləkənlər qarşılayır. Ev altı otaqdan ibarətdir və hər otaqda Cəmşid Naxçıvanskinin və ailəsinin şəxsi əşyaları, maraqlı şəkilləri, qazandığı ordenlər, rəsmi sənədlər və digər dəyərli eksponatlar nümayiş olunur. Muzeyin birinci salonunda sərkərdənin xatirəsini əbədiləşdirmək üçün hazırlanan sənədlər və şəkillər yerləşdirilib. Burada ümumilli lider Heydər Əliyevin Cəmşid Naxçıvanskinin hərbi sahədəki uğurlarını yüksək dəyərləndirdiyi fikirlərindən biri də nümayiş olunur: “19-cu, 20-ci əsrlərin tarixini götürsək, Naxçıvan xanları-Kəngərli sülaləsindən Çar Rusiyasının ordusunda altı general var idi. Onlardan sonuncusu Cəmşid xan Naxçıvanskidir”. Həmin salonun digər guşələrində Cəmşid xan Naxçıvanskinin 85 və 120 illik yubileyinin keçirilməsi, Naxçıvanski adına hərbi liseyin Naxçıvan filialının açılması haqqında sərəncamlar, muzeyin açılması ilə bağlı qərarlar və Heydər Əliyevin döyüş bayrağını təqdim etdiyi anın şəkilləri yer alır. Burada həmçinin 120 illik yubileyə həsr olunmuş video materiallar və post markalar nümayiş olunur. Salonda xalq rəssamı Hüseynqulu Əliyev tərəfindən çəkilmiş böyük portret və vitrinlərdə Cəmşid Naxçıvanski haqqında sənədli filmlər və Kəngərli nəsli generallarına aid video materiallar diqqəti cəlb edir. Digər guşədə 1984-1985-ci illərdə Heydər Əliyevin Cəmşid Naxçıvanski adına hərbi liseydə və 1990-cı ildə muzeyi ziyarət edərkən çəkdirdiyi şəkillər, sənədlərin Azərbaycan və rus dillərində tərcümələri nümayiş olunur. Burada həmçinin Naxçıvanskinin heykəltaraş Elmar Cəfərov tərəfindən hazırlanmış qraviri və onun hərbi karyerasını əks etdirən digər sənədlər yer alır.Evin ikinci salonunda Naxçıvanskinin uşaqlıq şəkilləri, ailəsi ilə olan fotoşəkilləri və hərbi vəsaitləri nümayiş olunur. Burada Tiflis hərbi korpusunda təhsil aldığı dövrdə çəkdirdiyi şəkillər, kursantlarla olan görüntülər və yataqxana binasına aid şəkillər diqqət çəkir. Birinci Dünya Müharibəsində ağır yaralandıqdan sonra yenidən döyüşə qatıldığını göstərən sənəd və şəkillər də vitrindədir.Digər guşələrdə Naxçıvanskinin 1920-30-cu illərə aid şəkilləri, əsgərlik fotoları, attestasiya vərəqələri, rəhbəri olduğu hərbi oyunların və planların sənədləri yerləşir. Muzeydə onun xatirəsinə həsr olunmuş portretlər, o cümlədən rəssam Nəriman Əliyevin “Sərkərdənin gənclik haqqında” əsəri və Məmədəli İsmayılovun “Tapşırıq” tablosu da nümayiş olunur. Bundan əlavə, diviziya əsgərləri ilə hərbi təlim zamanı çəkilmiş şəkillər, şəxsi döyüş əşyaları – döyüş çantası, kompas, böyüdücü lupa, eynək, su qabı və Amerika istehsalı koçak markalı fotoaparat da vitrindədir. Rəsmlər arasında Azərbaycan Milli Ordusunun döyüş səhnələrini əks etdirən əsərlər də var. Cəmşid Naxçıvanski 1931-34-cü illərdə Fransada Hərbi Akademiyada təhsil alıb, buranı bitirdikdən sonra müəllim kimi fəaliyyət göstərib və həmin dövrdə çəkdirdiyi şəkillər indi muzeydə saxlanılır. Muzeydə həmçinin SSRİ dövründə iştirak etdiyi müharibələrə görə qazandığı medalların şəkilləri, 1938-ci ildə repressiyaya məruz qalması və Moskvada basdırıldığı yer barədə məlumatlar da təqdim olunur.Evin iş otağı olan digər salonlarda Fransa istehsalı saat, 19-cu əsrə aid kitab rəfi, piano, radio, üzüm tənəklərindən hazırlanmış kitab rəfi və Naxçıvanskinin şəxsi yazı masası, şəxsi əşyaları və ensiklopediya kitabları yerləşir. Burada həmçinin Araz-Türk Respublikasına aid xəritə, mürəkkəb qabı, stolüstü saat və 19-cu əsrə aid asma lampa da nümayiş olunur. Bu muzeyi ziyarət etməmişdən əvvəl Cəmşid Naxçıvanski haqqında yetərincə məlumatlı deyildim, lakin Gültac Rəsulzadə və muzeyin rəhbəri Abasəd Quliyevin verdiyi bilgilər sayəsində onun həyatı və xidmətləri haqqında geniş məlumat aldım. Cəmşid Naxçıvanski və onun timsalında vətən üçün çalışan, tarixdə iz qoyan şəxsləri unutmamalıyıq və hər dəfə onlar haqqında daha dərin məlumat əldə etməliyik.

*Aysu Şükürova*
*Jurnalistika ixtisası üzrə*
*I kurs tələbəsi*

# İnsanı yaşadan kəlmə

Ümid… Dörd hərfdən ibarət balaca bir söz kimi görünə bilər, amma mənası insan həyatının bəlkə də ən böyük dayaqlarından biridir. Sözün lüğəvi mənasına baxdıqda “arzu edilən bir şeyin ola biləcəyinə inanmaqdan doğan daxili fərəh, xatircəmlik hissi, güman” anlayışına gəldiyi bildirilir. Etimologiyası isə qədim türk dillərinə və fars dilinə dayanır.

Bəs insanlar üçün ümid nədir? Xəstəxana dəhlizində içəridə yatan yaxınının oyanmasını gözləyən birinin hissi… Günün yaxşı keçəcəyinə inanmaq… Görüb bəyəndiyin paltarı yenidən tapmaq arzusu… Ən kiçik bir hadisənin belə baş verəcəyini düşünmək… Bunların hamısı ümiddir. Hətta sabah var olub-olmayacağımızı bilmədən zəngli saat qurub yatmağımız da sabaha kiçik bir ümiddir. Demək ki, gün ərzində fərqinə varmadan dəfələrlə ümid edirmişik.

İnsanın içində mütləq bir ümid işığı yanır. O işıq olmasa, yaşamaq hissi də olmazdı. Çünki ümid – gələcəkdə istədiyimiz bir şeyin ola biləcəyinə inam, həyatın özüdür. Ümidsiz insan gələcəyə inanmadığı üçün yaşamağın mənasını da itirir. Ümid qaranlıq gecədən sonra günəşin doğuşunu gözləmək kimidir. Həyatda nə olursa olsun, içimizdə ən azı balaca bir ümid qığılcımı qalmalıdır.

Başqa sözlə, ümid insana istiqamət verən daxili kompasdır. Həyatımızın ən böyük motivasiya mənbələrindən biridir. Kiçik görünən bu söz, əslində, həyatımızın çox böyük bir hissəsini təşkil edir.



Qurani-Kərimdə və hədislərdə də ümid haqqında çoxlu ayə və fikirlər var. Allaha olan inam, edilən duaların qəbul olunacağına ümid bəslənməsi xüsusi vurğulanır. Həzrət Əmirəlmöminin buyurur: *“Bütün ümidlərinizi pak olan Allaha bağlayın və Ondan qeyrisinə ümid etməyin. Allahdan qeyrisinə ümid bəsləyən elə birisi olmadı ki, ümidi puça çıxmasın.”* Başqa bir hədisində isə xəbərdarlıq edərək deyir: *“Ən böyük bəla – ümidsizlikdir.”*

Deməli, ümid heç də kiçik bir söz deyildir. Əksinə, arxasında böyük bir məna, dəyər və məsuliyyət daşıyır.

Həyatda nə baş verirsə versin, içimizdəki o işığın sönməsinə imkan verməməliyik. Çünki psixoloji baxımdan həmin işıq insanın yaşama səbəblərindən biridir. Ümid olan yerdə, ən zülmət qaranlıqların sonunda belə bir işıq tapmaq mümkündür…

*Fidan Zamanova*
*Jurnalistika ixtisası üzrə*
*II kurs tələbəsi*

# TALEYİN FIRÇA İZİ



Qürur dolu bir yolun – II Qarabağ müharibəsinin başlanğıc tarixi. Bəlkə də, hava olacaqlardan xəbərdar imiş... Nə bilmək olar... Hava sanki yarıqüssəli insan kimi dolur, yarı qürurlu insan kimi şəfəq saçırdı. Artıq müharibə başlamışdı. Kimisi ordu sırasından əsgər və ya zabit kimi, kimisi isə səfərbərlikdən gələn zabit kimi qürur dolu tarixi yazmağa gəlmişdi.

Xudayar da kiçik gizir olaraq ordunun sıralarında xidmət edirdi. Artıq döyüş bir neçə gün idi başlamışdı. Xudayar da ordunun cəngavər igidlərindən biri idi. Əzmlə vuruşan ordumuz düşmənə dadmadığı acını daddırdı. Çünki bu əslində gecikmiş olan 30 ilin qisası, Xocalı şəhidlərinin ahları idi.

Xudayar həm də musiqi təhsili almışdı. Onun təmiz, məlahətli səsinin, avazının təsir etmədiyi insan yox idi. Şəhərləri aldıqca da sanki bu ecazkar avaz, qürur dolu azadlıq marşına çevrilirdi. Ətrafındakı insanlar, xüsusilə onun silahdaşları səsinin məftunu idi. Hər döyüş sonrası döyüş yoldaşlarının istirahəti bülbültək xoş avazına qulaq asmaq olurdu. Müharibənin ilk günlərindən Xudayar Füzuli rayonunun sərhəd məntəqəsində xidmət edirdi. Xudayar da digər igidlərimiz kimi ancaq düşmənə dağ çəkmək, 30 ilin qisasını almaq uğrunda vuruşurdu.

Murovdağın, Füzulinin, Cəbrayılın və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə də Xudayarın izi aydın görünür.

Oktyabrın 22-si idi. Dan yeri yenicə sökülürdü. Günəş al-əlvan şəfəqini yenicə geyinməyə başlamışdı. Qara buludlar ara-sıra günəşin al-əlvan paltarına kölgə salsa da, onun şəfəqlərini gizlədə bilmirdi.

Döyüşün qızğın vaxtı idi. Göydə uçan dronların işığı şəhəri aydınladırdı. Bəlkə də, sadə vətəndaş üçün bu çox vahiməli, dəhşətli görünə bilərdi. Amma Xudayar və Xudayarın timsalındakı digər oğulların qəlbində olan vətən sevgisinin, alışıb yanan qisas eşqinin qığılcımları yanında drondan ucalan, şəfəq saçan ürpərdici işıqlar sönük qalırdı. Hava təzəcə işıqlandığı üçün soyuq adamı qılınc kimi kəsir, insan iliyindən axan qaynar qanı belə dondururdu.

Zəngilana çatmağa çox az qalmışdı. Hamının bir fikri vardı:

– " Ya Qarabağ , ya ölüm !"

Bu fikir sanki onları silah kimi irəli tətikləyirdi. Qızğın döyüş gedirdi. Artıq ordumuz Ağbənd qəsəbəsinə çatmışdı.

Xudayarın isə fikri şəhid yoldaşlarının yanında qalmışdı. Bu onu çox kədərləndirirdi, çünki hamı kimi axı onların da arzuları vardı. Evlərində yolunu gözləyən atası, dərddən saçını bir gecədə ağ rəngə boyayan anası vardı. Çoxusunun isə həm də həsrətlə pəncərədən boylanan balaları vardı. O balalar ki, həmin igidlər onların gözündə Poladtək qəhrəmana çevrilmişdi.

Hər dəfə şəhid yoldaşlarıyla xatirələrini yadına saldıqca qeyri-ixtiyari gözləri dolurdu. Sanki göz yaşları boğazında düyünlərə çevrilib onu sıxırdı. O, döyüş yoldaşlarının qisasını alacağına and içmişdi. Onun yükü çox idi: bronjileti, avtomatı və əsgər çantası vardı. Havanın kəskin soyuğu belə ona mane olmurdu. Avtomatı çox qızmışdı. Əllərini hiss olunacaq qədər yandırmağa başlamışdı. Amma buna baxmayaraq düşmənin qorxulu yuxusuna çevrilmişdi.

Avtomat əlini yandırsa da, bütün şəhidlərin, həmçinin general Polad Həşimovun qisasını almaq eşqi onun gözünü boyamışdı.

Bu düşüncələr ona həm də qürur hissi yaşadırdı. Ona görə qürurlanırdı ki, axı şəhidi olmayan torpaq vətən olmaz!

Xudayar sanki başqa bir aləmdə idi. O düşünürdü:

Axı şəhidlik uca zirvədir! Cənnətin ən gözəl, ən uca məqamıdır, şəhidlik hər adama qismət olmaz! Şəhidlərimiz Rəbbimizin seçilmiş şəxsləridir, peyğəmbərimizin qonşusudur. Görəsən bu uca məqama mən də yetə bilərəmmi?

Qəfildən bu vaxt arxadan güllə səsi gəldi və bir anlıq Xudayarın dolmuş gözlərindən yaş axdı.

Bəli, mənfur düşmənin amansız gülləsi ona tuş gəlmişdi. Onun axan qızıl qanı torpaqda cığır saldı. Xudayar sevinirdi. Çünki sən demə Rəbbimizin sevimli bəndəsi imiş.

Məktəb vaxtından bir yerdə olduğu, qardaşıtək sevdiyi dostu Asim onu bu halda görüb, göydə uçuşan güllələrə fikir vermədən özünü Xudayarın üstünə atdı:

Gözləri dolan Asim Xudayara:

– Xudayar, dayan qardaşım, qurban olum dayan, bu saat komandirə zəng edirəm, sənə təcili yardım göndərəcək. Xudayarın başını dizi üstə alan Asim onun gözündən süzülən damlaları silməyə başladı.

Xudayar gülümsəyərək dedi:

Qardaşım, narahat olma, mən çox rahatam. 22 illik həyatımda olmadığım qədər çox rahatam. Asim isə ağlayaraq onun üz-gözündən öpürdü.

Xudayar sözünə davam etdi:

– Asim, qardaşım, bu dəqiqə üstümə göydən qızılgül ləçəkləri yağır, sanki ruhumla bədənim heç olmadığı qədər çox rahatdı. Bu hal məni çox sevindirir, çünki Rəbbimin sevimli quluymuşam ki, bu məqama ucalıram.

Asim əlini yavaşca onun ağzına qoydu və titrək səslə dilləndi:

–Qurban olum sənə, hələ bu barədə danışma, yalvarıram sənə, bu arzuna çatma. Sənə mənim də, ailənin də çox ehtiyacı var, Xudayar. Xudayarın artıq nəfəsi də soyumuşdu və əlləri get-gedə buza dönürdü .

Gülümsəyən Xudayarın üzünə sanki yenidən nur gəldi və o, yavaşca danışmağa başladı:

–Asim, qardaşım, mənim gördüklərimi sən görmürsən. Mən elə bir uca məqama ucalıram ki, inan mənə o məqama ucalmaq həyatda yaşamaqdan daha gözəldir. Nə gözəl mənim halıma ki, taleyimin fırçası həyatımı bu cür izlə sonlandırır. Bəlkə də, mən dünyaya gəlməmişdən əvvəl həyatımın bu anına görə 77 dəfə bəli demişəm.

Özünə yaxşı bax Asim. Çalışın ki, vurulsanız belə, mənim kimi irəli yıxılın ki, bədəniniz boyda tutduğunuz torpağı da azad edəsiniz. Anama deyərsən ki, oğlunla fəxr et, heç vaxt belini bükmə, əksinə alnıaçıq, üzüağ ol! Çünki sən şəhid anasısan! Mənim üçün da ağlayıb narahat olmasın, ucaldığım məqamda heç olmadığım qədər çox xoşbəxtəm. Allah amanında ...

Xudayarın artıq soyuq nəfəsi duyulmurdu. Çünki göylərdən bizə tamaşa edirdi:

Asimin soyuq çöhrəsindəki göz yaşları buz qırovu kimi üzünə dəyirdi. Onun sanki dili tutulmuşdu.

Bu olanlar ona yuxu kimi gəlirdi. Xudayarın ruhunu bu mahnının şad edəcəyini düşünüb zümzümə etməyə başladı:

Dumanlı dağların başında durdum,
Dumandan özümə bir xeymə qurdum,
Keçdi xəyalımdan öz gözəl yurdum,
Dumanlar başında dastana döndüm.

Həqiqətən də 22 oktyabr- Xudayarın ömrünün 22-ci baharında şəhadətə qovuşduğu gün hava dumanlı və çiskinli idi. Eynən mahnıda deyildiyi kimi, Xudayar dumanlar başında dastana döndü.

Xudayarın əziz xatirəsinə....

Dumanlar başında dastana dönən,
Bir ömür xalqına xoşbəxtlik verən,
Vətəni uğrunda canından keçən,
Xalqımızın igid oğlu Xudayar.
Vətəni canından uca tutdun sən,
Son damla qanınla boyanar vətən,
Hər zaman önündə baş əyirəm mən,
Xalqımızın igid oğlu Xudayar.
Torpağa cığırı qanıyla salan,
Cənnət mələyitək göyə ucalan,
Dünyada izini əbədi qoyan,
Xalqımızın igid oğlu Xudayar.
Vətəndə əzmli igidlər vardır,
Öyündüyüm Mübarizdir, Poladdır,
Hər zaman bölünməz, möhkəm qaladır,
Xalqımızın igid oğlu Xudayar.

*Rəqsanə Həsənova*
*Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası üzrə II kurs tələbəsi*

# 8 NOYABR-BEŞ İLLİK ŞAN, QÜRUR VƏ XATİRƏ

Azərbaycan xalqının yaddaşında dərin iz buraxan Qarabağ münaqişəsi XX əsrin sonlarında, 1988-ci ildən başlayaraq ölkənin ən ağrılı, ən acılı səhifələrindən biri oldu. Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və sonrakı hərbi təcavüzü nəticəsində Qarabağ regionunda yerləşən yeddi rayon işğal edildi. 1990-cı illərin əvvəllərində minlərlə insan həlak oldu, bir milyondan çox soydaşımız doğma yurd-yuvasından didərgin düşdü. Bu ədalətsizlik illərlə davam etdi, beynəlxalq təşkilatların qətnamələrinə baxmayaraq, işğal faktı dəyişməz olaraq qaldı. Xalq öz torpaqları üçün, qayıdış ümidi ilə yaşadı.

27 sentyabr 2020-ci ildə Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 gün davam edəcək Vətən müharibəsi başlandı. Bu tarixi hadisə illərlə yığılan ümidlərin gerçəyə çevrildiyi tarix oldu. Azərbaycan



Ordusu 44 gün ərzində həm hərbi cəhətdən, həm də mənəvi və siyasi müstəvidə misilsiz zəfər qazandı. 8 Noyabr 2020-ci ildə Şuşa şəhərinin azad edilməsi ilə bu tarixi qələbənin zirvəsi yaşandı. Prezident, Ali Baş Komandan İlham Əliyevin "Şuşa azaddır! Qarabağ Azərbaycandır!" ifadəsi isə Azərbaycan xalqının yaddaşında silinməz iz buraxdı.

Bu gün artıq həmin qələbədən 5 il keçir. 8 Noyabr – Zəfər Günü yalnız hərbi uğur deyil, eyni zamanda milli birlik, ruh yüksəkliyi və tarixi ədalətin bərpası deməkdir.

Son beş ildə işğaldan azad olunan ərazilərdə genişmiqyaslı bərpa, quruculuq və abadlıq işləri həyata keçirilir. Viran edilmiş şəhərlər yenidən tikilir, infrastruktur layihələri reallaşdırılır. Zəngilan, Füzuli, Şuşa və digər bölgələrdə yeni yollar, hava limanları, məktəblər, xəstəxanalar tikilir və kəndlərdə bərpa işləri həyata keçirilir. Bu, sadəcə yenilənmə deyil – bu, yeni həyatın dirçəlişidir.

Qayıdış proqramı çərçivəsində artıq yüzlərlə ailə doğma yurduna qayıdıb, "Ağıllı kənd" və "Ağıllı şəhər" layihələri tətbiq olunmağa başlanıb. Azad olunan torpaqlarda həm iqtisadi, həm də mədəni dirçəliş prosesi gedir. Şuşa şəhəri bu illər ərzində mədəniyyət paytaxtı elan olunaraq bir çox beynəlxalq tədbirlərə ev sahibliyi edib. Bu, Azərbaycanın həm tarixə, həm də gələcəyə verdiyi dəyərin simvoludur.

Zəfərin 5 illiyi münasibətilə keçirilən tədbirlər, yürüşlər və anım mərasimləri təkcə keçmişi xatırlamaq üçün deyil, həm də gələcəyə inamla baxmaq üçündür. Bu gün gənclərimiz qalib xalqın övladları kimi yetişir, vətənpərvərlik ruhu daha da güclənir. Hər bir ailədə zəfərin qürur hissi yaşanır və hər bir vətəndaş bu böyük tarixin canlı şahididir.

8 Noyabr – beş illik şanlı yolun, qürurun və unudulmaz xatirələrin rəmzidir. Qarabağ Azərbaycanındır və hər zaman belə qalacaq!

*Nəzrin İsmayılova*
*Jurnalistika ixtisası üzrə III kurs tələbəsi*

# "Zəfər günü – qalib xalqın qürur zirvəsi"

Bir sevgidən danışmaq istəyirəm- Vətən sevgisindən. Dünya boyda, qəlbimizdə beşikdən ta məzaracan yaşayan və heç zaman sönməyən sevgidən. Bu sevgi bizi həyata, doğulduğumuz yurda, elə-obaya bağlayan bir qüdrətdir. Tarixin ən acı sınaqlarından şərəflə, zəfərlə çıxan Azərbaycan xalqının ürəyində olan Vətən sevgisi tükənməzdir. Vətən sevgimiz sonsuzdur, böyükdür, çünki Vətən elə bizim özümüzük. Onun uğruna can verməyə, qan tökməyə hər zaman hazırıq. Azərbaycan xalqı əsrlər boyu keşməkeşli tarix yaşamışdır. Bu xalq həmişə güclü, döyüşkən, əzmkar olmuşdur. Düşmən qarşısında əyilməmiş, başını dik tutmuşdur.

Azərbaycan xalqının tarixində elə günlər var ki, qəlbimizdə həmin günlər əsrlərlə yaddaşlardan silinmir, xalqın milli kimliyinin, birliyinin və gücünün simvoluna çevrilir. **8 Noyabr –Zəfər Günü** də məhz belə günlərdəndir.

Bu tarix Vətən müharibəsində qazanılmış böyük qələbənin, 30 il həsrətlə gözlədiyimiz torpaqların azad olunmasının rəmzidir. Zəfər günü bizə həm qəhrəmanlıq, həm də vətənpərvərliyin nə olduğunu bir daha xatırladır. 44 günlük Vətən müharibəsi bunu sübut etdi. Mərd, qorxmaz oğul yetişdirən analar ağlamadı, "Vətən sağ olsun"- dedi! Babəklər, Cavanşirlər, Tomrislər yetişdirən Azərbaycan öz adını tarixə qızıl hərflərlə yazdı. Düşmənə sübut etdi ki, bizim güclü ordumuz, sözü və əməli bir olan Prezidentimiz var. Biz bir yumruq kimi birləşdik. 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi altında misilsiz igidlik və birlik nümayiş etdirdi. Şəhidlərimizin qanı, qazilərimizin fədakarlığı, xalqımızın sarsılmaz iradəsi bu qələbəni mümkün etdi. Hər bir əsgər, hər bir vətəndaş bir amal uğrunda — **Vətənin azadlığı** uğrunda birləşdi.

Həmin payız günündə sanki günəş daha parlaq şəfəq saçdı və həmin an gəldi. Artıq neçə il idi ki, işğalda olan torpaqlarımız igid oğullarımızın, ordumuzun və bu ordunun Müzəffər Ali Baş Komandanının şücaəti, qətiyyəti ilə geri alındı. Tariximizə yeni bir Qələbə, Zəfər yazıldı.

Amma bu qələbə asan qazanılmadı. 44 gün davam edən haqq savaşında qəhrəmanlarımız bir an belə ruhdan düşmədən, geri çəkilmədən ruh yüksəkliyi ilə mübarizə apardılar. Vətən uğrunda torpaq uğrunda canlarından, qanlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Vətən uğrunda canından keçən hər bir qəhrəman xalqımızın əbədi qürurudur. Onların igidliyi gələcək nəsillər üçün vətənpərvərlik dərsidir.

Bu gün müstəqil Azərbaycan dövləti özünün ən şanlı dövrünü yaşayır. Qələbəni qorumaq, vətəni inkişaf etdirmək, gənc nəsildə vətən sevgisini, milli qüruru daha da gücləndirmək bizim borcumuzdur. Çünki Vətən yalnız silahla deyil, elm, mədəniyyət, birlik və sevgi



ilə də qorunur. Azərbaycan xalqı yenilməz xalqdır, Azərbaycan dövləti məğlubedilməz və güclü dövlətdir.

Eşq olsun Azərbaycan Ordusuna!
Eşq olsun Qalib Azərbaycan xalqına!
Qarabağ Azərbaycandır!

*Günel Talıblı*
*"Musiqi təlimi" kafedrasının müəllimi*

# NAMƏLUM ƏSGƏRDƏN MƏKTUB

Salam, Vətən övladı. İcazə ver, ilk olaraq özümü sənə tanıdım. Mən sənin doğma yurdunun torpağından boylanan bir qardaşınam. Bəlkə, səninlə söhbətimiz daha çox olacaq, bəlkə, səninlə yenidən görüşdük, nə bilmək olar, bəlkə də, oxuduğun bu cümlələrdən sonra bir daha qarşılaşmadıq... Bəlkə də, sən bu yazını səhər çağı oxuyursan, gün üfüqdən yenicə boy atanda. Bilirsən, mən də həmin axşam günəşi görmək ümidi ilə yola çıxmışdım. Mən deyim, mən və silahdaşlarım... Düzünə qalsa, həmin gecə hava olduqca soyuq idi. Əllərimi silahın lüləsinə, silahın qundağını isə torpağa bərk-bərk sıxıb, həyəcandan soyuq havada tərləyən dostlarıma baxırdım... Kimisi qızının, həyat yoldaşının, ailəsinin fotosunu sinəsinin üstündəki döş cibində gəzdirir, arabir isə uzun-uzun gözlərini zilləyib sakitcə fotoya baxırdı. Mən evli deyiləm, mənə hərbçilərin deyimi ilə desək taborun "gənc əsgəri" deyirdilər. Ona görə də, məni gözləri kimi qoruyub "Vətənlə birgə sən də əmanətsən" deyirdilər. Bəzən isə mənə cəsarətli olmağı və düşmənin gözünün içinə dimdik baxmalı olduğumuzu deyirdilər. Deyirdilər ki, qoy onlar utansın və bizim önümüzdə başların yerə diksinlər. Doğrusu buraya gələndə təkcə Vətən üçün gəlmişdim. Sonradan gördüm ki, evli olan silah dostlarıma iki əmanət birlikdə tapşırılıb: biri vətən, biri isə həmin sinələrində gəzdirdikləri foto...

Həmin gecə kənarda sakitcə dayanıb, arabir soyuqdan qurumuş dodaqlarımı dilimlə isladıb, dişlərimlə çeynəyirdim. Artıq on altı gün idi ki, döyüş başlayıb. Ürəyimdə isə həmin həyəcan ilk günkü kimi hələ də döyünür, "Niyə hələ də, gözlərin yol çəkirdi?", deyə soruşsanız, düzünə qalsa verəcək cavabım yoxdur. Biz artıq Füzuli, Cəbrayıl, Ağdərə və Xocavəndin bir neçə kəndini, eyni ilə Murovdağı düşmən caynağından azad etmişik... Xudafərin isə hələ də bizi gözləyir, düşmənin leş nəfəsinin içərisində. Arzum oranı görməkdir. Hər dəfə anamla zəngləşəndə tək bir fikir onu narahat edirdi, hər kəlmə başı, "Üşümürsən?" – deyə soruşur; mən isə "Yox, onsuz bütün gün yataqxanada yatırıq, yeməklərimiz də əladır", – deyib bir təhər inandırırdım. Hətta bir dəfə bu cümləni quranda, havadakı çən ağzımızdan çıxan buxara qarışmışdı. Hava o cür, vahiməli və səssiz idi. Eyni ilə bugünkü kimi.

Silahımı iki ayağımın arasında sıxışdırıb, nəfəsimlə arabir əllərimi isitməyim hələ də yadımdadır... İsinmək üçün qaladığımız ocaq yavaş-yavaş sönürdü. Biz növbə ilə yatır, yerdə qalanlarımız isə ətrafa nəzarət edirdi. Səhərin açılmağını və ətrafın işıqlanmağını səbirsizliklə gözləyirdim. Heyif ki, ətraf gözlədiyimizdən tez işıqlandı... Bəli, bayaqdan arzuladığım işıq zülmət gecənin düz ortasında idi... Bir göz qırpımında biz mühasirəyə alınmışdıq. Əl qumbaraları, mərmilər havada uçuşurdu... Saniyələr içində ixtiyarsız vəziyyətdə avtomatımı götürmüş formada, bir ağacın arxasında tapdım özümü. Nə həmin axşamdan, nə də o soyuqdan bir əlamət qalmamışdı. Gördüyüm sonuncu işıqda zülmət qaranlığın ortasında, qumbaranın yanımda açılması ilə oldu...

Sanma ki, mən bu gün xoşbəxt deyiləm, yox. Mən hər dəfəsində sizin kimi vətənpərvər qardaş və bacılarımı gördükcə artıq həmin soyuq günləri unuduram. Şəhadətə qovuşanda digər taborun igid qəhrəmanları arzumu gerçəkləşdirdilər. Artıq Xudafərin azaddır. Kənardan dayanıb həmin anı izləyəndə, həminki həyəcan o günkü axşam kimi idi. Bu dəfə isə göz yaşlarım, yol çəkməkdən və soyuqdan deyil, sevincdən yaşarırdı. Vətən bayrağının Şuşada, Xankəndidə, Cəbrayılda, Kəlbəcərdə, bir sözlə bütöv Qarabağ torpağında dalğalanmasıdır həmin göz yaşları.

İndi isə buradayam, dostlarımın bəziləri yenə yanımdadır. Ara bir məzar daşlarının üstünü oxuyanda dostlarımla müharibədə olarkən yaşadığımız xatirələrim yadıma düşür. Ey Vətən övladı, məndən ötrü məyus olma. Doğrusu, əllərimi artıq nəfəsimlə deyil, sizin məzar daşına zillənən baxışlarınızla və bu məktuba hər baxdığınızda isidirəm. Siz məni ömür boyu bəlkə də tanımayacaqsınız, mən də kim olduğumu deməsəm, daha yaxşıdır, amma siz məni hər gün görəcəksiniz, inanırsınız, hər gün. Hər gülə, çiçəyə, yola, yaşadığınız kəndə, dalğalanan o nazlı üçrəngli bayrağa, ayaq basdığın Vətən torpağında səninlə olacağam. Mən təkcə bu yurdun deyil, sənin də əsgərinəm. Bu daşın üzərində də yazdığı kimi, naməlum baxışlarla süzdüyün "Naməlum əsgər"in...

*Rafiq TƏHMƏZ*
*Jurnalistika ixtisası üzrə IV kurs tələbəsi*

# *Susmuş tarixin yenidən danışdığı gün*

Tarixin bəzi günləri var ki, zaman keçdikcə unudulmur, əksinə illər ötüb getdikcə daha da dəyər qazanır, xalqın yaddaşına həkk olunur. Azərbaycan xalqı üçün belə müqəddəs günlərdən biridə elə məhz 8 Noyabr – Zəfər Günüdür. Bu gün yalnız bir qələbənin deyil, həm də bir millətin öz qüdrətini sübut etməsinin, haqqın nahaqqa qarşı yenilməzliyinin, torpağın sahibinə geri dönüşünün bayramıdır. Bu qələbə biriki günün işi deyildi. Onun arxasında illərin ağrısı, səbirlə yığılan ümidlər, köksə çəkilən ahlar, yurd həsrəti ilə böyüyən nəsillər dayanırdı. Otuz il boyunca Qarabağda əsən küləklər təkcə dağların, qayaların üstündən deyil, milyonların qəlbindən keçib gedirdi. Lakin xalqımız heç vaxt ümidsizliyə qapılmadı. Çünki bilirdi ki, azadlıq gec-tez qapını döyəcək, haqq savaşının səsi yüksələcək, şəhidlərin ruhu sakitləşəcəkdi. Və nəhayət o gün gəlib çatdı. Azərbaycan ordusu xalqın içində illərdir püskürməyə hazır vulkanın alovunu döyüş meydanına daşıdı. Bu döyüş təkcə torpaq uğrunda mübarizə deyildi, həm də milli heysiyyətin, vətən qeyrətinin savaş meydanında yazılan dastanı idi. Hər güllənin səsi azad olunacaq torpaqların, həm də qurulacaq evlərin, qayıdacaq uşaqların gülüşlərinin səsi idi.

Qarabağ torpağı azad ediləndə sanki xarıbülbülümüz də yenidən açdı, sanki dağlarda gizlənən otuz illik sükut bir anda qırıldı. Hər azad olunan şəhərin adı xəbərlərdə səslənəndə Azərbaycan evlərində elə bir səs yüksəlirdi ki, bu səs həm sevinci, həm göz yaşını, həm də illərlə gizlədilən yurd nisgilini içində daşıyırdı. Xankəndidən Şuşaya əsən külək artıq əsirlik qoxusu daşımırdı. Şuşa küçələrində atılan addımlar yalnız ordumuzun yox, bütün Azərbaycan xalqının ər meydanına yazdığı qələbənin səsi idi. Şuşaya sancılan üçrəngli bayraq yalnız bir parça deyildi. O, bir millətin tarixinin nəfəsi, şəhidlərin ruhuna ucaldılan əbədi abidə, gələcəyə verilən söz idi. *"Qarabağımız bir də qara gün görməyəcək"!* Bu qələbə hədər getmədi, hər damlası şəhid qanı ilə suvarıldı. Hər bir şəhidimizin adı bir ulduz kimi Azərbaycanın səmasına yazıldı. Onlar getmədilər – vətənin yaddaşında əbədiyaşar oldular. Qarabağın daşında, suyunda, ağacında, quşların səsində onların izi var.

Bir anlıq təsəvvür edirəm ki, gör neçə ananın göz yaşının içində həm fəxr, həm ağrı var idi. Amma ana bilir ki, onun övladı bu torpaq üçün can verib, milyonların başını uca edib. Bu onun ən böyük qürurudur. Hər bir şəhidimizin adı Azərbaycan tarixinin ən uca zirvəsinə yazılıb. Zəfəri xalqa sevdirən ən önəmli məqam o idi ki, o günlərdə bütün Azərbaycan bir yumruq kimi birləşdi. Siyasi fikir, maddi vəziyyət, bölgə fərqi heç biri önəm daşımırdı. Hamı bircə söz deyirdi: Vətən sağ olsun! Cəbhəyə gedən əsgərin arxasında yüz minlərlə insanın nəfəsi vardı. Kimisi dua edirdi, kimisi yardım göndərirdi, kimisi qan verirdi, kimisi isə bayraq tikirdi. Hər kəsin bu şanlı qələbədə



payı var. Zəfər Günü bizə öyrətdi ki, torpaq yalnız coğrafiya deyil, həm də ruh, yaddaş, kimlik və tarixdir. O gündən sonra doğulan hər bir azərbaycanlı zəfər nəslinin bir parçasıdır. Onlar Qarabağı azad görən, Şuşanı bayraqlarla bəzənmiş şəkildə görən, öz ölkəsinin gücünü öz gözləri ilə görən nəsildir. Zəfər Günü hər il bizə o günlərin nəfəsini xatırladır. Qələbənin səsi hələ də qulağımızdadır. Hələ də Şuşa dağlarından boylanan azad sabahımız bizə güc verir. Qarabağda düz otuz il sonra canlanan həyat, bərpa olunan kəndlər, yenidən qurulan şəhərlər bunların hamısı zəfərin davam edən nağılıdır və bu nağıl qurtarmayacaq. Çünki bu nağılı bir xalq yazıb və bu, həqiqətə çevrilmiş arzunun tarixidir.

*Səkinə Əhmədova*
*Jurnalistika ixtisası üzrə III kurs tələbəsi*

# Müasir dövrdə gənclərin kitabxanaya olan marağının artırılmasının yeni üsulları

Müasir dövrdə informasiya əldə etməyin ən sürətli və asan yolu internet vasitələri hesab olunur. Bu gün gənclər istədikləri bilik və məlumatları bir neçə saniyə ərzində telefon və kompüter vasitəsilə axtarıb tapırlar. İnternet, sosial media və elektron kitablar gənclərin əsas bilik mənbəyinə çevrilib. Elə bu səbəbdən də ənənəvi kitabxanalara gənclər arasında maraq getdikcə azalır, çünki hər hansı bir informasiyanı və hər hansı bir kitabın elektron variantını əldə etmək daha rahatdır.

Bütün dövrlərdə olduğu kimi, müasir dövrümüzdə də kitabxanalar cəmiyyətin mədəni və elmi inkişafında mühüm rol oynayan mədəniyyət ocaqlarındandır.

Müşahidələrimiz belə deməyə imkan verir ki, son 10 ildə elektron kitabxana yaratmaq kitabxanaçılıq sahəsində durmadan inkişaf edən yeganə prosesdir. İlk növbədə, kitabxanalar müasir texnologiyalarla təchiz olunmalı və rəqəmsal xidmətlər təqdim etməlidir. Elektron kitab bazalarının yaradılması, internetə çıxış imkanı, rahat internet şəbəkəsi və onlayn qeydiyyat sistemləri gənclərin kitabxanalardan istifadəsini asanlaşdırar. Bu həm də kitabxananı rəqəmsal dövrün tələblərinə uyğun bir hala gətirər.

Kitabxanalar xalqımızın tarixi-mədəni, ədəbi və elmi irsinin toplanıb saxlanılmasında, gələcək nəsillərə ötürülməsində və biliklərin yayılmasında əvəzsiz rola sahibdir. Kitabxana yalnız kitabların toplandığı bir məkan deyil, həm də düşüncələrin, ideyaların və yaradıcılığın mərkəzidir. Gənclərin kitabxanaya marağını artırmaq üçün əvvəlcə onların maraqlarını və zövqlərini anlamaq lazımdır. Bu səbəbdən asudə vaxtlarını dəyərləndirmələri üçün onlarda kitabxanalara getmək vərdişini formalaşdırmaq vacib amillərdən biri olmalıdır. Məsələn, müasir gənclik texnologiya və yeniliklərlə maraqlanırsa, kitabxanalarda rəqəmsal bölmələrin, audio kitabların və interaktiv tədris platformalarının yaradılması bu əlaqəni möhkəmləndirə bilər. Eyni zamanda gənclər özlərini kitabxanada rahat və azad hiss etməlidirlər və müasir dizaynlı, işıqlı və sükunət dolu məkanlar buna kömək ola bilər. Bundan başqa, kitabxanalarda tədbirlərin keçirilməsi, müəlliflərlə görüşlər, oxu müsabiqələri və gənclər üçün könüllü layihələr təşkil etmək onların aktiv iştirakını təmin edə bilər. Kitabxana təkcə nəqletmə yeri deyil, eyni zamanda dostluq, fikir mübadiləsi və öyrənmə mərkəzinə çevrilərsə, bu oxucular üçün daha cəlbedici və maraqlı olar. Kitabxanaların ən vacib məqamı isə gənclərə özlərini ifadə etmək imkanı verməsidir. Bundan başqa gənclər öz yazılarını, esse və şeirlərini kitabxana rəflərində yerləşdirə və ya onlayn səhifələrində paylaşa bilərlər. Beləcə, kitabxanalar həm fiziki, həm də mənəvi bir mədəniyyət mərkəzinə və hər kəsin fikrinin dəyər gördüyü bir məkana çevrilir. Bu gün onu deyə bilərik ki, gənclərin kitabxanaya marağını artırmaq üçün əsas yol ənənə ilə yeniliyi birləşdirməkdir. Bu gün elm və texnologiyanın inkişaf etdiyi dünyanın imkanlarını qəbul edib, paralel şəkildə kitabın dəyərini və dərinliyini qorumaq lazımdır. Çünki kitabxana sadəcə bilik mənbəyi deyil, həm də insan ruhunun sığınacaq nöqtəsidir.



Elektron kitabxanalar informasiya cəmiyyətinin vacib atributlarından biri sayılır. Belə ki, informasiya cəmiyyətinin əsas hədəflərindən biri vətəndaşların informasiyaya əlçatanlığının təmin olunmasıdır. Vətəndaşların informasiya təminatında isə elektron kitabxanalar xüsusi rol oynayır. Müasir dövrdə texnologiyanın inkişafı insanların informasiya əldəetmə vərdişlərini tamamilə dəyişib. İnternet, sosial media və elektron kitablar gənclərin əsas məlumat mənbəyinə çevrilib. Bu səbəbdən ənənəvi kitabxanalara maraq getgedə azalır. Halbuki, kitabxanalar cəmiyyətin mədəni və elmi inkişafında mühüm rol oynayan yerlərdir. Buna görə də gənclərin kitabxanaya olan marağını artırmaq üçün yeni və cəlbedici yollar axtarılmalıdır. Bütün bu texniki vasitələrlə yanaşı, hazırda dünyanın əksər kitabxanalarında və respublikamızın bir çox kitabxanalarında yeni texnologiyaların tətbiq edilməsi ilə, xüsusilə, kompüterlərin köməyi ilə bir sıra kitabxana prosesləri yüksək səviyyədə yerinə yetirilir.

Elektron kitabxanaların yaranması nəticəsində məhdud imkanlı şəxslərin maariflənməsi bu cəmiyyətdə özünəməxsus yer tapması üçün geniş şərait yaradıldı. Çağdaş dövrümüzdə dünyada görmə məhdudiyyətli şəxslərin e-kitabxanalardan istifadəsinə şərait yaratmaq üçün müxtəlif texnologiyalar yaradılmışdır. Nəticə etibarilə, hər bir fərdin kitabxalardan səmərəli şəkildə yararlanması üçün zəruri şərait təmin edilmişdir.

Müasir dövrdə texnologiyanın sürətli inkişafı gənclərin diqqətini daha çox sosial mediaya və rəqəmsal məzmunlara yönəldib. Buna görə kitabxanalara maraq azalıb. Gənclərin kitabxanaya marağını artırmaq üçün ənənəvi üsullarla yanaşı, yeni və cəlbedici yollar tətbiq edilməlidir. Məsələn, kitabxanalarda rəqəmsal kitab bölmələrinin yaradılması, Wi-Fi və rahat oxu məkanlarının təşkili, müasir dizaynlı oxu zonaları və interaktiv tədbirlərin (kitab müzakirələri, müəlliflərlə görüşlər, oxu klubları) keçirilməsi gənclərin marağını artıra bilər.

Biz Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasının nümunəsində müasir dövrdə tələbələrin kitabxanaya marağının artırılması məqsədi ilə ciddi işlərin görüldüyünün şahidi oluruq. Ödənişsiz şəkildə təşkil olunan ingilis dili və kompüter kursları, həmçinin sosial şəbəkələrdə kitabxanaların fəal təbliği və gənclərə yönəlik layihələrin hazırlanması da böyük əhəmiyyət daşıyır. Belə təşəbbüslər kitabxananı yalnız oxu yeri deyil, həm də yaradıcılıq və ünsiyyət məkanı kimi tanıdaraq gənclərin marağını gücləndirə bilər.

Səsli kitabların hazırlanması elektron kitabxana sistemində özünəməxsus yer tutmaqdadır. Bu proses mütaliəyə kömək məqsədi daşımaqla bərabər, gəncləri kitabxanaya cəlb etməyin əsas üsullarından biri hesab oluna bilər. Belə ki, NDU Elmi Kitabxanasının elektron fondunda olan audio kitabların demək olar ki, böyük əksəriyyəti məhz tələbələr, gənclər tərəfindən hazırlanmışdır. Kitabxanada həyata keçirilən sosial layihələrə gənclərin cəlb olunması təqdirəlayiq haldır. NDU Elmi Kitabxanasının sosial layihələrindən olan şəhid ailələri, qazilər və müharibə iştirakçıları ilə görüşlər gənclərdə hərbi-vətənpərvərlik hisslərinin daha da möhkəmlənməsində böyük rola malikdir.

Kitabxanalarda könüllülük işinin uğurla həyata keçirilməsi gənclərin kitaba, mütaliəyə olan marağını daha da artırır. Təşkil olunan tədbirlərdə könüllü gənclərin yaxından iştirakı təcrübə baxımından faydalıdır. Ümumiyyətlə, müasir dövrdə elektron kitabxanalara tələbatın artdığı bir vaxtda gənclərin kitabxanalara cəlb olunması məsələsi aktuallığı ilə seçilir. Bunun üçün kitabxana əməkdaşları hər zaman yeni ideyalar axtarışında olmalıdırlar.

***Leyla Novruzova***
***"Jurnalistika və xarici ölkələr ədəbiyyatı" kafedrasının laborantı***

# Sosial şəbəkələr siyasəti udurmu?

Dünyanın siyasi gündəmi artıq parlamentlərdə deyil, "trend" bölmələrində formalaşır. Qərarları seçkilərdən çox, statuslar və paylaşımlar təyin edir. XXI əsrin siyasət meydanı küçələrdən telefona, tribunadan ekrana köçüb. Bəli, sosial şəbəkələr indi sadəcə fikir mübadiləsi məkanı deyil — onlar ictimai rəyin əsas idarə mərkəzinə çevrilib. Rəyləri kim yaradır – xalq, yoxsa alqoritm? Bir zamanlar siyasətçi xalqa müraciət edirdi, indi isə alqoritm xalqa nəyi görmək istədiyini diktə edir. Məlumat bolluğu içində fərqli baxışlar deyil, çox bəyənilən fikirlər ön plana çıxır. Bu isə "demokratiya"nın yerini "digital populizm"ə verir. Artıq hər siyasətçi bilir ki, xalqın diqqətini qazanmaq üçün bəzən doğru olmaq kifayət deyil — trenddə qalmaq lazımdır. Bəzən bir "tweet" parlament çıxışından daha güclü təsir yaradır. Lakin bu təsirin arxasında kim dayanır? İnsan, yoxsa manipulyasiya edən sistem? Sosial media platformaları, xüsusilə də X (keçmiş Twitter), TikTok və Instagram, ictimai emosiyaları idarə edən alətlərə çevrilib. "Kimin səsi daha çox eşidilir?" sualı artıq "kimin alqoritmi daha güclüdür?" formasında səslənir. Məlumat müharibəsi artıq silahlarla deyil, şəklə çevrilmiş yalanlarla aparılır. 2024–2025-ci illərdə bir çox ölkələrdə seçkiləri, ictimai etirazları və beynəlxalq münasibətləri sosial şəbəkələrdə yayılan saxta xəbərlər formalaşdırdı. Troll şəbəkələri, "bot" hesablar, manipulyativ video montajlar – bunlar artıq "rəqəmsal ordular"ın silahlarıdır. Məqsəd sadədir: xalqı bölmək, etimadı sarsıtmaq, informasiyaya inamı məhv etmək. Ən təhlükəlisi isə budur ki, insan artıq xəbərə deyil, öz istədiyinə inandığı xəbərə inanır. Bu, həqiqətin deyil, təsdiqlənmiş yalanın dövrüdür. Bəzi dövlətlər sosial medianı tənzimləməyə, digərləri isə ondan siyasi təbliğat üçün istifadə etməyə çalışır. Azərbaycan da daxil olmaqla bir çox ölkələrdə bu məsələ informasiya təhlükəsizliyinin əsas hissəsinə çevrilib. Dövlət strukturları sosial şəbəkələrdə milli maraqları qorumaqla, söz azadlığını məhdudlaşdırmadan balans axtarır. Amma bu balans çox incədir — bir addım artıq getsən, senzura yaranır; bir addım az getsən, yalan faktlar reallığı udur. Görünür, gələcəyin siyasətçisi tribunada yox, ekranda doğulur. Onu xalq deyil, bəyənmə sayı tanıdır. Amma bəyənmələr xalqın iradəsini əvəz edə bilərmi? Əgər demokratiyanın gücü şüurlu seçicidədirsə, bu gün həmin şüur "scroll" edən barmağın sürəti ilə yarışır. Hər saniyə dəyişən gündəm içində dərin düşüncə itir, səthi reaksiyalar qazanır. Bu isə siyasəti emosiya teatrına çevirir. Sosial şəbəkələr insanları birləşdirməli idi, amma indi onları fikirlər üzrə qruplara bölüb. Hər kəs öz "reallığında" yaşayır, digəri isə artıq "düşmən" sayılır.



***Günel Məmmədova***
***Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

# Naxçıvan Dövlət Universiteti qlobal təhsil xəritəsində irəliləyir: tədrisi ingilis dilində ixtisasların yaratdığı imkanlar



Bu gün dünyada ali təhsilin əsas istiqamətlərindən biri beynəlxalq tədris mühitinə inteqrasiyadır. Naxçıvan Dövlət Universiteti də bu istiqamətdə aparıcı mövqelərdən birini tutur. Universitetdə ingilis dilində tədris olunan ixtisaslar gənclərə qlobal biliklər qazanmaq, müasir elmi trendlərlə ayaqlaşmaq və beynəlxalq əmək bazarına çıxış imkanı verir.

Ali təhsil ocağında "Tibb", "Kompüter mühəndisliyi", "İqtisadiyyat", "İnformasiya təhlükəsizliyi" (4+1) və "Beynəlxalq münasibətlər" (4+1) ixtisaslarında tədrisin ingilis dilində aparılması tələbələrə peşə bilikləri ilə yanaşı, həm də beynəlxalq səviyyədə düşünmə və rəqabət qabiliyyəti qazandırmağı hədəfləyir. İlk dəfə 2020-ci ildə "İqtisadiyyat" ixtisası üzrə qəbul həyata keçirilib. Hazırda NDU-da tədrisi ingilis dilində 5 ixtisas üzrə 327 tələbə təhsil alır. Bu rəqəm hər il artan templə inkişaf edir.

Tədrisi ingilis dilində həyata keçirilən ixtisasların əsas üstünlüklərindən biri də tələbələr üçün gələcək iş və karyera imkanlarıdır. Bu, onların nəzəri biliklərlə yanaşı, praktik, analitik və kommunikativ bacarıqlara yiyələnməsi ilə bağlıdır. Belə ki, qlobal tədris dili tələbələrə müxtəlif ölkələrin təcrübəsini öyrənmək, beynəlxalq layihələrdə iştirak etmək və xarici təhsil proqramlarına qoşulmaq fürsəti yaradır.

Naxçıvan Dövlət Universitetində bütün sahələrdə olduğu kimi beynəlxalq elmi əlaqələr də artan xətlə inkişaf edir. Əcnəbi müəllimlərin tədris prosesinə qoşulması digər ixtisaslarla yanaşı, ingilisdilli ixtisaslarda da həyata keçirilir. Bu, tələbələrin nəzəri bilikləri beynəlxalq təcrübə ilə birləşdirməsinə və müasir texnoloji trendləri yerində öyrənməsinə şərait yaradır.

Ali təhsil ocağında informasiya texnologiyaları sahəsində yerli və xarici universitetlərlə tələbə mübadiləsi və ikili diplom proqramlarının aktuallığı daim diqqətdə saxlanılır. Bu proqramlar tələbələrə həm NDU-da, həm də əməkdaşlıq çərçivəsində xarici universitetdə təhsil alaraq iki diplomla məzun olmaq fürsəti verir. Bu addım universitetin beynəlxalq əlaqələrini möhkəmləndirir və tələbələrə daha geniş elmi imkanlar qazandırır. Belə ki, NDU ilə Macarıstanın Con Fon Neyman Universiteti arasında ingilis dilində "Kompüter mühəndisliyi" ixtisası üzrə ikili diplom proqramı həyata keçirilir. Bununla yanaşı, "Tibb" ixtisası üzrə SABAH qruplarında da tədris ingilis dilində aparılır.

Universitetdə ingilisdilli ixtisaslarda təhsil alan tələbələr üçün yaradılan şərait onların akademik səviyyədə inkişafına, beynəlxalq imtahanlara hazırlaşmasına və qlobal əmək bazarına çıxmasına geniş imkanlar açır. Tədris prosesi müasir metodologiyalar əsasında qurulur, tələbələr mütəmadi olaraq beynəlxalq proqramlaşdırma təlimlərinə cəlb olunurlar.

Mövzunu daha dərindən araşdırmaq üçün universitetdə tədrisi ingilis dilində ixtisaslarda təhsil alan bəzi tələbələrlə həmsöhbət olduq.

Bağırlı Ləman – Tədrisi ingilis dilində "İqtisadiyyat" ixtisasının IV kurs tələbəsi: Gələcəkdə beynəlxalq şirkətlərdə



və ya xarici təhsil proqramlarında iştirak üçün məndə zəngin baza yaranır.

"İqtisadiyyat" ixtisasını ingilis dilində oxumaq mənə həm nəzəri, həm də praktik baxımdan çoxsaylı üstünlüklər qazandırıb. Əvvəla, iqtisadi ədəbiyyatın əksəriyyəti ingilis dilində olduğuna görə bu sahədə ən son tədqiqatlara birbaşa çıxış imkanım var. Bundan əlavə, dərslərin ingilis dilində aparılması mənim akademik yazı, təqdimat və analitik düşünmə bacarıqlarımı inkişaf etdirib. Bu, gələcəkdə beynəlxalq şirkətlərdə və ya xarici təhsil proqramlarında iştirak üçün məndə zəngin baza yaradır. Artıq beynəlxalq tədbirlərdə və layihələrdə iştirak edərək qlobal iqtisadi trendləri anlama bacarığımı artırmışam. Məsələn, FIDE-16 Ümumdünya Şahmat Olimpiadasında bələdçi və tərcüməçi kimi fəaliyyətim fərqli ölkələrdən gələn insanlarla kommunikasiya və komanda işi bacarıqlarımı əhəmiyyətli dərəcədə gücləndirib.

Dərslərin tədrisi ingilis dilində olduğu üçün həm yerli, həm də xarici ədəbiyyatlardan istifadə edirik. Beynəlxalq elmi bazalarla rahat işləyib təhlil aparma və nəticə çıxarma bacarıqlarımı inkişaf etdirirəm. Universitetin təqdim etdiyi imkanlardan maksimum yararlanmağa çalışıram. İngilisdilli iqtisadiyyat təhsili mənə beynəlxalq düşüncə tərzi qazandırıb və bu, gələcək karyeram üçün çox önəmlidir. Mən gələcəkdə iqtisadi analiz və idarəetmə sahəsində beynəlxalq səviyyədə fəaliyyət göstərmək istəyirəm. Aldığım bilik və bacarıqlar mənə həm yerli, həm də xarici əmək bazarlarında rəqabət üstünlüyü verir.

Babayev Əziz – Tədrisi ingilis dilində "İnformasiya təhlükəsizliyi" ixtisasının I kurs tələbəsi: İngilisdilli ixtisasda təhsil almaq həm prestijli, həm də böyük məsuliyyətdir"

"Mən – Babayev Əziz. 2024-cü ildə Naxçıvanda ilk dəfə yaradılan, tədrisi



ingilis dilində olan "İnformasiya təhlükəsizliyi" ixtisasına qəbul olmuşam. Bizim təhsil modelimiz beş illikdir. İlk ilimiz foundation (hazırlıq) kursu idi. Bizə həm ingilis dili, həm də kompüter elmləri üzrə gələcək dörd ilə hazırlıq məqsədilə bir illik kurs keçdilər. Mənim fikrimcə, bu, xarici dil biliyimi möhkəmləndirmək baxımından böyük bir şans idi. Mənə verilən tapşırıqları bizə hazırlanan sillabus əsasında yerinə yetirdim və irəlilədikcə daha çox öyrənmək istədim. Artıq yeddinci ayın sonunda universitetdə təşkil olunan IELTS imtahanında iştirak edərək 7 bal topladım (CEFR üzrə C1 səviyyəsi).

Dərslər olduqca keyfiyyətlidir: 90 dəqiqə ərzində ingilis dilində fikir mübadiləsi aparırıq, həmçinin kodlaşdırma və riyazi məntiqimizi inkişaf etdirən məsələlər üzərində çalışırıq. Bir neçə elmi konfransda iştirak etməyim də mənim üçün önəmli təcrübədir. Naxçıvanda ilk dəfə tədris olunan bu ixtisasın ilk tələbələri olmaq qürurvericidir. Xüsusilə, ingilisdilli ixtisasda təhsil almaq həm prestijli, həm də böyük məsuliyyətdir."

Qeyd etmək yerinə düşər ki, ingilisdilli ixtisasların inkişafı, xarici müəllimlərin cəlbi, beynəlxalq əməkdaşlıqlar və akademik imkanların genişləndirilməsi Naxçıvan Dövlət Universitetini qlobal təhsil xəritəsində daha da önə çıxarır. Bu təşəbbüslər gənclərə bilik, təcrübə və beynəlxalq düşüncə qazandırır, onların gələcəkdə ölkəmizi dünyada layiqincə təmsil edən müasir mütəxəssislər kimi formalaşmasına zəmin yaradır.

Məlumat üçün bildirək ki, ali təhsil ocağında ingilis dilində tədrisin effektivliyini təmin etmək üçün universitetdə akademik dil infrastrukturu da yaradılıb. Tələbələr IELTS (International English Language Testing System), SAT (Scholastic Assessment Test) imtahanlarına hazırlıqlarla yanaşı, müxtəlif texnoloji və analitik bacarıqları inkişaf etdirən və IBM (International Business Machines) üzrə təşkil olunan təlimlərdən də yararlanırlar. Bütün bunlar tələbələrin dil bilikləri ilə yanaşı, tənqidi düşünmə və qərarvermə bacarıqlarını gücləndirir.

***Fəxriyyə Səyyadova***
***NDU, Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı***

# Min səsli sükut

Kitabxananın küncündə səssizlik danışır. O səssizliyin içində minlərlə söz yatır – tozlanmış, amma hələ canlı. Bəzən şəhərin səs-küyündən qaçmaq istəyəndə yolum məni bir kitabxanaya aparır. Burda zaman dayanır sanki. Səhifələrin arasında nəfəs alan bir sakitlik var. Hər kitab öz içində bir nəfəs, bir hekayə, bir yaddaşdır. Rəflərin tozlu səssizliyində minlərlə səs yatır — oxunmamış fikirlərin səsi. Bəzən bir kitabı əlimə alanda elə bil köhnə bir dostumu qucaqlayıram. Səhifələri çevirərkən hər səs xatirə kimi səslənir. Bu səssizlikdə düşünmək asandır… özünü tapmaq da. Kitabxanalar mənə həmişə bir sirr kimi gəlib — içəri girirsən və fərqli bir dünyaya düşürsən. Bəzən burda oturan bir



tələbənin baxışlarında arzuların parıltısını görürəm. Bəzən yaşlı bir oxucunun əllərində illərin izi, səbrin dərinliyi olur. Hər kəsin öz kitabı, hər kitabın öz oxucusu var.

Və kitabxana—bu görüşlərin səssiz şahididir. Burda tələsməyə ehtiyac yoxdur. Bir kitabı seçmək, bəzən düzgün dost, bəzən bir yol tapmaq kimidir. Mənim üçün kitabxana sadəcə oxuma yeri deyil, düşünmə, duyma və hiss etmək yeridir. Kitabların qoxusu, masa üzərində unudulmuş qeydlər, səhifələr arasında gizlənmiş xatirələr… hamısı bir hekayə danışır. Həmin hekayələrin arasında bu günümüzün ritmini yaradan texnologiya da nəfəs alır — ekranların işığı, elektron kitabların rahatlığı, süni intellektin pıçıltısı…

Dünya dəyişir, sürət artır, bilik bir toxunuşa sığır. Amma nə qədər inkişaf etsək də, texnologiya nə qədər yüksəlsə də, o parlaq ekranlarda heç vaxt kağızın nəfəsiylə gələn o canlı istilik olmur. Bəzən elektron səs-küyün içində insan özünü itirir, amma… kitabxananın sükutu yenə insanı özünə qaytarır. Çünki burada, bu sakit rəflərin arasında, hər kitab hələ də bir addımdır, hər səhifə bir istiqamət. Və ən gözəli, kitablar səni heç vaxt yarı yolda qoymur. Onlar səssiz, amma sadiq dostlardır. Texnologiyanın çağırışları çoxdur, amma qəlbin dərini dinləmək üçün hələ də ən doğru yer, kitabxanaların o əbədi səssizliyidir. Mən hər dəfə burdan çıxanda bir az daha sakit, bir az daha dolu oluram. Çünki dəyişən dünyada belə, mənim üçün kitabxana hələ də bilginin, sükutun və özünü tapmağın evi olaraq qalır.

Kitabxana, səssizliyin içində gizlənmiş min səsin evi…

***Nəzrin İsmayılova***
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

# Tarixin istiqamətini dəyişən alim – Yusif Məmmədəliyev

Tarixin gedişatına müxtəlif dövrlərdə bütün insanlar müəyyən dərəcədə təsir göstərir, lakin onun istiqamətini dəyişə bilənlər çox nadirdir. Tarixi yalnız müharibələr, sərhəd dəyişiklikləri və hakimiyyətin əl dəyişməsi yazmır; onu elmi yeniliklər, cəsarətli kəşflər, ixtiraçılıq və insanlıq naminə görülən əməyin nəticələri də müəyyən edir. Bu həqiqət insanlığın ən qədim dövrlərindən bu günə qədər dəyişməyib. Necə ki, çaxmaq daşlarından istifadə edərək ilk əkinçilik alətlərini hazırlayan insanlar tarixin inkişafına təsir etmişdir, eləcə də XX əsrdə yüksək oktanlı yanacağı kəşf edən alim dünya səhnəsində dönüş yaratdı. Hər iki halda ixtiraçı bütün zəka, bacarıq və əməyini yalnız özünə yox, bütün insanların rifahına, cəmiyyətin inkişafına həsr etmişdir. Əkinçilik alətlərini kimin hazırladığı məlum olmasa da, yüksək oktanlı yanacağın kəşfi bizim həmvətənimiz, akademik Yusif Məmmədəliyevə qismət olmuşdur. Bu hadisələr göstərir ki, tarixi dəyişdirmək üçün yalnız güc və silah kifayət etmir; elm, yaradıcılıq və fədakarlıq da əsas amildir. Tarixi dəyişdirənlər yalnız müharibələrdə qalib gələnlər və ya böyük siyasətçilər deyil, həm də gecələrini laboratoriyada keçirən, elmə və insanlığa xidmət edən alimlərdir.

Yusif Məmmədəliyev yalnız kimyaçı deyil, həm də Azərbaycan elminin və neft-kimya sənayesinin banisi, tarixin istiqamətini dəyişən görkəmli alim idi. Onun laboratoriyada apardığı tədqiqatlar yalnız nəzəri bilik yaratmaqla kifayətlənmirdi; onlar sənayenin, iqtisadiyyatın və insanların gündəlik həyatının inkişafına birbaşa təsir edirdi. Məmmədəliyevin yüksək oktanlı benzinin hazırlanması sahəsində apardığı işlər II Dünya Müharibəsi dövründə strateji üstünlük yaratdı, aviasiya və mühərrik texnologiyalarında dönüş nöqtəsi oldu. Bu kəşf laboratoriya divarlarından çıxaraq bütün dünyaya təsir göstərdi və sübut etdi ki, elm təkcə akademik araşdırma deyil, həm də praktik, strateji və sosial nəticələr yarada bilir. Məmmədəliyevin fəaliyyəti göstərir ki, elm insan həyatının inkişafında həm iqtisadi, həm texnoloji, həm də təhlükəsizlik baxımından həyati əhəmiyyətə malikdir. Eyni zamanda, Məmmədəliyev yalnız kəşfləri ilə deyil, həm də elmi rəhbərliyi və təşkilatçılığı ilə seçilirdi. O, gənc alimləri yetişdirir, elmi məktəb formalaşdırır və Azərbaycanın elmi inkişafına böyük töhfə verirdi. Elm onun üçün şəxsi şöhrət və ya sərvət mənbəyi deyil, xalqına xidmət etməyin vasitəsi idi. Onun rəhbərliyi ilə Bakıda yaradılan elmi məktəb sonrakı onilliklərdə də bir çox uğurlu kimyaçıların yetişməsinə səbəb oldu; bu gün dünya səviyyəsində tanınan bir çox tədqiqatçıların elmi yolu məhz Yusif Məmmədəliyevin qoyduğu təməldən başlayır. Bu isə onu göstərir ki, həqiqi alim təkcə kəşf etmir — həm də gələcək nəsillərə yol açır.



Yusif Məmmədəliyevin həyatı bizə göstərir ki, elm sadəcə laboratoriyada və kitablarda qalmamalıdır; o, insanlara, cəmiyyətə və ümumilikdə xalqa fayda verməlidir. Məmmədəliyev öz fəaliyyəti ilə sübut etdi ki, yalnız zəka və bilik kifayət deyil; onların tətbiqi, paylaşılması və insanlıq naminə yönəldilməsi əsl əhəmiyyət daşıyır. Onun ideyaları və kəşfləri Azərbaycanın neft sərvətinin ağıllı və elmi şəkildə istifadə edilməsinə imkan verdi, ölkənin sənaye və texnologiya sahəsində öncül mövqeyə çıxmasına səbəb oldu. Bu, yalnız bir ölkə üçün deyil, həm də dünya elmi üçün böyük töhfə idi.

Bu gün Yusif Məmmədəliyevin adı yalnız Azərbaycan üçün deyil, dünya elmi üçün də simvoldur. Onun yaratdığı kəşflər, elmi məktəb və insanların həyatına təsiri göstərir ki, tarixi dəyişdirmək üçün yalnız güc və silah kifayət deyil; elmə sevgi, əməyə sədaqət və insanlığa xidmət etmək vacibdir. Məmmədəliyev öz əməli ilə sübut etdi ki, bir insanın ideyaları və əməli bütün dövrün taleyini dəyişə bilər, gələcək nəsillərə yol aça və tarixdə əbədi iz buraxa bilər. Onun həyatı bizə göstərir ki, biliyə sevgi, əməyə sədaqət və vətənə bağlılıq varsa, tarixə iz qoymaq mümkündür. Məni Yusif Məmmədəliyevə heyran edən məqam ondadır ki, o, yalnız kağız üzərində "alim" deyildi; o, vətən üçün çalışan, elmi və texnoloji inkişafa yönəlmiş bir uzaqgörən idi. Onun ideyaları Azərbaycanın neft sərvətini daha ağıllı, elmi və faydalı şəkildə istifadə etməyə imkan verdi. Mən düşünürəm ki, belə alimlər — tarixin istiqamətini dəyişə bilənlər gənclər üçün ilham qaynağıdır.

İndi isə, ilk baxışdan sadə görünən o fikir daha da aydın olur: bəli, tarix bütün insanlar tərəfindən yazılır, amma onun istiqamətini dəyişənlər elm fədailəridir. Bu həm keçmiş, həm indiki, həm də gələcək üçün bir dərsdir ki, elmi sevgi, zəhmət və insanlığa xidmət hər bir fərdin tarixdə əbədi iz buraxmasına imkan yaradır. Akademik Yusif Məmmədəliyevin həyatı bizə göstərir ki, bir insanın ideyası yalnız texniki bir nailiyyət deyil, həm də bütün bir xalqın adı, nüfuzu və inkişafıdır. O, göstərdi ki, əsl alim təkcə kəşf etmir, həm də gələcək nəsillərin yolunu işıqlandırır, elm və insanlıq naminə tarixi yenidən yazır.

*Fidan Nəcəfli*
*Jurnalistika ixtisası üzrə*
*I kurs tələbəsi*

# NEFT KİMYASI DAHİSİ – YUSİF MƏMMƏDƏLİYEV

Neft kimyası sahəsində özünəməxsus yeri olan, XX əsr Azərbaycan elminin görkəmli simalarından biri, dünya miqyasında tanınmış kimyaçı və pedaqoq Yusif Məmmədəliyev öz fəaliyyəti ilə ölkəmizi dünyaya tanıdan alimlərdəndir. Onun neft sahəsində çoxsaylı uğurları, elmi nailiyyətləri və töhfələri olmuş, xidmətləri müxtəlif mükafatlarla qiymətləndirilmişdir. Bu dahi alimi öyrənmək üçün kifayət qədər material mövcuddur. Gəlin təqdim olunan məlumatlar əsasında Yusif Məmmədəliyevi və onun Azərbaycan elminə verdiyi töhfələri daha yaxından tanıyaq.

Yusif Heydər oğlu Məmmədəliyev 31 dekabr 1905-ci ildə Naxçıvan qəzasının Ordubad şəhərində anadan olmuşdur. O, 1926-cı ildə V.İ. Lenin adına Azərbaycan Ali Pedaqoji İnstitutunu bitirdikdən sonra bir müddət İrəvan Azərbaycan Pedaqoji Texnikumunda müəllim kimi çalışmışdır. Həmin dövrdə İrəvan azərbaycanlılarının ictimai həyatında da fəal iştirak etmiş, Ermənistanda azlıqda qalan xalqlarla iş üzrə komissiyanın üzvü kimi fəaliyyət göstərmişdir. Gənclərin, xüsusilə qızların təhsilə cəlb edilməsi, onların hüquqi vəziyyəti ilə bağlı mətbuatda çıxışlar etmişdir.

Bu məlumatların özü belə göstərir ki, Yusif Məmmədəliyev həm savadlı, həm də cəmiyyətin inkişafı üçün çalışan bir ziyalı olmuşdur. O, yalnız müəllim kimi fəaliyyət göstərməklə kifayətlənməmiş, müxtəlif komissiyaların işində də yaxından iştirak etmiş, təhsilin inkişafı üçün çalışmışdır.

Alimlik fəaliyyətinə gəlincə, Yusif Məmmədəliyev kimya sahəsində də böyük nailiyyətlər əldə etmişdir. O, 1942-ci ildə kimya elmləri doktoru və professor, 1945-ci ildə isə Azərbaycan SSR EA-nın akademiki seçilmişdir. Həmin il Azərbaycan SSR Elmlər Akademiyasının yaradıcılarından biri kimi akademiyanın Rəyasət Heyətinin üzvü və EA Neft İnstitutunun direktoru olmuşdur. M.Topçubaşov, S.Vurğun, M.Hüseynov və digər görkəmli simalarla birlikdə Azərbaycanın ilk akademikləri sırasında yer almışdır. Sonralar o, EA Fizika, Kimya və Neft bölməsinin akademik-katibi, həmçinin Kirov adına ADU-nun rektoru kimi də fəaliyyət göstərmişdir.

Faşizm üzərində qələbədə Yusif Məmmədəliyevin mühüm elmi töhfələri olmuşdur. O, müharibə üçün həyati əhəmiyyət kəsb edən yüksək oktanlı benzin komponentlərinin alınması texnologiyasını işləyib hazırlamışdır. Bu məhsul müxtəlif mənbələrdə "oktan-8", "izopropilbenzin" və ya "alkilləşdirilmiş yüksək oktanlı benzin komponenti" kimi qeyd olunsa da, konkret bir marka adı ilə rəsmiləşdirilməmişdir. Sovet müşahidəçiləri sonralar bildirirdilər ki, "müharibənin qazanılmasında Mikulinin motorlarının, Yekovlevin təyyarələrinin və Məmmədəliyevin benzininin böyük payı olub".

Onun bu xidmətləri yüksək qiymətləndirilmiş, alim Lenin ordeni, "Qırmızı Əmək Bayrağı" ordeni, "Şərəf nişanı" ordeni və müxtəlif medallarla təltif edilmişdir.

Nobel mükafatı ilə bağlı məqam isə özündə maraqlı bir həqiqəti gizlədir. Yusif Məmmədəliyevin müharibə dövründə hazırladığı yüksək oktanlı benzin üzərindəki araşdırmaları beynəlxalq miqyasda son dərəcə qiymətli və mükafata layiq görüləcək səviyyədə idi. Lakin həmin vaxt bu ixtiranın kimyəvi formulunun tam açıqlanması təhlükəli hesab olunurdu. Mükafata təqdimat zamanı ixtiranın mahiyyəti açıq şəkildə göstərilməli idi və bu, formulun düşmən tərəfin əlinə keçməsi riskini artırırdı. Bu səbəbdən o dövrdə təhlükəsizlik məqsədilə Nobel mükafatı üçün rəsmi təqdimat həyata keçirilməmişdir. Əks halda, Məmmədəliyev çox yüksək ehtimalla Azərbaycanın ilk Nobel mükafatçısı ola bilərdi.



Yusif Məmmədəliyev 15 dekabr 1961-ci ildə 55 yaşında dünyasını dəyişmişdir. Qısa ömür yaşamasına baxmayaraq, Azərbaycan elmində və ictimai həyatında silinməz iz qoymuşdur. Onun xatirəsinin yaşadılması üçün müxtəlif tədbirlər görülmüş, 1987-ci ildə Yalçın Əfəndiyev və Miri Rzayev tərəfindən "Azərbaycanfilm" kinostudiyasında "Yusif Məmmədəliyev" adlı qısametrajlı film çəkilmişdir. Yaşadığı evin qarşısında xatirə lövhəsi qoyulmuş, Fəxri Xiyabanda məzarüstü abidəsi hazırlanmış, AMEA Rəyasət Heyətinin binası qarşısında heykəli ucaldılmışdır.

Bu il Yusif Məmmədəliyevin 120 illiyi qeyd olunur və ölkəmizdə bununla bağlı müxtəlif tədbirlər keçirilir. Biz var olduqca belə dahi şəxsiyyətlərimizi, Azərbaycan üçün çalışan və xalqını işıqlı yollara aparan alimləri heç vaxt unutmayacağıq.

*Aysu Şükürova*
*Jurnalistika ixtisası üzrə*
*I kurs tələbəsi*

# ELMİN İŞIĞINDA YANAN BİR ÖMÜR



Elm bir ağac kimidir. Onun kökü bəzən torpağın dərin qatlarında, acı suların içində gizlənir, amma bu ağacın meyvəsi həm şirin, həm də nurludur. O meyvədən dadan insan fərqlənir, böyüyür, unudulmaz olur. Elmli insan təkcə öz dövrünün deyil, gələcək nəsillərin də işığına çevrilir. O, cismani baxımdan bu dünyadan ayrılsa belə, düşüncəsi, ideyası, yaratdığı dəyərlər insanlığın yaddaşında yaşayır. Azərbaycan tarixində elə şəxsiyyətlər vardır ki, onlar bu torpağın elmini, mədəniyyətini, düşüncə aləmini öz zəkaları ilə nurlandırıblar. Nizami Gəncəvi, Məhəmməd Füzuli, Şah İsmayıl Xətai, İmadəddin Nəsimi, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir, Məmməd Səid Ordubadi, Şəfiqə Axundova, Nigar Rəfibəyli, Əzizə Cəfərzadə... Bu adların hər biri bir okeandır, üzərində elmin gəmiləri üzür, dərinliklərində fikir inci kimi parlayır. Onların əsərləri bir yaylaq kimidir — hər söz bir çiçək, hər fikir bir qoxu, hər sətir bir nəfəsdir.

Bu elmi, mənəvi və yaradıcılıq ənənəsinin parlaq davamçılarından biri də Azərbaycan kimya elminin şahzadəsi, milli elmin qürur siması Yusif Məmmədəliyev idi. O, yalnız laboratoriyalarda deyil, millətin yaddaşında da təcrübələr aparırdı. Onun həyatı elmin işığında yanmaq, xalqı üçün parlayaraq tükənmək nümunəsi idi.

Yusif Məmmədəliyev Azərbaycanda neft kimyasının əsasını qoymuşdur. Bu, yalnız fərdi nailiyyət deyil, həm də Azərbaycan elmi üçün mühüm hadisə idi, çünki Məmmədəliyev kimi alimlər milli elmin simasını formalaşdırır, onu beynəlxalq elmi səviyyəyə yüksəldirdilər.

Azərbaycan SSR Elmlər Akademiyası yarandıqdan sonra Yusif Məmmədəliyev Neft İnstitutuna rəhbərlik etmiş və bu sahədə bir çox elmi yeniliklərə imza atmışdır. Onun rəhbərliyi ilə aparılan tədqiqatlar Azərbaycanı neft-kimya elminin aparıcı mərkəzlərindən birinə çevirmişdir. 1951-1954-cü illərdə o, Elmlər Akademiyasının Fizika, Kimya və Neft bölməsinin akademik-katibi kimi fəaliyyət göstərmiş, 1954–1958-ci illərdə isə Azərbaycan Dövlət Universitetinin rektoru vəzifəsində çalışmışdır. Bu illər ərzində o, təkcə bir alim və rəhbər kimi deyil, həm də elmə inanan, gəncləri elm yoluna səsləyən bir müəllim, bir maarif fədaisi kimi yadda qalmışdır.

Yusif Məmmədəliyev təkcə Azərbaycan elmi üçün deyil, ümumilikdə bəşər kimya elmi üçün böyük bir hadisə idi. Onun elmi baxışları, kimyaya yanaşma tərzi və nəzəriyyəni praktik tətbiqlərlə birləşdirən ustalığı elm tariximizdə yeni bir səhifə açdı. O, elmin quru formullarını həyatla, insanla, praktik fayda ilə birləşdirirdi.

İkinci Dünya müharibəsi illərində, ölkə ən ağır sınaqlardan keçərkən Yusif Məmmədəliyevin elmi biliyi xalq və dövlət üçün həyati əhəmiyyət daşıyırdı. O illərdə neft və onun törəmələri müharibənin "qanı" sayılırdı, çünki hər texnika, hər mühərrik, hər silah bu enerjidən qidalanırdı. Məhz həmin dövrdə Məmmədəliyev və onun elmi məktəbi neftin emalı, onun yeni məhsullarının alınması istiqamətində mühüm ixtiralara imza atdılar. Onun rəhbərliyi ilə aparılan tədqiqatlar nəticəsində yüksək oktanlı benzinin alınması üsulu işlənib hazırlandı. Bu kəşf təkcə elmi nailiyyət deyildi, həm də cəbhədə döyüşən əsgərlərin arxasındakı görünməz zəfərin bir hissəsi idi. Yusif Məmmədəliyev elmi laboratoriyanı bir növ döyüş meydanına çevirmişdi, silah əvəzinə sınaq şüşələrini, güllə əvəzinə kimyəvi düsturları işlədir, elmi ilə müharibəyə xidmət edirdi. O, sübut etdi ki, elm yalnız masa arxasında deyil, həm də vətən üçün ön cəbhədədir.

Elmi ilə xalqına dayaq olan, ağlı ilə ordunun gücünə çevrilən alimlərdən biri idi Yusif Məmmədəliyev. Onun adı o illərin qəhrəmanlıq salnaməsində silahsız, amma ən güclü döyüşçülər sırasında yazıldı. Məmmədəliyevin elmi ixtiraları və tətbiqləri Azərbaycan elmini dünya miqyasında tanıtdı. O, tədqiqatlarının nəticələrini yalnız nəzəri şəkildə deyil, praktiki istehsalatda da həyata keçirdi. Onun rəhbərliyi ilə yaradılan yeni texnologiyalar sonrakı onilliklərdə neft-kimya sənayesinin inkişafına təməl oldu. Yusif Məmmədəliyev elmi təkcə maddənin çevrilməsi deyil, həm də xalqın taleyinin dəyişməsi kimi görürdü. Onun üçün elm insanın ağlının deyil, həm də vicdanının məhsulu idi. O, elm yolunda öz ömrünü işıq kimi yandırdı, amma həmin işıq bu gün də sönmür.

Akademik Yusif Məmmədəliyev ölkəmizdə elm təşkilatçılığında da böyük rol oynayıb. O, Elmlər Akademiyasının prezidenti, universitetin rektoru işləyərkən də Azərbaycan elminin böyük təşkilatçısı olub. 1945-ci ildə Azərbaycanda Elmlər Akademiyası yaranarkən Yusif Məmmədəliyev Elmlər Akademiyasını təsis edən 15 görkəmli şəxsiyyətlərdən biri olub. Azərbaycanın ilk akademikləri olan Mirəsədulla Mirqasımov, Mustafabəy Topçubaşov, Səməd Vurğun, Şirokoqorov, Yesman, Mikayıl Hüseynovla birlikdə Yusif Məmmədəliyev Azərbaycan Elmlər Akademiyasının təsisçisi olub. Elmlər Akademiyası təşkil olunandan cəmi iki il sonra Yusif Məmmədəliyev EA-nın prezidenti seçilib, prezident kimi çox böyük işlər görüb. Məhz onun fəaliyyəti dövründə akademiya nəzdində yeni-yeni tədqiqat institutlarının əsası qoyulub.

Bir qürurverici faktı da diqqətə çatdırmaq lazımdır ki, Yusif Məmmədəliyev təkcə Azərbaycanda yox, o vaxtlar keçmiş Sovet İttifaqında da tanınmış böyük alimi idi və Azərbaycanı layiqincə təmsil edib. 1945-1946-cı illərdə Sovet İttifaqının Neft Sənayesi Nazirliyinin Elmi-Texniki Şurası yaradılanda bu şuraya rəhbərlik Yusif Məmmədəliyevə həvalə olunub. Moskvada böyük bir dövlətin yüksək sənaye kompleksinin elmi-texniki şurasının rəhbərinin azərbaycanlı, Azərbaycan xalqının nümayəndəsi olması təkcə Yusif Məmmədəliyev üçün deyil, həm də bütün Azərbaycan xalqı üçün iftixar hissi doğururdu.

Bütün bu elmi nailiyyətləri və dəyərli kəşflərindən başqa, dahi alimin pedaqoji fəaliyyəti də xüsusi diqqətə layiqdir. Azərbaycan elminin böyük nümayəndələrinin, demək olar ki, hamısı pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. Bu ənənə təkcə elmi deyil, həm də mənəvi mirasın ötürülməsi baxımından mühüm rol oynamışdır. Elə bu səbəbdəndir ki, bu gün Azərbaycan elm, yaradıcılıq, mədəniyyət və siyasət sahələrində öz sözünü inamla bütün dünyaya deyə bilir. Qabaqcıl alimlərin pedaqoji fəaliyyəti onu göstərir ki, ölkəmizdə elm və təhsilin inkişafı bir-birindən ayrılmaz iki sahə kimi formalaşıb. Azərbaycan təhsilinin möhkəmlənməsində, yeni nəslin elmi düşüncə tərzinin formalaşmasında məhz bu alimlərin əməyinin böyük payı vardır. Onların yaratdığı məktəb, qoyduğu elmi irs və yetişdirdiyi tələbələr bu gün də həmin işığın davamçılarıdır.

Yusif Məmmədəliyev yalnız tədqiqatçı alim kimi deyil, həm də pedaqoq, istiqamət göstərən, düşünən gənclərə elmin cazibəsini aşılayan bir müəllim kimi yadda qalıb. Onun dərslərində elm bir fənn deyil, bir həyat fəlsəfəsinə çevrilirdi. O, gənc alimlərə təkcə bilik deyil, həm də məsuliyyət, vicdan və vətən sevgisi öyrədirdi. Yusif Məmmədəliyevin yetişdirdiyi tələbələr və elmi yetirmələr sonralar öz sahələrində böyük uğurlara imza atmış, müəllimlərinin adını həm elm dünyasında, həm də xalqın yaddaşında şərəflə yaşatmışlar. Onun pedaqoji məktəbi Azərbaycan elminin gələcək nəsillərini formalaşdıran ən möhkəm təməllərdən birinə çevrilmişdir.

Yusif Məmmədəliyev kimya elminin dahisi olsa da, onun yaradıcılıq dünyasında ədəbiyyatın da özünəməxsus yeri vardır. Azərbaycan ədəbiyyatında bir çox ziyalılar və elm adamları olmuşdur ki, onların əsas peşələri elmin müxtəlif sahələrinə aid olsa da, bədii yaradıcılıqları da oxucuların marağına səbəb olmuşdur. Buna misal olaraq Abbas Səhhət, Məhəmmədhüseyn Şəhriyar kimi ədiblərimizi göstərmək olar. Elm və ədəbiyyatın birləşdiyi bu yaradıcı simalar içərisində Yusif Məmmədəliyev də xüsusi yer tutur.

Dahi alimin yaradıcılığında da bədii duyğular, sözə və ədəbiyyata dərin maraq hiss olunur. O, yalnız laboratoriyanın deyil, həm də ruhun, sözün, düşüncənin adamı idi. Onun bədii ədəbiyyata olan marağını, sözə aşiq bir insan olduğunu, "söz yağışında islanmaqdan" zövq aldığını "Etiraf" adlı şeirindən də aydın görmək mümkündür. Bu şeirdə o, insanın daxili aləmini, həyatın mənəvi tərəflərini, elm və ruh arasındakı harmoniya axtarışını incə poetik dillə ifadə etmişdir. Y.Məmmədəliyev "Etiraf"ı onun elmi dərinliyinin bədii təfəkkürlə necə vəhdət təşkil etdiyini sübut edir. Elə bil, o, mikroskop arxasında maddələrin sirrini açdığı kimi, qələm arxasında da insan ruhunun sirlərinə baş vurur. Bu baxımdan Yusif Məmmədəliyev həm elm, həm də ədəbiyyat aləmində "dünyaya rahatlıq tapmaq üçün gəlmiş" bir böyük şəxsiyyət kimi yadda qalır:

Oxudum Şərqin ustad şairlərini –
Camini, Hafizi, Xəyyamı, Sədini.
Küsdüm taleyimdən, küsdüm dünyamdan,
Nədən şair yaratmadı məni Yaradan?..

Yetirdim əlimi elmin camına,
Düşdüm kimyanın tor girdabına.
Toru doğrayıb aça bilmədim,
Kimya tilsimindən çıxa bilmədim.

Bədii yaradıcılıqla məşğul olan insanlar mütləq ki, incə zövqə malik olurlar. Bu səbəbdən də Yusif Məmmədəliyev muğamlarımızın divanəsi idi. Musiqimizin – aşıq musiqisinin, incəsənətimizin və təbiətimizin vurğunu idi. Musiqi zövqün açarıdır və o humanist insanlara daha tez təsir edir. Y.Məmmədəliyev böyük xeyirxah insan idi. Xeyirxahlıq günəşi hər kəsin daxilində olur. Bu isə o deməkdir ki, Günəş öz nurunu hamıya eyni dərəcədə payladığı kimi humanist insanlar da öz xeyirxahlıqlarını eyni dərəcədə insanlardan əsirgəmirlər. Onun ən gözəl keyfiyyəti insanlara bəslədiyi məhəbbət idi. Xasiyyətində, davranışında ən böyük gözəlliyi hikmətlə dolu sadəliyi, təvazökarlığı idi. Y.Məmmədəliyev gözəl ailə başçısı, səmimi, mehriban və qayğıkeş ata idi. O, övladlarını (3 qızı var idi) milli ruhda tərbiyə edər, gözəl nəsihətlər verərdi.

Cənab İlham Əliyevin 5 iyul 2025-ci il tarixli Sərəncamı ilə akademik Yusif Məmmədəliyevin 120 illik yubileyinin qeyd olunması Prezidentimizin alimə verdiyi qiymətin ən bariz nümunəsidir. Bu Sərəncam görkəmli akademikin 90 illik yubileyi keçirilərkən Ulu Öndər Heydər Əliyevin çıxışını xatırladır: "Yusif Məmmədəliyev heç vaxt unudulmayacaq, zaman keçdikcə onun Azərbaycan xalqının tarixindəki yeri daha da açıq görünəcəkdir və insanlar, gələcək nəsillər Azərbaycanın belə şəxsiyyətləri ilə fəxr edəcəklər. Yusif Məmmədəliyevin həyatı, yaradıcılığı, əsərləri və qoyduğu böyük elmi irs Azərbaycan xalqının tarixinin böyük bir fəslidir, hissəsidir, parçasıdır. Bu insan öz zəkası, biliyi, istedadı, fədakarlığı, elmi ixtiraları ilə, elmi əsərlər yaratmaqla, həm də ümumən Azərbaycan elmini təşkil etmək, inkişaf etdirmək sahəsindəki fəaliyyəti ilə Azərbaycan xalqının tarixinə daxil olmuşdur. Ona görə biz bu gün də Yusif Məmmədəliyevin xidmətlərini böyük məmnuniyyətlə xatırlayırıq və onun parlaq siması, əziz xatirəsi qarşısında baş əyirik. Yusif Məmmədəliyev həddindən artıq mədəni və eyni zamanda çox təvazökar bir insan idi, millətini, xalqını həddindən artıq sevən bir adam idi, vətənpərvər bir insan idi, Vətəni haqqında, milləti haqqında, xalqı haqqında daim düşünən bir insan idi. Bu insanın siması həm zahirdən, həm də daxildən onun nə qədər yüksək keyfiyyətlərə malik olduğunu nümayiş etdirirdi. O, sözün əsl mənasında ziyalı idi".

Yusif Məmmədəliyev əslində heç vaxt unudulmadı, çünki onun adı elmin, zəkanın, zəhmətin və vətənpərvərliyin simvoluna çevrildi. Görkəmli alim yalnız Azərbaycan elminin deyil, bütövlükdə milli düşüncənin, ziyalılıq mədəniyyətinin təcəssümü idi. O, dərin biliyi, yüksək insani keyfiyyətləri və millətinə olan sonsuz sevgisi ilə təkcə bir alim deyil, həm də bir məktəb, bir ideya idi. Onun həyatı və fəaliyyəti sübut edir ki, elm yalnız laboratoriya divarları arasında qapanmır; əksinə, o, xalqın taleyini, gələcəyini və inkişaf yolunu müəyyənləşdirən ən güclü qüvvədir. Yusif Məmmədəliyev öz elmi ilə, əməli ilə, pedaqoji fəaliyyəti ilə bu həqiqəti həyatının sonuna qədər nümayiş etdirdi. Onun yaratdığı elmi məktəb, yetişdirdiyi tələbələr, irəli sürdüyü ideyalar bu gün də yaşayır, inkişaf edir, yeni nəsillərə istiqamət verir.

Bu gün Azərbaycan kimya elminin beynəlxalq səviyyədə tanınması, onun parlaq simalarının elm səhnəsinə çıxması birbaşa Yusif Məmmədəliyevin qoyduğu bünövrənin nəticəsidir. O, elmi təkcə formullar və reaksiyalar toplusu kimi deyil, həyatın özü kimi dərk edirdi. Elmi insanın mənəvi kamilliyinə, xalqın tərəqqisinə aparan bir yol sayırdı. Biz bu gün onun adı qarşısında dərin ehtiramla baş əyirik. Çünki Yusif Məmmədəliyev təkcə bir dövrün alimi deyil, bütün zamanların örnəyidir. O, ömrü boyu elmin işığında yaşadı və bu işıqla xalqına yol göstərdi. Biz azərbaycanlılar üçün belə şəxsiyyətlər milli qürur, mənəvi dayağımızdır. Onlar tarixdən gələn səs, gələcəyə aparan işıqdır. Yusif Məmmədəliyev də məhz o ölməzlərdəndir, bu səbəbdəndir ki, adı elmin yaddaşında, əməli xalqın qəlbində yaşayır. Unutmayaq ki, dahilər ölmürlər. Onlar qoyub getdikləri əsərləri, yetişdirdikləri insanları, yaydıqları nur ilə yaşayırlar. Yusif Məmmədəliyev də elə bir dahi idi ki, ömrünü elmə həsr etdi, amma elə bu fədakarlığı ilə əbədiyyətə qovuşdu.

***Murad Qənbərov***
***"Azərbaycan dili və ədəbiyyat müəllimliyi" ixtisası üzrə IV kurs tələbəsi***

# Müstəqil istintaqın sözlə aparılan forması – araşdırmaçı jurnalistika

Jurnalistika çoxşaxəli bir sahədir. Hər sahənin özünəməxsus məsuliyyəti vardır. Jurnalistlər beynəlxalq aləmdə dördüncü hakimiyyətin təmsilçiləri kimi qəbul edilirlər. Bu peşə sahibləri jurnalistikanın hansı sahəsində çalışmalarına baxmayaraq, obyektiv və vicdanlı olmalıdırlar. Bu da vurğulanmalıdır ki, onların da söz və vicdan azadlıqları var.

Jurnalistlər həm də baş verən cinayətləri, haqsızlıqları, korrupsiya, özbaşınalıqları və s. ortaya çıxarmağa çalışan peşə sahibləridir. Bugünkü məqaləmizin qəhrəmanları isə araşdırmaçı jurnalistlərdir.

Bu gün Azərbaycanda yüzlərlə jurnalist fəaliyyət göstərir. Lakin onların az bir qismi jurnalistikanın bu sahəsini seçir. Bəlkə də bunun səbəbi həmin sahənin jurnalistlərinin daha çox təzyiqlərlə üzləşməsidir. Bəs onların əsas vəzifələri nələrdir? Gəlin bir az onlardan danışaq. Sözügedən vəzifələrə nəzər salan zaman görürük ki, faktları, sənədləri və şahid ifadələrini toplamaq, etibarlı və adətən məxfi mənbələrdən araşdırma aparmaq, əldə olunan məlumatın obyektivliyini və düzgünlüyünü dəqiqləşdirmək, tərəfsizlik prinsipinə əməl etmək əsas şərtlərdəndir.



Əlavə olaraq, hüquqlarından bəhs edəndə isə Azərbaycan Respublikasının Konstitusiyasına əsasən ifadə azadlığı, dövlət orqanları (Prokurorluq, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizlik Xidməti, məhkəmə orqanları, Prezident Administrasiyası və nazirliklər) və rəsmi şəxslərdən məlumat əldə etmək, əldə olunan mənbənin məxfiliyini qorumaq kimi hüquqları vardır. Jurnalist bu mənbənin adını açıqlamağa məcbur deyildir. Onlar güc strukturları tərəfindən müdafiə olunmalı və bu sahədə çalışan jurnalistlər daha çox təzyiqlə üzləşdiyi üçün hüquq-mühafizə orqanları tərəfindən qorunmalıdırlar.

Araşdırmaçı jurnalist cəmiyyət üçün vacib olan, məxfi və ört-basdır edilən faktları üzə çıxaran müstəqil jurnalistdir. Jurnalistikanın bu sahəsini seçən jurnalistlər öz məqsədlərində qətiyyətli, analitik düşünmə baxımından digər jurnalistlərdən üstün, soyuqqanlı və insanları analiz etmə bacarığına malik olmalıdırlar.

Onlar uzun müddət — aylarla, hətta illərlə araşdırmalar aparırlar. Araşdırmaçı jurnalistikanın hüquq-mühafizə orqanları və kriminalistika ilə də kəsişmə nöqtələri var. Jurnalistlərin araşdırması nəticəsində hüquq-mühafizə orqanları istintaqa başlaya bilər. Bununla yanaşı, jurnalistin dəqiq araşdırması nəticəsində əldə etdiyi məlumatın istintaq üçün əhəmiyyəti də az deyil.

Əlbəttə, bu sahə jurnalistlərinin hüquqları və vəzifələri olduğu kimi, qanun qarşısında məsuliyyətləri də var. Yanlış və qeyri-rəsmi sənədlərdən məlumat toplamaq, şəxsi həyatın toxunulmazlığına riayət etmək, əldə etdiyi mənbəni qoruyaraq onu ifşa etməmək jurnalistin məsuliyyətlərindəndir.

Bir növ, bu sahə əməkdaşları hüquq-mühafizə orqanlarından fərqlənərək "müstəqil istintaq" aparırlar.

İngilis media nəzəriyyəçisi Huqo de Burq deyir ki: "Araşdırmaçı jurnalist — peşəsi hər hansı mediada həqiqəti aşkar etmək və ondan kənara çıxanları müəyyən etmək olan kişi və ya qadındır. Bu, araşdırmaçı jurnalistika adlanır və polis, hüquqşünaslar, auditorlar və tənzimləyici orqanlar tərəfindən görülən oxşar işdən fərqlənir. Onun məhdud hədəfi və qanuni əsası yoxdur və aşkarlıqla sıx bağlıdır."

*Yusif Əhməd*
***Jurnalistika ixtisası üzrə***
***I kurs tələbəsi***

# Memarlıq incisi – Möminə Xatun türbəsi

Azərbaycan memarlıq tarixində və mədəniyyətində dərin iz qoymuş abidələrdən biri də Naxçıvanda yerləşən Möminə Xatun türbəsidir. Bu türbə XII əsrdə böyük memar Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən ucaldılmış və həm memarlıq, həm də bədii sənət baxımından Şərq dünyasının ən gözəl nümunələrindən birinə çevrilmişdir. Türbə Atabəy Məhəmməd Cahan Pəhləvanın anası, Şəmsəddin Eldəgizin həyat yoldaşı Möminə Xatunun şərəfinə 1186-cı ildə inşa edilmişdir.



Əcəmi Əbubəkr oğlunun dövrümüzə qədər çatmış ən möhtəşəm əsəri olan Möminə Xatun türbəsi bu gün də orta əsr Naxçıvan şəhərinin əzəmətini əks etdirir. Naxçıvan memarlıq məktəbinin və bədii zövqünün yüksək səviyyəsinin şahidi kimi bu abidə şəhərin mərkəzində ucalır. Abidənin üzərindəki kitabədən məlum olur ki, türbə 1186-cı ildə Möminə Xatunun xatirəsinə tikilmişdir. Monumental və əzəmətli tikili olan bu türbə əsrlər boyu Naxçıvana gələn səyyah və tədqiqatçıların diqqətini cəlb etmişdir. XIX əsrin əvvəllərində Naxçıvana səfər edən Dübua de Monper abidəni tədqiq etmiş, kitabələrin surətini çıxararaq Peterburqa, akademik Frenə göndərmişdir. O vaxtdan etibarən müxtəlif alim və şərqşünaslar türbə və onun kitabələri barədə elmi əsərlər yazmışlar. Möminə Xatun türbəsi bürcvari Azərbaycan türbələrinin ən görkəmli nümunəsi hesab olunur. Zəmanəmizə qədər qalmış hissəsinin hündürlüyü 26 metrdir. Xarici örtüyü dağılsa da, əvvəlki görünüşü ilə türbənin təxminən 34 metr hündürlüyündə monumental tikili olduğu müəyyən edilir.

Abidə yeraltı sərdabə və yerüstü qurğudan ibarətdir. Yeraltı hissə planda onbucaqlıdır və mərkəzdəki sütundan künclərə atılmış tağlarla mühəndislik baxımından maraqlı şəkildə həll edilmişdir. Türbənin yerüstü hissəsi xaricdən onbucaqlı, daxildən isə dairəvi formadadır. Quruluş etibarilə Yusif Küseyir oğlu türbəsinə bənzəyir, lakin Möminə Xatun türbəsində bu memarlıq sxemi daha zəngin işlənmişdir. Burada memarlıqla rəssamlığın sintezi yaradılmış, səthlər kitabələr və ornamentlərlə harmonik şəkildə bəzədilmişdir. Türbənin bucaqlarındakı çıxıntılar kufi xətli kitabələrlə örtülmüşdür. Bu kitabələrin ümumi uzunluğu təxminən 500 metrə çatır ki, bu da abidənin həm bədii, həm də dini əhəmiyyətini göstərir. Türbənin səthlərindəki bəzəklər memarın tükənməz fantaziyasını sübut edir – heç bir ornament təkrarlanmır, lakin hamısı ümumi bədii vəhdət təşkil edir. Həndəsi ornamentlərin əsasını çoxuclu ulduzlar və onlardan çıxan süvari xətlər təşkil edir. Burada 5, 6, 8 uclu ulduzlara və 6, 8 bucaqlı fiqurlara rast gəlinir. Türbənin qərb səthi fərqli şəkildə tərtib edilmiş, burada baştağlı giriş qapısı yerləşdirilmişdir.

Yuxarı hissədəki firuzəyi kaşı üzərində kufi xəttlə işlənmiş kitabə qurşağı abidənin kompozisiyasında mühüm element kimi çıxış edir. Türbənin daxili bəzəyi sadə, lakin dərin mənalıdır: günbəzin iç tərəfində dörd böyük qönçə yerləşir və onların içində "Allah", "Ömər", "Osman", "Əli" sözləri nəbati ornamentlər arasında işlənmişdir.

Möminə Xatun türbəsi təkcə Azərbaycan memarlığı üçün deyil, bütün Yaxın Şərq memarlıq məktəbi üçün də nümunə olmuşdur. Məşhur alman şərqşünası Ernist Dits "Türk sənəti tarixi" əsərində qeyd edir ki, Memar Sinanın İstanbulda tikdiyi bəzi türbələr Naxçıvan abidələrinin təsiri altında formalaşmışdır. Ditsin fikrincə, Memar Sinan XVI əsrdə yeniçəri ordusunun mühəndisi kimi Naxçıvanda olmuş və Əcəmi Naxçıvaninin əsərləri ilə tanış olmuşdur. Bu fakt, Əcəminin yaratdığı memarlıq üslubunun əsrlər sonra belə regionun sənətkarlarına təsir etdiyini göstərir. Möminə Xatun Azərbaycan tarixində dövlətçilik və mədəniyyət sahəsində mühüm rol oynamış qadın şəxsiyyətlərdən biridir. O, böyük dövlət xadimi Şəmsəddin Eldəgizin həyat yoldaşı, Atabəy Məhəmməd Cahan Pəhləvanın anası olmuşdur. Möminə Xatun təkcə hökmdar xanımı deyil, həm də dövrünün ictimai və mədəni həyatında nüfuzlu qadın idi. Türbə onun xatirəsinə ucaldılmış ən möhtəşəm abidə olmaqla yanaşı, həm də Azərbaycan qadınının elmə, mədəniyyətə və dövlətçiliyə verdiyi töhfələrin simvoludur. Bu abidə o dövrdə qadınların cəmiyyətdə tutduğu hörmətli mövqeyi də nümayiş etdirir. Möminə Xatun türbəsi XII əsr Azərbaycan memarlığının ən parlaq incilərindən biridir. Əcəmi Naxçıvaninin bu əsəri təkcə bir məzar abidəsi deyil, həm də yüksək sənətkarlığın, dini-mənəvi dəyərlərin və qadına hörmətin rəmzidir. Bu gün Möminə Xatun türbəsi UNESCO tərəfindən dünya əhəmiyyətli memarlıq abidəsi kimi qorunur və həm Naxçıvanın, həm də bütün Azərbaycan mədəniyyətinin qürur mənbəyidir.

*Elnur Əhmədov*
**Jurnalistika ixtisası üzrə**
**I kurs tələbəsi**

## Darıxmışam…

Gecə düşüb, şıdırğı bir yağış yağır,
Şəlalənib səbri daşan navalçalar.
Elə bil ki, dərdlərimdən dolan bulud,
Dam üstündə nəğmə qoşub qaval çalar.

Yalnızlıqdan öz içimə qısılmışam,
Sudan qorxub dördgöz olan pişik kimi.
Bu yağışlı payızların təkliyi də
Tük ürpədir vahiməli eşik kimi.

Yaşın elə vədəsidi səssizlikdə,
Ürəyin də döyüntüsü baş aparır.
Bəlkə elə şıltaq payız gecə vaxtı
Bir şeirçün gizli-gizli iş aparır.

Yəqin elə külək deyil, payız döyür
Pəncərəni və qapını… açım gəlsin.
Sağa-sola şütüməkdən yorulubdur,
Tünd çay süzüm, nəfəs dərsin, bir dincəlsin.

Bir şairə sığınmağa fürsət gəzən,
Payız dindi: şərab gətir, şair adam.
Hər qədəhin məzəsi bir şeir olsun,
Darıxmışam…darıxmışam…darıxmışam…

*Elxan Yurdoğlu*

Baş redaktor:
**Şəhla Şirəliyeva**
shshahla36@gmail.com

**Ünvan:** AZ 7012,
Naxçıvan şəhəri,
Universitet şəhərciyi
**Telefon:** 544-08-61 (1360)
yenifikir.ndu@gmail.com

Qeydiyyat № 330
Sifariş № 374
**Tiraj 300**

Dizayner:
**SAHİLƏ ABBASOVA**
"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində ofset üsulu ilə çap olunmuşdur.